

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 26 (8342) CÜMƏ, 7 fevral 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Etibarlı bünövrə, davamlı inkişaf və dərin islahatların möhtəşəm uğurları

### Prezident İlham Əliyev ötən ilin nailiyyətlərini dəyərləndirərək bu il həyata keçiriləcək çox mühüm layihələrin istiqamətini müəyyənləşdirdi

İqtisadi inkişaf, ciddi islahatlar yolunda olan Azərbaycanda hər ötən il istənilən sahədə böyük uğurlar əldə edilir. İqtisadi, sosial infrastruktur layihələri, yeni-yeni müasir obyektlər, beynəlxalq layihələrin reallaşması Azərbaycana dividendlər qazandırır. Həyata keçirilən məqsədyönlü siyasət və struktur islahatları sayəsində 2019-cu ildə ölkəmizdə makroiqtisadi sabitlik təmin edilib, iqtisadi artım prosesləri sürətlənib və dayanıqlı inkişaf yeni mərhələyə daxil olub.

Prezident İlham Əliyevin islahatları cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. Çünki bu islahatlar insanların həyat səviyyəsini yaxşılaşdırır, ölkəmizin iqtisadiyyatını sürətləndirir, mövcud olan xoşagəlməz problemlərin həllində çox önəmli rol oynayır.

#### 20 ən islahatçı ölkə sırasında

Fevralın 3-də "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda həm son 16 ilin hesabatı verildi, həm ötən il reallaşan layihələr, həm də bu il həyata keçiriləcək proseslər barədə ətraflı danışıldı.

Əldə edilən uğurları qiymətləndirən cənab İlham Əliyev bir daha bu nailiyyətlərlə kifayətlənməməyi, qarşıya qoyulan bütün işlərin vaxtlı-vaxtında reallaşması üçün aidiyyəti qurumlara ciddi tapşırıqlar verdi.

Dövlət başçısının da söylədiyi kimi, bu gün Azərbaycanda islahatlar ardıcıl şəkildə aparılır. İndi isə islahatların yeni mərhələsinə qədəm qoyulub. Ona görə həm iqtisadi sahədə, həm siyasi sahədə aparılan islahatlar xalqın, dövlətin maraqlarına xidmət edir.

"Bütün bunlar bir daha onu göstərir ki, bizim siyasətimizdə əsas məqsəd dövlətimizin möhkəmlənməsi, xalqımızın daha yaxşı yaşaması, sabitliyin təmin edilməsidir. Biz bütün bu məqsədlərə çatırıq. Keçən il əldə edilmiş iqtisadi və sosial nailiyyətlər bunu bir daha təsdiqləyir".

Qeyd edək ki, bu nailiyyətləri beynəlxalq təşkilatlar da hesabatlarında xüsusi vurğulayırlar. Ölkəmizdə son illərdə biznes mühitinin daha da yaxşılaşdırılmasını Dünya Bankı da qeyd edir. "Doing Business" hesabatında Azərbaycan keçən il 20 ən islahatçı ölkə sırasına daxil edilib. Əlbəttə ki, bütün biznes qurumları bunu görür, hiss edirlər.

#### İnfrastruktur quruculuğu regionların mənzərəsini tamamilə dəyişib

IV Dövlət Proqramının birinci ili də daxil olmaqla əldə olunan uğurlar, həyata keçirilən əzəmətli layihələr Azərbaycan dövlətinin və xalqının çox qısa dövr ərzində nail olduğu misilsiz, möhtəşəm və tarixi nailiyyətlər, milli yüksəliş salnaməsinin nümunələridir.

Son illərdə aparılan nəhəng sosial infrastruktur quruculuğu işləri regionların mənzərəsini tamamilə dəyişib. Bu illər ərzində regionlarda 58 min kilometr uzunluğunda yeni qaz, su təchizatının yaxşılaşdırılması üçün 13 min kilometr uzunluğunda içməli su xətləri çəkilib, 470-ə yaxın modultipli sutəmizləyici qurğu quraşdırılıb, 706 min nəfər əhali içməli su ilə təmin edilib. Uzunluğu 16 min kilometrdən çox olan yollarda təmir-tikinti işləri aparılıb, 470 körpü və tunel istifadəyə verilib. Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramları çərçivəsində son 16 ildə 3300-dən çox məktəb, yüzlərlə uşaq bağçası və tibb müəssisəsi tikilib və ya əsaslı təmir edilib.

2019-cu ildə regionların sosial-iqtisadi inkişafının IV Dövlət Proqramı çərçivəsində bölgələrin inkişafına 7,2 milyard manat vəsait yönəldilib. Eyni zamanda Prezidentin imzaladığı sərəncamlarla əlavə olaraq 1 milyard manata yaxın vəsait ayrılıb.

Ölkənin 10 bölgəsində sənaye zonalarının yaradılması sənayeləşmə prosesinə təkan verib. Ümumilikdə indiyədək sənaye zonalarında rezidentlər tərəfindən 6 milyard manata yaxın investisiya yatırılıb və 9 mindən çox yeni iş yeri açılıb. Ötən ildə bu zonalarda istehsalın ümumi həcmində 2,6 dəfə artım qeydə alınıb. 2019-cu ildə bunun hesabına 1573 sahibkarlıq subyektinə 175 milyon manat məbləğində güzəştli kredit verilib. 2019-cu ildə ölkə iqtisadiyyatına 13,5 milyard dollar sərmayə qoyulub.

#### Bu il reallaşacaq layihələr

Prezident İlham Əliyevin iştirakı ilə keçirilən konfransın ikinci hissəsində kənd təsərrüfatı, infrastruktur, bank-kredit məsələləri və digər məsələlər geniş müzakirə edildi, dövlət başçısı görüləcək işlərin istiqamətini müəyyənləşdirdi.

Ardı 7-ci səh.

## NATO Azərbaycanı etibarlı tərəfdaş hesab edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı Tod Voltersin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Sizi görməyimə çox şadam. Bir daha xoş gəlmisiniz. Mən bizim ötən il sonuncu görüşümüzü xatırlayıram. Bizim əməkdaşlığımızla bağlı məsələləri müzakirə etmək üçün yaxşı imkanımız oldu. Mən həmçinin bildirmək istərdim və çox şadam ki, NATO və Rusiya hərbi komandanları arasında görüşlərin Bakıda keçirilməsi artıq bir ənənədir. Biz görüş yeri kimi Azərbaycanı seçdiklərinə görə NATO və Rusiyaya çox minnətdarıq. Düşünürəm ki, bu, çox doğru seçimdir. Eyni zamanda, bunu bizə olan etimadın, hörmətin əlaməti hesab edirik. Çünki istənilən başqa bir ölkə seçilə bilərdi. Lakin Bakının seçilməsi o deməkdir ki, bizim həqiqətən də çox güclü tərəfdaşlığımız var. Mən əminəm ki, sizin bu gün həmkarınızla keçirəcəyiniz görüş çox səmərəli olacaq, dünyada və regionumuzda sülh və sabitliyə xidmət edəcək. Əslində, bizim də məhz buna ehtiyacımız var. Çünki ölkəmiz üçün əsas narahatlıq doğuran regional sabitlikdir. Bizdə potensial risklərin daxili mənbələri mövcud deyil. Ona görə də baş verə biləcək potensial risklər sərhədlərimizdən kənarda yarana bilər. Əlbəttə, bu mütəmadi görüşlər, əminəm ki, çox mühüm məsələlərin müzakirəsi dünyada və regionda sabitliyə yardımçı olacaq.

İkitərəfli əlaqələrimizə gəldikdə, demək istərdim ki, biz əməkdaşlığın səviyyəsindən çox məmnunuq. Mən dəfələrlə NATO-nun qərargahında olmuşam, müxtəlif baş katiblərlə görüşmüşəm. Mənim baş katib Stoltenberqlə sonuncu görüşüm çox səmərəli, uğurlu oldu. Mənim həmçinin Şimali Atlantika Şurasında çıxış etmək imkanım oldu. Sonra söz verilən səfirlərin, çıxış edənlərin hamısı Azərbaycan haqqında, siyasətimiz, müstəqil siyasətimiz, həyata keçirdiyimiz islahatlar və tərəfdaşlığımız haqqında çox müsbət danışdılar.

Ardı 2-ci səh.

## Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

Vanda baş vermiş qar uçqunu nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 fevral 2020-ci il*



## "Azəri" layihəsi - 15 il fasiləsiz və təhlükəsiz hasilat

### **Prezident İlham ƏLİYEV:** "Bugünkü Azərbaycanın inkişafını "Azəri-Çıraq-Günəşli"siz təsəvvür etmək mümkün deyil"

15 il əvvəl "Mərkəzi Azəri" platformasından ilk neft alındı. Bununla da təkcə Xəzərdə deyil, bütün dünyada istismar edilməkdə olan ən böyük neft yataqlarından biri - "Azəri"dən hasilata başlandı. Bu yatağın işlənməsi "Əsrin müqaviləsi" adını almış "Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsinin mühüm mərhələsini təşkil edir. Odur ki, "Azəri"dən hasilata başlanması "Əsrin müqaviləsi"nin kulminasiya nöqtəsi sayılır.

Əslində, "Azəri" öz qoynunda üç yatağı birləşdirən nəhəng kompleksdir. Onun mərkəzi, qərbi və şərqi hissələrinin hərəsi ayrıca bir yataqdır. AÇG-nin ehtiyatlarının xeyli hissəsi burada yerləşir. Bu səbəbdən "Azəri"ni AÇG-nin "şah damarı" da adlandırırlar. Təsadüfi deyil ki, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan kəmərinə ilk dəfə məhz bu yataqdan çıxarılan neft vurulub.

2005-ci il fevralın 18-də "Mərkəzi Azəri" platformasında ilk neftin əldə olunması münasibətilə təntənəli tədbir keçirildi. Tədbirdə çıxış edən Prezident İlham Əliyev görülmüş işləri yüksək dəyərləndirərək dedi: "Bu gün "Azəri" yatağından ilk neftin çıxarılması bir daha onu göstərir ki, qarşıya qoyulmuş bütün vəzifələr, planlar həyata keçirilir. Bütün çətinliklərə, maneələrə baxmayaraq, çətin geosiyasi vəziyyətdə Azərbaycan Xəzər dənizinin özünə məxsus olan sektorunda uğurla işləyibdir, qarşıda duran bütün vəzifələr həyatda öz əksini tapıbdır".

Ardı 7-ci səh.

### 9 fevral Milli Məclisə seçkilər günüdür



## Hazırlıq işləri xoş təəssürat yaradır

ATƏT-in uzunmüddətli müşahidəçiləri Hubert Ştrobel, Linda Beylsmit, MDB üzrə müşahidəçi Yevgeni Kozak və digər beynəlxalq müşahidəçilər Cəlilabad rayonu ərazisindəki 67, 68, 69 saylı dairə seçki komissiyalarında olmuş, seçkilərə hazırlığın gedişi ilə maraqlanmışlar. Biz də yolumuzu həmin dairələrdən saldıq.

67 saylı DSK üzrə 37 seçki məntəqəsi fəaliyyət göstərir. Seçki kampaniyasına start veriləndən sonra bütün işlər MSK-nın Təqvim Planı əsasında qurulmuş və seçici siyahıları məntəqələrdəki lövhələrdən asılmışdır. Cəlilabaddan 10 nəfər namizəd Milli Məclisə keçirilən növbədənkənar seçkilərdə mandat uğrunda təşviqat kampaniyasına qoşulmuşdur. Namizədlərdən 3 nəfəri siyasi partiyalar tərəfindən, 7 nəfəri isə öz təşəbbüsləri ilə irəli sürülmüşdür. Hazırda onlar seçicilərlə görüşlər keçirir, öz platformaları, deputat seçiləcəkləri halda parlament iclaslarında qaldıracaqları məsələlər barədə məlumat verirlər. Görüşlərin keçirilməsi üçün heç bir problem yoxdur. Bu məqsədlə açıq və qapalı yerlər ayrılmışdır.

DSK-nın katibi İsa Allahverdiyev dedi ki, seçkilərin gedişini 574 yerli müşahidəçi izləyəcək. Məntəqə seçki komissiyalarının sədrlərinin, katiblərinin maarifləndirilməsi məqsədilə üçgünlük treninqlər keçirilmişdir. Dairənin 3 saylı seçki məntəqəsi Cəlilabad şəhərindəki Zərifə Əliyeva adına tam orta məktəbin binasının birinci mərtəbəsində yerləşir.

Ardı 8-ci səh.

## Paşinyan-Konstitusiya Məhkəməsi qarşıdurması böyüyür

### Ermənistan tənəzzül və siyasi xaosa sürüklənir

Ermənistanda hakimiyyət dəyişikliyindən sonra müsbətə doğru hansısa yeniliklərin olacağına dair bütün ümidlərin artıq tam məhv olduğu üzə çıxır. Çünki bu ölkədə iqtisadiyyatdan tutmuş siyasət və digər sahələrə qədər vəziyyətin daha sürətlə pisləşməsi özünü qabarıq göstərir. Belə durumda ən çox diqqəti cəlb edən məqamlardan biri də Ermənistanda Paşinyan və Konstitusiya Məhkəməsi ətrafındakı gərginliyin ən yüksək həddə çatmasıdır.

Xatırladaq ki, tərəflər arasında münaqişə 2018-ci ildə Ermənistanda hakimiyyət dəyişikliyindən sonra başlayıb. "Məxməri" inqilabdan sonra hakimiyyətə gələn Paşinyan Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyanın açıq şəkildə keçmiş hərbi xuntaya bağlı olduğunu vurğulayaraq inqilabdan sonrakı dövrdə onun ədalətli və qanuni qərarlar verməyə qadir olmadığını açıqlayıb. Lakin baş nazir Tovmasyanı qanuni yolla vəzifəsindən uzaqlaşdırmağı qarşısına məqsəd qoysa da, hələ ki buna nail ola bilmir.

Xatırladaq ki, ötən ayın sonlarında Nikol Paşinyan bildirmişdi ki, Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyan ona yaltaqlanır və keçmiş hakimiyyət üçün özünün hazırladığı konstitusiyada mövcud olan problemləri göstərməyi təklif edib. Məhkəmə sədri isə baş nazirin bu bəyanatına sərt şəkildə cavab verərək qeyd etmişdi ki, 20 gün ərzində sözlərini təsdiqləyən sübutlar təqdim etməzsə və ya təkzib səsləndirməzsə, Paşinyandan məhkəməyə şikayət verəcək.

2019-cu ilin sonunda isə Hrayr Tovmasyana qarşı "vəzifə səlahiyyətlərindən sui-istifadə, ehtiyatsızlıqdan ağır nəticələrə səbəb olduqda" ittihamı irəli sürülmüşdü. Belə ki, Tovmasyan ədliyyə naziri olduğu 2010-2014-cü illərdə meriyanı Yerevanın mərkəzindəki məkanı ona bazar qiymətindən ucuz qiymətə satmağa vadar etdiyi, sonra isə buranı notariuslara icarəyə verdiyi ehtimal olunur. Ümumilikdə Hrayr Tovmasyan bu sövdələşmədən 11 milyon 200 min dram və ya 23 min ABŞ dolları gəlir əldə edib.

İstintaq materiallarına əsasən, həmin illərdə Tovmasyan Notarial Palatanı ona məxsus ofis məkanlarını özünə sərf edən şərtlərlə icarəyə götürməyə məcbur edib. Bu sövdələşmədən o, 21 min ABŞ dolları qazanıb. Bununla yanaşı, "hakimiyyətin qəsbi" haqda iş də araşdırılır. Belə ki, Tovmasyanın Konstitusiya Məhkəməsinin sədri vəzifəsinə "dələduzluq sxemi" tətbiq edərək gəldiyi ehtimal olunur. O isə bu ittihamların heç birini qəbul etmir, baş verənləri məhkəməyə və özünə təzyiq hesab edir.

Ötən ilin oktyabrında Ermənistan parlamenti "Mənim addımım" iqtidar fraksiyasının təşəbbüsü ilə sədrin səlahiyyətlərinin dayandırılması məsələsi ilə bağlı Konstitusiya Məhkəməsinə müraciət edib.

Ardı 11-ci səh.

# NATO Azərbaycanı etibarlı tərəfdaş hesab edir

*Əvvəli 1-ci səh.*

Çünki bildiyiniz kimi, Azərbaycan əvvəldən Əfqanıstanda sülhyaratma əməliyyatlarında iştirak edib. Artıq demək olar ki, 20 ildir bizim orada hərbçilərimiz var və biz hərbçilərin sayını artırmışıq. Biz çox mühüm nəqliyyat və logistika dəstəyi, hava məkanımızdan uçuş imkanını, həmçinin nəqliyyat şəbəkəmizdən, xüsusilə yaxın zamanlarda açılmış və yüklərin daşınması üçün mühüm vasitə olan Bakı-Tbilisi-Qars dəmir yolundan istifadə imkanını təmin edirik.

Mən həmçinin sizi məlumatlandırmaq istərdim ki, biz artıq Əfqanıstandan mülki yüklərin tranzit daşınmasına başlamışıq. Bununla da bu ölkənin Avropa bazarlarına yol tapmasına kömək edirik. Biz artıq dəmir yolumuzu Əfqanıstandan keçən Lapis Lazuli dəmir yolu ilə birləşdirmişik. Biz həmçinin Əfqanıstana texniki və maliyyə dəstəyi göstəririk. Bizim mühüm nailiyyətlərimizdən biri olan "ASAN" ictimai xidmətlər mərkəzi artıq Əfqanıstanda fəaliyyət göstərməyə başlayıb. Bu, çox səmərəli, müasir sistemdir, demək olar ki, 300 ictimai xidmət bir yerdə cəmləşib. Əfqanıstan Prezidenti burada olanda bu sistemlə tanış oldu və bizdən onu orada yaratmağa kömək göstərməyimizi xahiş etdi və biz bunu etdik.

Biz mülki dəstəyimizi, NATO ilə tərəfdaşlığımızı davam etdirəcəyik. Mənim köməkçim Hikmət bu yaxınlarda NATO-nun qərargahında olub.

O, mənə məlumat verdi ki, səfər çox uğurlu keçib. Onun görüşdüyü səfirlərin hamısı ölkəmiz barəsində çox xoş sözlər deyiblər və Azərbaycanı etibarlı tərəfdaş hesab edirlər, həmçinin bizim Əfqanıstandakı sülhyaratma əməliyyatlarına töhfəmiz və gələcək tərəfdaşlıq barəsində danışıblar.

Beləliklə, sizi bu barədə məlumatlandırmaq və bir daha "Xoş gəlmisiniz!" demək istərdim. Bugünkü görüşünüzün uğurlu keçməsini arzu edirəm.

NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı **Tod VOLTERS** dedi:

- Çox sağ olun, cənab Prezident. Mən təhlükəsizlik və sülh məsələlərində aparıcı mövqedə olmaq istəyinizə görə Sizi və ölkənizi təqdir edirəm. Əfqanıstanda "Qətiyyətli dəstək" missiyasına verdiyiniz töhfənin davam etdirilməsi, əsgərlərinizin orada müşahidə etdiyimiz xidməti tərəfimizdən yüksək qiymətləndirilir. Bir az bundan əvvəl Sizin baş qərargah rəisi ilə görüşmək imkanım oldu və bu yaxınlarda Əfqanıstandakı səhra komandiri ilə Həmid Kərzai beynəlxalq hava limanında əsgərlərin xidmətini müzakirə etdim. Onlar cəsarətlə xidməti davam etdirirlər və qeyd etməliyəm ki, NATO-nun Əfqanıstana cəlb edilməsi ilə bağlı məsləhətləşmələr zamanı həmişə bütün əsgərlərinizin mühafizəsi məsələsi nəzərə alınacaqdır. Biz xalqınızı və ordunuzu bütün etdiklərinizə görə təqdir edirik. Bu, Əfqanıstan sərhədlərinin xaricindən terror dəstələrinin ölkəyə daxil olmasının qarşısını almaqda bizim səylərimizə çox böyük təsir göstərir. Hesab edirəm ki, missiya yaxşı fəaliyyət göstərməyə davam edir və Sizin əsgərləriniz bu missiyanın böyük bir tərkib hissəsidir.

**Prezident İlham ƏLİYEV:** Çox sağ ol.

# Əmək pensiyalarının indeksləşdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 29.1-ci və 29.1-1-ci maddələrinə uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılsın ki, 2020-ci ilin 1 yanvar tarixinə 2019-cu il üzrə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin müəyyən etdiyi:

1.1. orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq bütün növ əmək pensiyalarının sığorta hissəsinin;

1.2. istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində qeydə alınmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsini həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 fevral 2020-ci il*

# Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 100 illik yubileyinin keçirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2020-ci ilin noyabr ayında Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin fəaliyyətə başlamasının 100 illiyi tamam olur.

Ölkənin qocaman ali təhsil müəssisələrindən biri kimi Azərbaycan Dövlət Neft və Sənaye Universiteti zəngin inkişaf yolu keçmiş, ötən müddət ərzində xeyli sayda peşəkar neftçi və mühəndis, eləcə də dünyanın onlarla ölkəsi üçün neft mühəndisi və elmi kadrlar hazırlamışdır. Respublikada uzun illər iqtisadiyyatın davamlı yüksəlişinə töhfələr vermiş bu elm və təhsil ocağı müstəqil Azərbaycanın neft strategiyasının müvəffəqiyyətlə gerçəkləşdirilməsində mühüm xidmətlər göstərmişdir. Universitetin qabaqcıl alim və mütəxəssislərinin, professor-müəllim heyətinin yaxından köməyi ilə keçmiş sovetlər birliyində və bir sıra xarici ölkələrdə neft-qaz profilli ali məktəblər təsis edilmişdir. Onun çoxsaylı məzunları arasında tanınmış dövlət xadimləri və görkəmli alimlər vardır.

Fəaliyyətini müasir Azərbaycan təhsilinin strateji hədəflərinə uyğun quran və keyfiyyətcə yeni mərhələyə qədəm qoyan universitet bu gün də ölkəmizin sənayesi və iqtisadiyyatı üçün xüsusi əhəmiyyətə malik ixtisaslar üzrə rəqabətqabiliyyətli mütəxəssislərin yetişdirilməsi işində öz vəzifələrinin öhdəsindən layiqincə gəlir. Beynəlxalq təhsil məkanına inteqrasiya yolu seçməklə dünyanın aparıcı ali məktəbləri ilə qurduğu qarşılıqlı əlaqələr, habelə ikili diplom proqramlarının tətbiqi universitetdə görülmüş işlərin uğurlu nəticələrindəndir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və ölkədə yüksəkixtisaslı peşəkar kadr potensialının formalaşdırılması sahəsində təqdirəlayiq xidmətlərini nəzərə alaraq, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 100 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 100 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 fevral 2020-ci il*

# Şəki rayonunda əkin sahələrinin və əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün subartezian quyularının layihələndirilməsi və qazılması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şəki rayonunun əhalisi 116539 nəfər olan 15 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 18 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün nəzərdə tutulmuş vəsaitin 1,26 milyon (bir milyon iki yüz altmış min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 fevral 2020-ci il*

*Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 6 fevral tarixli Sərəncamına Əlavə*

## Şəki rayonunda qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Yaşayış məntəqələri | Quyuların sayı | Əhalinin sayı |
|---|---|---|---|
| 1. | Aydınbulaq kəndi | 1 | 1049 |
| 2. | Baş Göynük kəndi | 1 | 8421 |
| 3. | Baş Küngüt kəndi | 1 | 1550 |
| 4. | Baş Zəyzid kəndi | 1 | 5428 |
| 5. | Bideyiz kəndi | 2 | 1367 |
| 6. | Birinci Biləcik kəndi | 1 | 1702 |
| 7. | Böyük Dəhnə kəndi | 1 | 6144 |
| 8. | Daşbulaq kəndi | 1 | 521 |
| 9. | Daşüz kəndi | 2 | 1230 |
| 10. | İbrahimkənd kəndi | 1 | 789 |
| 11. | Kiçik Dəhnə kəndi | 1 | 7448 |
| 12. | Qoxmuq kəndi | 1 | 5558 |
| 13. | Oxud kəndi | 2 | 5466 |
| 14. | Şəki şəhəri | 1 | 67843 |
| 15. | Vərəzət kəndi | 1 | 2023 |
| | **Cəmi** | **18** | **116539** |

# Bakı Rusiya və NATO-nun ali hərbi komandanlığının ənənəvi görüş yerinə çevrilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - Müdafiə nazirinin birinci müavini Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Hörmətli Valeri Vasilyeviç, xoş gəlmisiniz. Sizi yenidən görməyimə şadam. Şadam ki, sizin NATO-dakı həmkarlarınızla mühüm görüşlərin keçirilməsi ilə əlaqədar Azərbaycana gəlişiniz müntəzəm xarakter daşıyır. Həmçinin Bakının Rusiya və NATO-nun ali hərbi komandanlığının ənənəvi görüş yerinə çevrildiyinə görə bir daha Rusiya tərəfinə minnətdarlığımı bildirmək istərdim. Bu proses artıq üç ildir ki, davam edir və əlbəttə, Bakının seçimi bizim üçün çox əhəmiyyətli və dəyərlidir. Biz bunu bizə etimad və hörmət əlaməti kimi qəbul edirik və əlbəttə, həmçinin hesab edirik ki, bu görüşlər həm bizim regionda, həm də dünyada riskləri azaltmağa çox ciddi kömək edir. Buna görə regionda və dünyada gələcək vəziyyət sizin həmkarınızla bugünkü görüşünüzdən asılı olacaq.

Əlbəttə ki, hər belə tədbir bir daha görüşmək və hərbi-texniki sahədə əməkdaşlığın gündəliyinə nəzər salmaq üçün yaxşı imkandır. Yəni bizim sizinlə ötən dəfə, ötən il də qeyd etdiyimiz kimi, yaxşı nəticələrimiz, münasibətlərin tarixi, həm də gələcək üçün planlarımız var. Əlbəttə, biz bu istiqamətdə, həmçinin hərbi sahədə əməkdaşlığı davam etdirmək niyyətindəyik. Ölkələrimiz arasında ikitərəfli münasibətlərə gəldikdə, qarşılıqlı fəaliyyəti möhkəmləndirmək işində çox uğurlu keçən ilə yekun vurmaq olar. Həm mənim Vladimir Vladimiroviç Putinlə və digər rəhbərlərlə müntəzəm görüşlərim, həm də qarşılıqlı səfərlər ölkələrimizin daha da yaxınlaşmasına təkan verib. Biz indi iqtisadi gündəlik üzrə fəal iş aparırıq. Müxtəlif sahələrdə qarşılıqlı fəaliyyəti nəzərdə tutan beş, indi isə daha artıq - yeddi yol xəritəsi reallaşdırılır və hər bir istiqamət üzrə də yaxşı nəticələr var. Ticari-iqtisadi sahədə də yaxşı nəticələr olub. Ötən il əmtəə dövriyyəsi 20 faizdən çox artıb. Nəqliyyat, turizm sahələrində də. Ötən il rekord sayda - 900 mindən çox rusiyalı turist Azərbaycanı ziyarət edib. Ötən ay - yanvarda isə yenə də artım olub. Buna görə də düşünürəm ki, bu il biz asanlıqla milyon həddinə çatacağıq. Bu, əlbəttə ki, məhz ölkələrimiz arasında münasibətlərin göstəricisidir. Çünki rusiyalılar özlərini rahat və vərdiş etdikləri şəraitdə hiss edirlər. Beləliklə, ötən ilin yekunları uğurlu olub. Bu il də sizinlə mühüm görüşdən başlayır. Düşünürəm ki, bu ili də yaxşı nəticələrlə başa vuracağıq. Sizə həmkarınızla yaxşı görüş arzulayıram.

Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi **Valeri GERASİMOV** dedi:

- Hörmətli İlham Heydər oğlu, sağ olun. İcazə verin, NATO-nun hərbi rəhbərliyi ilə görüş üçün növbəti dəfə meydan yaratdığınıza görə Sizə təşəkkürümü bildirim. Əslində, yaranan beynəlxalq vəziyyət və sabitliyin olmadığı və gözlənilmədiyi, xüsusən Rusiyanın sərhədləri yaxınlığında da, Yaxın Şərqdə də beynəlxalq terrorizmlə gərginləşən mübarizə şəraitində olan bütün bu çətinliklər həm hərbi rəhbərliyin görüşünün, həm də bir sıra məsələlərin müzakirəsinin zəruriliyini şərtləndirir. Eyni zamanda, bunun fonunda Rusiya və Azərbaycan münasibətləri sevindiricidir. Belə ki, bizim ortaq tariximiz və Sizin söylədiyiniz iqtisadi inkişafla bağlı həmin layihələrin fonunda mehriban qonşuluq münasibətlərimiz, hərbi qurumlarımız arasında qarşılıqlı fəaliyyət, xüsusən hərbi-texniki əməkdaşlıq və silahlı qüvvələrimiz arasında digər tədbirlər genişlənir. Çox yaxşıdır ki, bir növ biz hamımız, ordularımız bir ordunun - sovet ordusunun yetirməsidir. Hərbi sahədə münasibətlərimizin yaxınlaşması üçün gələcəkdə də hər şeyi edəcəyik.

# "İgid və öz liderinə inanan bir xalqın Prezidenti"

## Bu fikri Prezident İlham Əliyevlə görüşündə Mixail Qusman ifadə etdi





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Rusiya Federasiyasının TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana "Şərəf" ordenini təqdim edib.

AZƏRTAC xəbər verir ki, Mixail Qusmanı salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Hörmətli Mixail Solomonoviç, ilk növbədə, sizi keçmiş yubiley münasibətilə təbrik etmək, sizə ən xoş arzularımı çatdırmaq, cansağlığı, rifah, işinizdə yeni uğurlar arzulamaq istərdim. Təəssüf ki, siz yubileyinizi qeyd edəndə mən Bakıda deyildim, Davosda idim. Amma sizi telefon vasitəsilə təbrik etmək və öz hisslərimi bildirmək, eləcə də sizin Bakıda olduğunuz vaxt təltif edildiyiniz yüksək mükafatı sizə şəxsən təqdim etməyim üçün görüş haqqında razılaşmaq imkanım olub. Mən bilirəm ki, siz ad günlərinizi, xüsusilə yubileylərinizi həmişə vətəniniz Azərbaycanda qeyd edirsiniz. Bu, artıq xoş ənənədir. Bu, bir daha sizin öz Vətəninizə, doğma torpağınıza, doğma şəhərinizə bağlılığınızı göstərir. Biz sizin öz Vətəninizi necə sevdiyinizi və onu bütün dünyada necə təbliğ etdiyinizi bilirik. Sizin məşhur "Formula vlasti" verilişiniz artıq dəfələrlə bütün qitələri dolaşıb və düşünürəm ki, sizin görüşmədiyiniz prezidentlərin sayı görüşdüyünüz prezidentlərin sayından daha azdır. Əlbəttə ki, adətən prezidentlər qonaqlarla görüşəndə onlara həmin adam haqqında məlumat verilir. "Yazılır: doğulduğu şəhər Bakı, Azərbaycan".

Bundan başqa, mən bilirəm ki, siz həm Rusiya, həm də beynəlxalq media məkanında bizim ölkəmiz haqqında təəssüratınızı bölüşürsünüz, Azərbaycan reallıqlarını, Azərbaycanda problemlərin necə həll olunduğunu danışırsınız. Sizin fəaliyyətiniz artıq çoxdan Rusiya Federasiyasının çərçivəsindən kənara çıxaraq beynəlxalq xarakter daşıyır. Mən bilirəm ki, siz həm də dünya mediasının əməkdaşlıq prosesinin çox fəal iştirakçısısınız. O cümlədən xatırlayıram ki, sizin təşəbbüsünüzlə Bakıda rus mətbuatının konqresi və digər beynəlxalq tədbirlər keçirilib. Buna görə də məhz öz fəaliyyətinizlə ölkəmiz haqqında dünya ictimaiyyətinə həqiqətlərin çatdırılmasına böyük töhfə verdiyinizə görə sizə minnətdarlığımı bildirmək istərdim.

Siz, həmçinin Rusiya-Azərbaycan münasibətlərinin möhkəmləndirilməsi işinə böyük töhfə verirsiniz. Bu münasibətlər bu gün uğurla inkişaf edir, artıq ən yüksək səviyyəyə çatıb və yanvarda Bakıda keçirilən yubiley tədbirləri bunu bir daha nümayiş etdirdi. Bakıya Rusiya ictimaiyyətinin böyük nümayəndə heyəti, siyasi, informasiya, mədəni məkanın aparıcı təmsilçiləri gəlmişdilər. Mənə deyilənə görə, bütün qonaqlar buradan çox yaxşı təəssüratla gediblər. Buna görə də sizə Rusiya-Azərbaycan əlaqələrinin möhkəmləndirilməsi işinə töhfələr verdiyiniz üçün təşəkkürümü bildirmək istərdim. Əlbəttə, belə gündə həm də sələflərinizi xatırlamaq istərdim. Azərbaycanda sizin ailənizi, valideynlərinizi həmişə sevib və çox yüksək qiymətləndiriblər, onlara böyük hörmətlə yanaşıblar. Bu yaxınlarda siz mənə atanız və ananız haqqında kitab bağışlamışdınız. Mən onu böyük maraqla oxudum. Bu, həqiqətən də nadir kitabdır. Belə ki, olduqca ürəkdən, səmimi və doğru yazılıb. Bu kitabda həm sizin ailənizin, uşaqlığınızın, həm də Azərbaycanın o dövrdəki tarixi əks olunub. Buna görə də kitab təkcə sizi tanıyanlar üçün deyil, həm də bizim şəhərimizin tarixi ilə maraqlanan hər kəs üçün çox maraqlıdır. Əlbəttə, belə ziyalı və möhtərəm ailədə sizin və böyük qardaşınız Yuli Solomonoviç kimi, - onun neçə yaşı olsa da, o, hamımız üçün elə Yulikdir, - uşaqların doğulması təsadüfi deyil. O da elə sizin kimi, kiminlə ünsiyyət saxlayırsa, öz enerjisini onlara ötürür. Siz və Yuli Solomonoviç işinizdə, ictimai fəaliyyətinizdə böyük uğurlar qazanmısınız. Bununla da siz təkcə hamının tanıdığı insanlar deyil, həm də hörmətli insanlarsınız. Düşünürəm ki, yəqin sizə rəğbət bəsləməyən insan tapılmaz. Siz, Mixail Solomonoviç, bütün bunlara öz əməyinizlə, öz fəaliyyətinizlə, davranışınızla və əlbəttə, öz xasiyyətinizlə nail olmusunuz. Bu gün sizinlə belə yarırəsmi şəraitdə görüşmək mənim üçün çox xoşdur. Bizim görüşlərimiz həmişə elə bil mediadan kənarda baş tutur. Amma bu gün - belə bir gündə, əlbəttə, mən sizi təbrik etmək və həmçinin Azərbaycan dövlətinin sizin fəaliyyətinizi çox qiymətləndirdiyini qeyd etmək istərdim. Bu, mənim sizi təltif etdiyim üçüncü mükafatdır. İndiyə qədər "Şöhrət", sonra "Dostluq" ordenləri olub. İndi isə daha yüksək - "Şərəf" ordeninə layiq görülmüsünüz. İcazə verin, bu yüksək mükafatı təqdim edim.

* * *

Prezident İlham Əliyev "Şərəf" ordenini Mixail Qusmana təqdim etdi.

* * *

TASS informasiya agentliyinin baş direktorunun birinci müavini **Mixail QUSMAN** dedi:

- Hörmətli İlham Heydər oğlu, hörmətli cənab Prezident.

Yüksək mükafata və indicə dediyiniz, mənim qəlbimə bu dərəcədə səmimi və əziz olan sözlərə görə Sizə minnətdarlığımı bildirmək üçün söz tapa bilmirəm. Siz mənə çox yüksək qiymət verdiniz. Yəqin 70 yaş artıq elə bir yaşdır ki, qiymət almaq vaxtıdır və mən Sizin verdiyiniz bu qiymətə görə Sizə hədsiz minnətdaram.

Məni layiq gördüyünüz bu orden "Şərəf" adlanır. Yəqin ki, vətəndaş üçün, insan üçün onun şərəfindən daha mühüm heç nə yoxdur. Mən həmişə hesab etmişəm ki, nüfuz, şərəf mənim daim xatırlamalı, riayət etməli və qorumalı olduğum ən başlıca dəyərdir. İndicə barəsində çox səmimi sözlər söylədiyiniz valideynlərim məni məhz belə tərbiyə ediblər. Bu mükafatın məndən ötrü Vətənimə məhəbbətimin rəmzi olduğunu demək mənim üçün çox vacibdir. Mən nəinki heç vaxt gizlətməmişəm, həmişə fəxr etmişəm ki, mən bakılıyam, mən azərbaycanlıyam. Bəlkə də, əlbəttə, etnik cəhətdən deyil, lakin mən məhz azərbaycanlıyam. Bunlar mənim üçün sadəcə sözlər deyil, hisslərim, düşüncələrimdir. Mən belə yaşamışam, belə yaşayıram və oğlumu da belə tərbiyə etmişəm.

Doğma ölkəm Azərbaycanın bu gün yer üzündə ən qabaqcıl ölkələr sırasında olması mənim üçün çox vacibdir. Bu, hörmətli İlham Heydər oğlu, böyük dərəcədə şəxsən Sizin xidmətinizdir. İnanın ki, bu sözləri bu mükafatı Sizin əllərinizdən aldığıma görə demirəm. Sizin rəhbərliyinizlə ölkə misli görünməmiş sıçrayış edib, o, inamlı və dayanıqlı inkişafdadır. Mən bu 15 ili xatırlayıram. Bəli, Heydər Əliyev - Allah ona rəhmət eləsin, ölkəni dağılmaqdan, viran olmaqdan xilas etdi. Lakin tale ona bu işi davam etdirməsinə imkan vermədi. Bu bayrağı Siz qaldırdınız. Siz xilas olmuş ölkəyə elə imkanlar, elə inkişaf səviyyəsi verdiniz ki, bu gün Azərbaycanda yaşayan və ya yaşamayan, lakin bununla belə Azərbaycanı mənim kimi sevən hər bir insan öz ölkəsi ilə fəxr edir, səmimi fəxr edir, başını uca tutaraq fəxr edir.

*Ardı 3-cü səh.*

# "İgid və öz liderinə inanan bir xalqın Prezidenti"

## Bu fikri Prezident İlham Əliyevlə görüşündə Mixail Qusman ifadə etdi

*Əvvəli 2-ci səh.*



Siz bu yaxınlarda burada keçirilmiş tədbirləri xatırladınız. Biz onları "Bakı-Moskva: mədəniyyətlərin dialoqu" adlandırdıq. Əlbəttə, onlar təsadüfən üst-üstə düşmədi. Burada həqiqətən də Rusiyadan görkəmli insanlar oldular. Onların çoxu buraya ilk dəfə gəlmişdi. Onların bizim şəhərə necə heyranlıqla, necə geniş açılmış maraq dolu gözlərlə, necə səmimiyyətlə baxdıqlarını görmək mənim üçün böyük xoşbəxtlik idi. Lap elə dünən mən onlardan bəziləri ilə görüşdüm. Əlbəttə, Siz də bilirsiniz ki, bizim zəngin mətbəximiz, görkəmli memarlığımız, gözəl mədəniyyətimiz var. Onlar isə daha çox onu deyirdilər ki, Azərbaycanda ən əsas insanlardır. İlham Heydər oğlu, Siz böyük xalqın, dünyaya açıq olan xalqın, xeyirxah bir xalqın, qonaqpərvər bir xalqın, igid və öz liderinə inanan bir xalqın Prezidentisiniz. Mənə elə gəlir ki, xalqınızın belə olması Sizin xoşbəxtliyinizdir. Mən bu sözləri tam səmimiyyətlə söyləyirəm.

İlham Heydər oğlu, Sizin izninizlə və Sizin vasitənizlə Azərbaycanın Birinci vitse-prezidenti, Azərbaycanın birinci xanımı Mehriban xanıma da səmimi minnətdarlığımı bildirmək istəyirəm. Çünki bilirəm ki, Siz həqiqətən yanvarın 23-də Mehriban xanımla birlikdə mənə zəng etməklə məni yüksək şərəfə layiq gördünüz. Siz bilirsiniz, yəqin ki, bu, yaşımla bağlıdır, mən sadəcə kövrəldim. Çünki Siz məşğul idiniz, Sizin işiniz çox idi, Siz mənə təbrik teleqramı göndərdiniz. Sanki formal təbriklər olmuşdu. Lakin Siz Mehriban xanımla birlikdə mənə zəng etməyi lazım bildiniz. Bilirsinizmi, bunlar elə şeylərdir ki, onları heç vaxt unutmursan. Çox sağ olun.

Mən sadəcə Sizi əmin etmək istəyirəm ki, "Şərəf" ordeni qalan bütün ömrüm ərzində mənim ən mühüm, çox lazımlı və daimi motivim olacaq. Sağ olun.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

# Azərbaycanın regional mərkəz seçilməsi ölkəmizdə həyata keçirilən inkişaf proseslərinə verilən yüksək qiymətdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da "Stadler Rail AG" şirkətinin Direktorlar Şurasının sədri Peter Şpuleri qəbul edib.



AZƏRTAC xəbər verir ki, görüşdə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə "Stadler Rail AG" şirkəti arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu, bu şirkətin istehsal etdiyi çox müasir, rahat və sürətli qatarların Azərbaycanda istifadəyə verilməsinin ölkəmizin dəmir yolu sistemində böyük dəyişikliklərə səbəb olduğu vurğulandı.

Söhbət zamanı Azərbaycanda dəmir yolu ilə ölkə daxilində səfər edən sərnişinlərin sayının artmasına, yaxın gələcəkdə dəmir yolu vasitəsilə, xüsusilə bu yaxınlarda istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmiryolu xətti ilə qonşu ölkələrə, həmçinin Avropa ölkələrinə səfərlərin həyata keçiriləcəyinə əminlik ifadə edilərək, Azərbaycanın "Stadler Rail AG" şirkətindən bundan sonra daha çox qatarın alınmasında maraqlı olduğu bildirildi.

Görüşdə həmçinin Azərbaycanın Davos Dünya İqtisadi Forumu ilə fəal əməkdaşlığına toxunuldu, Prezident İlham Əliyevlə Davos Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı üzrə regional mərkəzinin Azərbaycanda yaradılması haqqında niyyət protokolunun imzalanmasının önəmi qeyd edildi. Məhz Azərbaycanın regional mərkəz seçilməsi forum tərəfindən ölkəmizdə həyata keçirilən inkişaf proseslərinə verilən qiymət kimi dəyərləndirildi. Azərbaycanda nəqliyyat infrastrukturunun inkişafı nəticəsində Davos Dünya İqtisadi Forumunun dəmir yollarının keyfiyyəti ilə bağlı reytinqində dəmir yolu xidmətlərinin səmərəliliyinə görə ölkəmizi dünyada 11-ci yerə layiq gördüyü vurğulandı.

# Prezident İlham Əliyevin Si Cinpinə başsağlığı məktubu Çin KİV-nin diqqətindədir

Azərbaycan Prezidenti İlham Əliyevin yeni növ koronavirus nəticəsində vəfat edənlərlə əlaqədar Çin Xalq Respublikasının Sədri Si Cinpinə ünvanladığı başsağlığı məktubu Çinin kütləvi informasiya vasitələrinin diqqətindədir.

AZƏRTAC xəbər verir ki, milli xəbər agentliyi olan "Sinxua", rəsmi "Jenmin Jibao" qəzeti, Çin Mərkəzi Televiziyası, nüfuzlu "China Daily" qəzeti və digər xəbər saytları Çinin ağır günlərində ona dəstək olan ölkələr arasında Azərbaycanın da olduğunu yazırlar.

Qeyd olunub ki, Azərbaycan Prezidenti başsağlığı məktubunda Çin hökumətinin epidemiyanın yayılmaması və insan tələfatının qarşısının alınması istiqamətində atdığı addımları, Çin xalqının nümayiş etdirdiyi əzmi yüksək qiymətləndirib.

Çin KİV dövlətimizin başçısının Azərbaycan xalqının bu müvəqqəti çətin günlərdə də Çin xalqı ilə həmrəy olması, hər cür yardım göstərməyə hazır olması fikrini xüsusi vurğulayıblar.




# Yanvarın 1-dən pensiyalar 16,6 faiz artırıldı

Prezident İlham Əliyevin "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" 2020-ci il fevralın 6-da imzaladığı sərəncam pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində növbəti mühüm addımdır. Sərəncamın icrası olaraq, 2020-ci il yanvarın 1-nə 2019-cu il üzrə Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilən orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq bütün növ əmək pensiyalarının sığorta hissəsi indeksləşdirilərək 16,6 faiz artırılır.

Bu artım Prezident İlham Əliyevin tapşırığı ilə ötən il sosial ödənişlərin artırılması sahəsində inqilabi addımların atılmasını təmin edən, 4,2 milyon vətəndaşın rifahına ciddi dəstək olan uğurlu sosial islahatların 2020-ci ildə də davam etdiyini göstərir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, sərəncamla pensiyaların orta aylıq əməkhaqqının 2019-cu il üzrə artım göstəricisinə uyğun şəkildə indeksləşdirilərək 16,6 faiz artırılması sığorta prinsipi ilə pensiya alan bütün pensiyaçıları (pensiyaçıların 93 faizi və ya 1 milyon 120 minə yaxını) əhatə edəcək. Artımın həyata keçirilməsi məqsədilə illik təxminən 560 milyon, aylıq 47 milyon manat əlavə vəsaitin xərclənməsi nəzərdə tutulur. Həmin vəsait Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun gəlirləri hesabına maliyyələşdiriləcək. Artımdan sonra orta aylıq pensiya məbləği 262 manatdan 300 manatadək yüksəlir.

Artım 2020-ci il yanvarın 1-dən tətbiq olunacaq və yanvar ayının artımı fevral ayının pensiyası ilə birgə veriləcək. Misal üçün, şəxsin pensiyası 400 manatdırsa, bu məbləğ yanvarın 1-dən 16,6 faiz, yəni 66,4 manat artırılmaqla 466,4 manata çatdırılacaq, yanvar ayının 66,4 manat artımı da fevral ayında veriləcək, yəni şəxs fevralda yanvar ayının artımı ilə birgə (466.4+66,4) 532.8 manat pensiya alacaq.

Bununla bərabər, Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilən istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində qeydə alınmış pensiya kapitalı məbləğləri də yanvarın 1-dən indeksləşdirilməklə 2,6 faiz artırılır.

# Prezident İlham Əliyevin yeni sərəncamı sosial sahədə islahatların 2020-ci ildə də uğurla davam etdiyini göstərir

Prezident İlham Əliyevin "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" 2020-ci il fevralın 6-da imzaladığı sərəncamın icrası ilə əlaqədar mətbuat konfransı keçirən Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev həmin sərəncamın sosial sahədə islahatların 2020-ci ildə də uğurla davam etməsinin əyani təsdiqi olduğunu vurğulayıb. O qeyd edib ki, bu sərəncamla 2020-ci ilin 1 yanvar tarixinə 2019-cu il üzrə Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilən orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq bütün növ əmək pensiyalarının sığorta hissəsi indeksləşdirilərək 16,6 faiz artırılır.





AZƏRTAC xəbər verir ki, nazir Prezident İlham Əliyevin uğurlu sosialyönümlü siyasəti nəticəsində ölkədə dinamik iqtisadi inkişafla paralel olaraq sosial sahənin bütün istiqamətlərində mühüm addımların atılmasına, o cümlədən pensiya təminatının ildən-ilə gücləndirilməsinə nail olunduğunu bildirib. Son 16 ildə orta aylıq əməkhaqqı 11 dəfə, orta aylıq pensiya 8 dəfə, həmçinin müavinət və təqaüdlər dəfələrlə artırılıb.

S.Babayev xüsusilə 2019-cu ildə dövlət başçısının təşəbbüsü və tapşırığı ilə reallaşdırılan inqilabi sosial islahat paketlərinin 4,2 milyon vətəndaşın gəlirlərinin əhəmiyyətli dərəcədə artırılmasını təmin etdiyini vurğulayıb. O bildirib ki, nəticədə minimum əməkhaqqı təxminən 2 dəfə, minimum pensiya 72,4 faiz, sosial müavinət və təqaüdlər orta hesabla 100 faiz artırılıb, yeni təqaüd növləri təsis edilib, ümumən Prezidentin aylıq təqaüdləri ilə təminat proqramı 5 dəfəyə yaxın genişlənib.

"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda dövlət başçısı ötənilki sosial islahatlardan bəhs edərkən "Azərbaycan xalqı ildən-ilə daha yaxşı yaşamalıdır. Bizim artan iqtisadi gücümüz ölkəmizin güclənməsinə, ilk növbədə, xalqımızın rifah halının yaxşılaşmasına yönəlməlidir və biz bunu edirik. Ona görə sosial sahədə görülmüş bu işlər bir daha bizim siyasətimizi əks etdirir, bizim gücümüzü göstərir və bundan sonra da bu sahə daim diqqət mərkəzində olacaqdır" deyə bəyan etdi.

Nazir diqqətə çatdırıb ki, ötən il minimum pensiyanın ciddi artımı nəticəsində Azərbaycan minimum pensiyanın alıcılıq qabiliyyəti indeksi üzrə MDB ölkələri və Gürcüstan üzrə 1-ci yerə yüksəlib. Pensiyalarda ciddi artım nəticəsində 2019-cu ildə Azərbaycanda pensiyaların orta aylıq məbləği 15 faiz, median pensiya məbləği 54 faiz artıb.

2019-cu ildə minimum əməkhaqqının və dövlət sektoru üzrə çalışanların əməkhaqqının artımının 1 milyon 350 min insanı əhatə etdiyini deyən S.Babayev eyni zamanda, bu ciddi artımın ötən il ölkədə orta əməkhaqqının da əhəmiyyətli dərəcədə - 16,6 faiz artması ilə nəticələndiyini qeyd edərək diqqətə çatdırıb ki, bu da nəticə etibarilə ölkəmizdə 2020-ci ildə pensiyaların əvvəlki illərin müvafiq indeksləşdirmə artımları ilə müqayisədə xeyli yüksək həddə indeksləşdirilərək artırılmasına imkan verib.

Nazir qeyd edib ki, əgər ötənilki pensiya atımı 750 mindən çox pensiyaçını əhatə etdisə, hazırkı artım sığorta prinsipi ilə pensiya alan bütün pensiyaçıların, yəni 1 milyon 120 minə yaxın insanın pensiyasına şamil olunur. Digər tərəfdən, 2019-cu ildəki pensiya artımları illik 450 milyon manat vəsait tələb edirdisə, hazırkı artım 560 milyon manat vəsaitin əhaliyə ödənilməsi ilə nəticələnəcək. Bu vəsaitlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun gəlirləri hesabına maliyyələşdiriləcək və dövlət büdcəsinə əlavə yük yaratmayacaq. Artımdan sonra orta aylıq pensiya məbləği 262 manatdan 300 manatadək yüksəlir. Artım 2020-ci il yanvarın 1-dən tətbiq olunacaq və yanvar ayının artımı fevral ayının pensiyası ilə birgə veriləcək. Son bir ildə sosial sahənin yalnız bir istiqaməti üzrə, yəni pensiya artımları hesabına pensiyaçılara 1 milyard manatdan artıq əlavə vəsait ödənilir. Bu da bir tərəfdən dövlətimizin daim artan gücünü, digər tərəfdən sosial sahəyə qayğının və diqqətin bariz nümunəsidir.

S.Babayev bildirib ki, işləyən əhalinin fərdi hesablarındakı pensiya kapitalı da Dövlət Statistika Komitəsinin təqdim etdiyi məlumata uyğun olaraq, istehlak qiymətləri indeksinin 2019-cu il üzrə illik səviyyəsinə uyğun səviyyədə indeksləşdirilməklə yanvarın 1-dən 2,6 faiz artırılacaq. Həmin kapitallarda artım isə sığortaolunanlara gələcəkdə təyin olunacaq pensiyaların məbləğinin artımına əsas yaratmış olur.

Əmək pensiyalarının indeksləşdirilməsi bir tərəfdən də əmək müqaviləsi ilə çalışaraq sosial sığorta sistemində fəal iştirak üçün bir stimuldur. Belə ki, əmək müqaviləsi ilə çalışanlar fərdi hesablarındakı pensiya kapitalının təkcə hər ay sosial sığorta ayırmaları ilə deyil, eyni zamanda, dövlət tərəfindən də hər ilin əvvəlində indeksləşdirilərək artırıldığının şahidi olurlar. Bu həmçinin qeyri-formal məşğulluq sahəsində işləyən vətəndaşlara bir mesajdır ki, onlar da öz əmək fəaliyyətlərini rəsmiləşdirsinlər, pensiya kapitallarına malik olsunlar ki, hər il dövlət tərəfindən həmin pensiya kapitallarının indeksləşdirilərək artırılması imkanından faydalansınlar, beləliklə də gələcəkdə pensiya təminatı hüququna sahib olsunlar.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva 3 nömrəli Şəhər Klinik Xəstəxanasının doğum şöbəsində olub





Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakının Sabunçu rayonunda yerləşən 3 nömrəli Şəhər Klinik Xəstəxanasının doğum şöbəsində olub.



Altmış çarpayılıq doğum şöbəsi Heydər Əliyev Fondu tərəfindən yeni küvez aparatları ilə təchiz edilib.

AZƏRTAC xəbər verir ki, Leyla Əliyevaya tənəffüs problemləri və digər problemlərlə doğulduqları üçün bu xüsusi aparatlara yerləşdirilən körpələrin müalicəsi haqqında məlumat verilib.



# Natiq ƏMİROV: "Davos Forumunda Azərbaycana olan diqqət Prezident İlham Əliyevin şəxsi nüfuzunun, siyasi təcrübəsi və uğurlu siyasətinin nəticəsidir"

## Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirovun AZƏRTAC-a müsahibəsi

**- Davos Dünya İqtisadi Forumunda Azərbaycan Prezidentinin rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində iştirak etmisiniz. 50-ci dəfə keçirilən yubiley forumu haqqında nə deyə bilərsiniz?**

- Bu il yanvarın 21-24-də İsveçrənin Davos-Klosters şəhərində 50-ci Dünya İqtisadi Forumu keçirilmişdir və Azərbaycan bu tədbirdə ali rəhbərlik səviyyəsində təmsil olunmuşdur. Davos Forumu keçirilən müddət ərzində dünyanın hər yerindən 250-yə yaxın siyasi xadim də daxil olmaqla ümumilikdə 3000-dən çox şəxsin iştirak etdiyi görüşlərdə ən mühüm məsələlər barədə müzakirələr aparılmışdır. Bildiyiniz kimi, 1971-ci ildə forumun ilk iclası professor Klaus Şvabın biznesin bütün maraqlı tərəflərə xidmət etməsi barədə irəli sürdüyü fikrini dəstəkləmək məqsədilə keçirilib. 1973-cü ildə təsdiq olunan "Davos Manifesti"ndə isə "maraqlı tərəflər" anlayışının təkcə səhmdarları deyil, cəmiyyətin bütün nümayəndələrini əhatə etməsi fikri formalaşdı. Sonrakı illərdə bu forumun keçirilməsi təşəbbüsü özünü doğruldub və ona maraq artıb.

Hazırda Davos Forumu həm də yüksəksəviyyəli iştirakçıları ilə məşhurdur. Forumun iştirakçıları sırasında bu il ABŞ Prezidenti Donald Tramp, Almaniya Kansleri Angela Merkel, İtaliyanın Baş Naziri Cüzeppe Konte, Avropa Komissiyasının sədri Ursula Von der Leyen, İspaniyanın Baş Naziri Pedro Sançes, İsveçrə Prezidenti Simonetta Sommaruqa və digər ölkələrin prezidentləri, baş nazirləri də vardı. Dünyanın ən böyük şirkətlərinin rəhbərləri də forumun iştirakçıları arasında idi. Beləliklə, dünya birliyinin bütün sektorlarından ən vacib liderləri bir araya gətirmək və ən önəmli qlobal problemlərin mümkün həll yollarını müəyyənləşdirmək forumun əsas strategiyasıdır. Forumun son 50 ildəki baxışı qlobal təsir gücünə malik biznes, hökumətlər, beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyəti və akademik dairələrin təmsilçilərinin əməkdaşlığını təmin etməkdir. İqlim dəyişiklikləri, iqtisadiyyatdakı dalğalanmalar, texnologiya, dördüncü sənaye inqilabı, enerji məsələləri və digər qlobal əhəmiyyət kəsb edən mövzular forum zamanı müzakirə olunur.

Bu il Beynəlxalq Valyuta Fondu və digər beynəlxalq və regional təşkilatlar öz illik hesabatlarını məhz Davos İqtisadi Forumunda açıqladılar. Eləcə də bu qurumlar dünya iqtisadi siyasətinin prioritetləri, mövcud vəziyyət, təhdidlər və risklər barədə geniş açıqlamalarını məhz Davos İqtisadi Forumunda verirlər.

Forum zamanı görüşlərdə "stakeholder kapitalizmi" - maraqlı tərəflərin kapitalizmi əsas hədəf istiqaməti olaraq müəyyən edilmişdir. "Paris Sazişi" və "Dayanıqlı İnkişaf Məqsədləri" istiqamətində inkişafa nail olunmasında dövlətlərə və beynəlxalq təşkilatlara kömək göstərmək, eyni zamanda, texnologiya və ticarət idarəçiliyi ilə bağlı müzakirələri təmin etmək qarşıya əsas vəzifələr olaraq qoyulmuşdur.

Dünya İqtisadi Forumu yarandığı dövrdən ilk dəfə olaraq, dördüncü sənaye inqilabının çağırışına uyğun şəkildə yeni "Davos Manifesti", yəni etik prinsiplər toplusunu təqdim etdi. Eyni zamanda, dayanıqlı iqtisadi inkişafın təmin edilməsi məqsədilə "stakeholder kapitalizmi" ilə bağlı çağırışlar səsləndi. Belə ki, üç fərqli kapitalizm forması var. Əgər iqtisadi inkişafın istiqamətini dövlət müəyyənləşdirirsə, buna "dövlət kapitalizmi" deyilir. "Səhmdar kapitalizmi" yalnız səhmdarların maraqlarına xidmət edir və beləliklə, bərabərsizliyi gücləndirir və tez qazanc məqsədilə ətraf mühitə mənfi təsir göstərir. Məhz Davos İqtisadi Forumunun lideri Şvab "steykholder kapitalizmi" ideyasını davamlı olaraq müdafiə edir. "Steykholder kapitalizmi", hazırda dominant model olaraq uzunmüddətli dəyər yaratmağı, hər kəsə - investorlara, işçilərə, icmalara, təchizatçılara və müştərilərə daha yaxşı xidmət göstərməyi hədəfləyir. Burada əsas fikir ondan ibarətdir ki, bir müəssisənin məhsuldarlığı yalnız səhmdarların gəlirliliyi ilə deyil, ətraf mühitin qorunması, sosial və yaxşı idarəetmə sahələrindəki hədəflərinə necə çatması ilə də qiymətləndirilməlidir. Ümumilikdə 50-ci Dünya İqtisadi Forumu dünyanın iqtisadi, ekoloji, sosial və texnoloji problemlərinin həllinə dəstək olmaq üçün yüksəksəviyyəli müzakirələrlə xarakterizə olunurdu və Azərbaycan da bu müzakirələrdə aktiv rol alırdı. Onu da qeyd edək ki, ölkəmizdə həyata keçirilən tədbirlər, o cümlədən köklü islahatlar Davosun builki müzakirə mövzusu ilə uyğunlaşır.

**- Dünya İqtisadi Forumunun rəsmi açılışından bir gün əvvəl elə Davosda Beynəlxalq Valyuta Fondu tərəfindən təqdim olunan "Dünya İqtisadi İcmalı"nda qlobal iqtisadi artım proqnozları yer alırdı. Azərbaycanın iqtisadi inkişafı baxımından bunu necə qiymətləndirirsiniz?**

- Bildiyiniz kimi, son üç ildə Azərbaycanda iqtisad artım yenidən bərpa




edildi və sürətlənməyə başladı. Xüsusən də bu müddətdə qeyri-neft sektoru üzrə artım sürətləndi. 2017-ci ildə 0,1 faiz, 2018-ci ildə 1,4 faiz və 2019-cu ildə son beş ildə rekord həddə 2,2 faiz iqtisadi artım qeydə alındı. İqtisadi artımın drayveri olan qeyri-neft sektoru üzrə artım isə 3,5 faizə yüksəlməklə dünya üzrə orta artım sürətini üstələmişdir. Azərbaycandan fərqli olaraq, dünyada, xüsusən də inkişaf etməkdə olan ölkələrdə iqtisadi artım proqnozlarında yavaşıma qeydə alınır.

Qeyd etdiyiniz kimi, Davos Forumunun açılışından bir gün əvvəl Beynəlxalq Valyuta Fondu tərəfindən "Dünya İqtisadi İcmalı"nın təqdimatı oldu. Bu icmalda vurğulanırdı ki, dünya iqtisadiyyatı nisbətən sabitləşsə də, qlobal artım proqnozları ötən ilin oktyabrı ilə müqayisədə azaldılıb. Azərbaycanda ötən il iqtisadi artım 2,2 faiz olduğu halda, icmala əsasən, inkişaf etməkdə olan Avropa ölkələrində bu rəqəm 1,8 faiz, Latın Amerikası və Karib hövzəsində 0,1 faiz, Yaxın Şərq və Mərkəzi Asiyada 0,8 faiz olub. Təhlil göstərir ki, keçən il Azərbaycanda iqtisadi artım tempi inkişaf etməkdə olan əksər ölkələrlə müqayisədə yüksək olub. Amma biz bununla kifayətlənmirik və cənab Prezident Azərbaycanda iqtisadi artım tempinin daha da sürətləndirilməsini qarşıya əsas vəzifə olaraq qoymuşdur. Azərbaycan sürətlə inkişaf edən, özü-özünü təmin edən və heç kimdən asılı olmayan ölkəyə çevrilmişdir.

Məhz Davos Forumunda həm siyasi liderlərlə, həm də iş adamları ilə keçirilən görüşlərdə də cənab Prezident Azərbaycanın iqtisadi inkişafının sürətlənməsinə, siyasi əlaqələrinin genişlənməsinə xidmət edən məsələlər qaldırırdı, hər fürsətdən istifadə edib ölkəmizi dünyaya təqdim edirdi, yüksək texnologiyalara sahib olan şirkətlərlə əməkdaşlıqda Azərbaycanın marağını ifadə edirdi. Bu şirkətlərin ölkəmizə gəlişi texnoloji transferin sürətlənməsi, investisiyaların çoxalması, yeni iş yerlərinin açılması və bütövlükdə iqtisadiyyatın rəqabət qabiliyyətinin güclənməsi deməkdir. Transmilli şirkətlərlə əməkdaşlıq Azərbaycanın qlobal dəyər zəncirinə inteqrasiyasını sürətləndirir. Davosda da müzakirə olunduğu kimi, hazırda qloballaşmanın da mahiyyəti dəyişir, qlobal dəyər zənciri mallara nisbətən xidmətlər və "data" axınları üzrə daha sürətlə böyüyür. Bu trend builki Davos Forumundan Azərbaycanın iqtisadi artımı sürətləndirmək üçün əldə edə biləcəyi əsas nəticələrdəndir.

**- Mühüm məqama toxundunuz. Davos Forumu çərçivəsində siyasi liderlərlə görüşlər barədə nə deyə bilərsiniz?**

- İlk növbədə, qeyd etmək istəyirəm ki, Prezident İlham Əliyev 2007-ci ildən başlayaraq 14-cü ildir ki, dünyanın iqtisadi gündəliyini müəyyən edən Davos İqtisadi Forumunda iştirak edir və bu illər ərzində 61-i dövlət və hökumət başçıları ilə olmaqla, ümumilikdə 224 görüş keçirmişdir.

Ümumiyyətlə, budəfəki forum da iştirakçıların Azərbaycana olan diqqəti ilə seçilirdi. Təsadüfi deyil ki, cənab Prezidentin bu forumda keçirdiyi 22 görüşün, o cümlədən 6 dövlət və hökumət başçıları ilə görüşün, habelə iki paneldə iştirakının təşəbbüskarı qarşı tərəf olmuşdur.

Cənab Prezident Davosda olduğu müddətdə hər anı qiymətləndirərək Azərbaycan həqiqətlərini dünya liderlərinə çatdırırdı. Bu forum müddətində Azərbaycan Prezidentinin siyasi liderlərlə də çox mühüm və məhsuldar görüşləri oldu. Həmçinin Azərbaycan Prezidenti Dünya İqtisadi Forumu çərçivəsində keçirilən "Avrasiya üçün yeni baxış - dayanıqlı inkişaf üçün tərəfdaşlıq" mövzusunda iclasda iştirak etdi. İclasda Avrasiyada ölkələrarası əməkdaşlıq məsələsi müzakirə olundu. Bununla yanaşı, ticarət, energetika, nəqliyyat sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, dördüncü sənaye inqilabının region üçün əhəmiyyəti vurğulandı.

Azərbaycan Prezidentinin Davosda görüşdüyü şəxslərin siyahısında İsveçrə Konfederasiyasının Prezidenti xanım Simonetta Sommaruqa, Polşa Respublikasının Prezidenti Andjey Duda, Monqolustanın Prezidenti Xaltmaaqiyn Battulqa, Pakistan İslam Respublikasının Baş Naziri İmran Xan, Gürcüstanın Baş Naziri Giorgi Qaxariya, Xorvatiya Respublikasının Baş Naziri Andrey Plenkoviç, Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu və başqaları vardı.

İsveçrə Konfederasiyasının Prezidenti xanım Simonetta Sommaruqa ilə görüşdə ölkəmizin Avropanın enerji təhlükəsizliyindəki və ümumilikdə regionun təhlükəsizliyindəki rolu vurğulandı. Qeyd edim ki, Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunun rəsmi səhifəsində dərc olunan məqaləsində də Azərbaycanın liderlik etdiyi layihələrin, o cümlədən "Şahdəniz-2", Cənubi Qafqaz boru kəməri, TANAP və TAP barədə məlumat verilərək ölkəmizin Avropanın enerji təhlükəsizliyində oynadığı rol bir daha qabardılmışdı.

Pakistan İslam Respublikasının Baş Naziri İmran Xan ilə görüşdə isə Azərbaycanda turizmin sürətlə inkişaf etməsi müzakirə olundu, Pakistan tərəfi ölkəmizin bu sahədəki təcrübəsindən yararlanmaq niyyətini bildirdi. Təsadüfi deyil ki, ötən il Pakistandan Azərbaycana gələn turistlərin sayında əhəmiyyətli artım müşahidə olunub. Biz əvvəllər də Prezident İlham Əliyevin Körfəz ölkələri ilə apardığı uğurlu turizm diplomatiyasının ardından ərəb turistlərin ölkəmizə axınının gücləndiyinin şahidi olmuşduq. Bilirsiniz ki, Pakistan bizə dost və qardaş ölkədir, strateji tərəfdaşdır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə Pakistanda çox böyük sosial layihələr həyata keçirilir və bir müsəlman dövlətində təhsilə, xüsusilə qızların təhsil almasına dəstək verilir. Görüş zamanı bu əməkdaşlıq əlaqələri, mənəvi və maddi dəstək siyasəti bir daha xüsusi vurğulandı.

Polşa Respublikasının Prezidenti Andjey Duda ilə görüşdə ölkələrimiz arasında əlaqələrin inkişafı məsələləri müzakirə edildi, neft-qaz sektorunda əməkdaşlıq imkanlarının araşdırılması, həmçinin regionda və dünyada mövcud geosiyasi vəziyyət haqqında fikir mübadiləsi aparıldı. Söhbət zamanı bu ilin iyun ayında Tallində keçiriləcək Üç Dəniz Təşəbbüsündə Azərbaycanın da iştirak etməsinin əhəmiyyəti vurğulandı, Vışeqrad Qrupu və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın daha da dərinləşdirilməsi məsələləri müzakirə olundu. Bildiyiniz kimi, Üç Dəniz Təşəbbüsü Polşa, Çexiya, Slovakiya və Macarıstanı, Baltik ölkələrini, habelə Xorvatiya, Avstriya, Sloveniya, Bolqarıstan və Rumıniyanı əhatə edən iqtisadi əməkdaşlıq layihəsidir. "Üç dəniz ölkələri" anlayışı adları qeyd edilən ölkələrin Baltik, Qara və Adriatik dənizləri arasında yerləşməsi ilə bağlıdır. Azərbaycan isə "Üç dəniz ölkələri"nin iqtisadi layihələrinə Xəzər regionunu da açmaq üçün böyük potensiala malikdir. Həmçinin Vişeqrad qrupunda Macarıstan, Polşa, Çexiya, Slovakiya kimi ölkələr təmsil olunur və onlarla əməkdaşlığın genişləndirilməsi də Azərbaycanın marağındadır.

Davosdakı görüşlərdə hiss olunurdu ki, Azərbaycan dünyada ictimai-siyasi və makroiqtisadi sabitliyi, habelə dayanıqlı inkişafı təmin olunmuş bir ölkə kimi tanınmaqla yanaşı, həm də dünyada sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanı və humanizm ideyalarının carçısı kimi də qəbul edilir. Azərbaycanın belə müsbət beynəlxalq imicinin formalaşmasında Prezident İlham Əliyevin siyasətinə böyük dəstək verən Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xidmətlərini xüsusi vurğulamaq lazımdır.

**- Həmçinin Azərbaycan Prezidenti forum çərçivəsində dünyanın nəhəng şirkətlərinin nümayəndələri ilə də görüşdü. Bu görüşlər Azərbaycana nə verəcəkdir?**

- Cənab Prezidentin Davos Forumu çərçivəsində müxtəlif sektorlarda fəaliyyət göstərən xarici şirkətlərin rəhbərləri ilə keçirdiyi görüşlər həmin şirkətlərlə əlaqələrin qurulması, qarşılıqlı əməkdaşlığın gücləndirilməsi, bununla da Azərbaycanın iqtisadi inkişafı istiqamətində öz töhfəsini verəcəkdir.

Cənab Prezidentin bu görüşlərini sektorlar üzrə təhlil etdikdə neft-qaz sektorundan BP, "LUKOIL" və "Equinor" kimi böyük və nüfuzlu şirkətləri qeyd etməliyik. Rusiyanın "LUKOIL" şirkətinin prezidenti Vahid Ələkbərov ilə keçirilmiş görüşün əsas müzakirə mövzusu "Naxçıvan" və "Qoşadaş" perspektiv strukturlarının "LUKOIL" şirkəti ilə birgə işlənilməsi məsələsi olmuşdur və görüş əsnasında müvafiq qərar qəbul edilmişdir. Perspektiv yataqların işlənilməsində məhz "LUKOIL" kimi nüfuzlu şirkətlə əməkdaşlığın qurulması Azərbaycanın qeyri-neft sektorunun inkişafının stimullaşdırıldığı bir dövrdə neft sektorunda da lider ölkələr sırasında qalmaqda davam edəcəyini göstərir. Eyni zamanda, bu əməkdaşlıq ölkəmizin dünya miqyasında nüfuzunu artıraraq etimad göstərilməyə layiq bir ölkə olduğunu sübut edir. Bu istiqamətdə növbəti görüş BP şirkəti ilə keçirilmişdir. Şirkətin baş icraçı direktoru Robert Dadli ilə görüşdə artıq istifadəyə verilmiş TANAP və bu ilin sonunadək hazır olacağı gözlənilən TAP layihələri, "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənilməsinin növbəti mərhələsi, eyni zamanda, "Cənub qaz dəhlizi" Məşvərət Şurasının nazirlər səviyyəsində görüşünün bu ilin fevralında Bakıda keçirilməsi barədə danışılmışdır.

Texnologiya sahəsində ixtisaslaşmış şirkətlərdən "Signify" və CİSCO-nun rəhbərləri ilə keçirilmiş görüşləri də xüsusi qeyd etmək vacibdir. Belə ki, "Signify" şirkəti son üç ildə ardıcıl olaraq "Dow Jones Davamlılıq İndeksi"nin "Elektrik komponentləri və avadanlıqları" kateqoriyası üzrə birinci yerdə olan, işıqlandırma sahəsində innovativ, yüksəkkeyfiyyətli, enerjiyə qənaət edən işıqlandırma məhsulları, sistem və xidmətlər təqdim edən dünya lideridir. "Signify" şirkətinin baş icraçı direktoru Erik Rondolat ilə görüşdə ölkəmizə yeni texnologiyaların gətirilməsi ilə iqtisadiyyat, o cümlədən kənd təsərrüfatı sahəsində, həmçinin "ağıllı şəhər" layihələrində və internet texnologiyaları ilə işıqlandırma sistemlərinin inteqrasiyası istiqamətində müxtəlif həll variantlarının tətbiqi müzakirə mövzusu olmuşdur. Qeyd etmək lazımdır ki, 70-dən artıq ölkədə fəaliyyət göstərən bu şirkət bugünədək 53 milyon obyektin işıqlandırılmasını təmin etmişdir. Orta hesabla bir ilə 6 milyard avro dəyərində xidmət satışını həyata keçirən belə bir şirkətin Azərbaycanı biznes hədəfi olaraq seçməsi ölkəmizin uğuru olaraq qiymətləndirilə bilər.

Azərbaycanın uzun müddətdir müxtəlif sahələrdə əməkdaşlıq etdiyi "CİSCO" şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramerlə görüşdə isə prioritet istiqamətlər üzrə layihələrin reallaşdırılması barədə danışılmışdır. Sürətlə rəqəmsallaşan Azərbaycan iqtisadiyyatında bu kimi şirkətlərin inkişafı üçün çox münbit şərait vardır. Görüşdə ölkə başçısı da bu şirkət üçün Azərbaycanda çox böyük biznes potensialının mövcud olduğunu qeyd etmişdir. Xanım Kramerin Azərbaycanı "CİSCO" şirkəti üçün regionda ən önəmli ölkə olaraq qiymətləndirməsi də təsadüfi deyildir.

Azərbaycana yeni texnologiyaları gətirən digər bir şirkət "Carlsberg Group"dur. Şirkət tərəfindən Xırdalan pivə zavodunun aparıcı dünya şirkətləri tərəfindən istehsal olunan avadanlıqların təchiz olunması ilə modernləşdirilməsi, yeni qablaşdırma xəttinin quraşdırılması Azərbaycan Respublikasının qida sənayesində son illər ərzində həyata keçirilmiş ən iri investisiya layihələrindən biridir. Şirkətin zavodun inkişafına qoyduğu sərmayələrin ümumi məbləği 40 milyon manatdan artıqdır. Hazırda zavodun istehsal gücü ildə 8 milyon dekalitr təşkil edir, şirkətin məhsulları isə Azərbaycanın 12,5 mindən çox ticarət məntəqəsində təqdim olunur. "Carlsberg Group" şirkətinin baş icraçı direktoru Azərbaycan Prezidenti ilə görüş zamanı ölkədəki son islahatların yeni investisiyalar üçün çox əlverişli şərait yaratdığını vurğulamış və bu imkanlardan faydalanaraq Azərbaycana investisiya qoyuluşunu artırmaq niyyətində olduqlarını qeyd etmişdir. Eyni zamanda, şirkət tərəfindən kənd təsərrüfatı sektoruna da investisiya qoyuluşunun həyata keçirilməsi istiqamətində işlər görülür və artıq pilot layihələrin icrasına başlanılmışdır.

Texnoloji transfer baxımından növbəti əməkdaşlıq "SUEZ Group" şirkəti ilə nəzərdə tutulmuşdur. Bu şirkət kimya məhsullarının istehsalı, məişət tullantılarının yığılması və emalı istiqamətində, habelə irriqasiya və meliorasiya sahəsində beş qitədə fəaliyyət göstərir və 160 illik təcrübəyə sahibdir. Şirkətin baş icraçı direktoru Bertran Kamusla görüş zamanı Azərbaycanda qabaqcıl texnologiyaların tətbiqi barədə fikir mübadiləsi aparılmışdır. Belə ki, SUEZ real vaxt rejimində çalışan nəzarət sistemi, ağıllı sensorlar və sayğaclar, həmçinin elektroxlorlaşma həyata keçirən qurğular kimi bir sıra rəqəmsal və innovativ həllərin ölkəmizə transferini həyata keçirəcəkdir. Bundan başqa, 2014-cü ildən etibarən şirkət tərəfindən mütəxəssislərə təlimlərin keçirilməsi və nou-hau xidmətinin göstərilməsi də həyata keçirilir və bu xidmətlərdən yararlanan mütəxəssislərin sayı 13 minə çatıb. Bu istiqamətdə əməkdaşlığın 2020-ci ildə də davam etdirilməsi qərara alınmışdır.

Xarici investorların da cənab Prezidentin rəhbərliyi ilə aparılan uğurlu islahatlardan, Azərbaycandakı əlverişli biznes və investisiya şəraitinin daha da yaxşılaşmasından, rəqabət mühitinin sağlamlaşdırılması və şəffaflığın artırılmasından məmnunluqları bu islahat tədbirlərinin öz nəticəsini verməsinə işarədir. Son illərdə Azərbaycanda həyata keçirilən islahatları, xüsusilə biznes, vergi və gömrük sahələrində islahatların ümumi rəqabət mühitinə verdiyi müsbət töhfəni yüksək qiymətləndirən və ölkəmizin bugünkü biznes mühitinin bütün xarici investorların öz fəaliyyətlərini genişləndirmələri üçün çox əlverişli imkan yaratdığı qənaətində olan digər şirkət "Procter and Gamble Europe" olmuşdur. Cənab İlham Əliyevlə görüşündə şirkətin prezidenti Loik Tassel öz fəaliyyətlərini Orta Asiya və Uzaq Şərqə doğru genişləndirmək niyyətində olduqlarını və regional mərkəz olaraq məhz Bakı şəhərini seçdiklərini vurğulamışdır. Azərbaycanda yaradılan biznes mühitinin şirkətin ölkəmizdəki ofisi vasitəsilə Şərqə doğru genişlənməsinə əlverişli imkan yaradacağını bildirmişdir. Bunun əsas səbəbi kimi MDB məkanında 270 milyon istehlakçını əhatə edən azad ticarət sazişlərini və ölkəmizin inkişaf etmiş nəqliyyat-logistika sistemi ilə Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən ticarət qovşağı olmasını qeyd etmək olar.

Cənab Prezidentin Davosdakı önəmli görüşləri sırasında maliyyə-bank və sığorta sektorunun şirkətləri ilə keçirdiyi görüşlər də önəmli yer tutur. Bu baxımdan "Carlyle Group" şirkətinin həmtəsisçisi Devid Rubenşteynlə görüş xüsusi əhəmiyyət kəsb edir. İnvestisiya portfeli 222 milyard ABŞ dolları həcmində olan və 272 şirkəti idarə edən, özəl yatırımlar üzrə ikinci ən yaxşı investisiya fondu olaraq qiymətləndirilən "Carlyle Group" 94 ölkə ilə əməkdaşlıq edir. Fond ABŞ, Böyük Britaniya, Almaniya, Fransa kimi ölkələrə yatırılan investisiya layihələrini idarə edir. Fondun həmtəsisçisi Devid Rubenşteyn görüş zamanı Azərbaycanda əlverişli investisiya mühitinin yaradıldığını və mövcud əməkdaşlığın inkişafı üçün geniş imkanlar olduğunu qeyd edərək "Carlyle Group" ilə Azərbaycan Dövlət Neft Fondu arasında əməkdaşlığın daha da dərinləşdirilməsi məsələsini müzakirəyə çıxarmışdır. Bu da yaxın gələcəkdə ölkəmizə xarici investorlar tərəfindən müxtəlif sektorlara qoyulacaq yatırımların artacağını proqnozlaşdırmağa imkan verir.

Dövlət başçısı son illərdə aparılan islahatlar nəticəsində Azərbaycanda sığorta sahəsinin inkişafı və təkmilləşməsini müşahidə edən və həyata keçirilən islahatlarda iştirak etməyə, Azərbaycanda sığorta bazarının daha da inkişafına töhfə verməyə hazır olan "Swiss Re" şirkətinin nümayəndəsi ilə də görüşmüşdür. "Swiss Re" 225 milyard aktivə sahib olmaqla fövqəladə hallarda yaranan sığorta hadisələri və onların təkrar sığortası üzrə dünyanın ixtisaslaşmış lider şirkətlərindən biridir. Şirkətin ictimaiyyətlə əlaqələr üzrə sədri Veronika Skotti ilə görüşdə ölkəmizdə sığorta bazarının, xüsusilə daşınmaz əmlak sahəsində sığorta sisteminin səmərəli təşkili və inkişafı məsələləri, bu sahədə beynəlxalq təcrübənin Azərbaycanda tətbiqini sürətləndirəcək xarici investorlarla, o cümlədən "Swiss Re" şirkəti ilə əməkdaşlıq imkanları müzakirə mövzusu olmuşdur. Cənab Prezident bu görüş zamanı sığorta bazarının, xüsusilə daşınmaz əmlak bazarında sığortanın inkişafının Azərbaycan üçün önəmli olduğunu vurğuladı. Çünki bu mövzu Azərbaycan üçün çox aktualdır. Təkcə ötən il Şamaxıda baş verən zəlzələ zamanı evlərə ciddi ziyan dəydi, bəziləri dağıldı. Təcrübəyə baxsaq, dünyanın heç bir ölkəsində dövlət belə məsələlərə qarışmır, ziyan çəkən vətəndaşlar bərpa işlərini öz hesablarına həyata keçirirlər. Amma cənab Prezidentin təşəbbüsü ilə həmin bölgədə ziyan dəyən evlər dövlət hesabına yenidən tikildi və ya təmir edildi. Bu baxımdan Prezidentin keçirdiyi görüş çox əhəmiyyətli idi. Qeyd edim ki, "Swiss Re" şirkəti Danimarka, Fransa, Almaniya, Lüksemburq, İsrail və digər ölkələrlə sıx əməkdaşlıq edir.

Azərbaycanda uzun müddət uğurlu fəaliyyət göstərən, maliyyə aktivlərinin həcminə görə Rusiyanın ikinci ən böyük bankı "VTB Bank"la görüşdə də əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparılmışdır. Belə ki, cənab Prezident və bankın prezidenti və idarə heyətinin sədri Andrey Kostin arasında keçirilən görüşdə Azərbaycan iqtisadiyyatının real sektoruna kredit qoyuluşunun artırılması müzakirə olunmuş və bu istiqamətdə şirkətin fəaliyyətinin daha da genişləndirilməsi qərara alınmışdır.

Görüşlərdə müzakirə olunan yeni əməkdaşlıqlar şirkətlər tərəfindən ölkəyə investisiya yatırımlarının artmasına, yeni texnologiyaların transferinə, eyni zamanda, qlobal dəyər zəncirinə qoşulmaq üçün yeni imkanların yaranmasına səbəb olacaqdır. Bildiyiniz kimi, iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsi texnoloji inkişafdır. Yeni texnologiyaların tətbiqi də öz növbəsində, məhsuldarlığı artırmaqla iqtisadi inkişafa təkan verəcəkdir. Mötəbər şirkətlərlə əməkdaşlıq isə öz növbəsində, Azərbaycanın dünya miqyasında nüfuzunun daha da artmasına, multiplikator effekti ilə digər şirkətlərdə də ölkəmizlə bağlı müsbət fikrin və güvənin formalaşmasına öz təsirini göstərməklə ölkə iqtisadiyyatının daha da böyüməsinə şərait yaradacaqdır.

Müstəqillik dövründə Azərbaycana yatırılan 270 milyard dollar sərmayə hesabına ölkəmiz adambaşına düşən investisiya miqyasına görə regional liderdir. Ötən il region üzrə sərmayə axınlarının azaldığı halda Azərbaycanda qeyri-neft sektoruna yatırılan sərmayə 1,9 faiz artmışdır. Təsadüfi deyil ki, Avropa İttifaqı, PWC, Deloitte və sair mötəbər qurumların keçirdiyi sorğular da investorların Azərbaycanla bağlı gözləntilərinin müsbət olduğunu və onların investisiyaların həcmini artırmaq barədə düşündüklərini göstərir. Ölkə başçısının Davos çərçivəsində keçirdiyi görüşlərdə də investorlar öz müsbət mövqelərini bir daha təsdiqləmişlər.

Yuxarıda qeyd olunan bütün görüşləri ümumiləşdirsək, qətiyyətlə söyləmək mümkündür ki, son on beş il ərzində həyata keçirdiyi regional və qlobal əhəmiyyətli layihələrlə dünyanın güc mərkəzlərini öz orbitində saxlamağı bacaran Azərbaycan yenə həm siyasi dairələrin, həm investorların, həm də digər qlobal güclərin ölkə iqtisadiyyatına olan maraqlarının qorunub saxlanılmasına nail olmuşdur. Bu da bir həqiqətdir ki, Davos Forumunda Azərbaycana olan diqqət Prezident İlham Əliyevin şəxsi nüfuzunun, siyasi təcrübəsi və uğurlu siyasətinin nəticəsidir.

**- Həmçinin budəfəki Davos Forumu OPEC-in baş katibi Məhəmməd Barkindonun Azərbaycan Prezidentinin 5 il bundan əvvəlki təklifini reallaşdırmalarını və bundan fayda əldə etdiklərini bildirilməsi ilə də yadda qaldı.**

*Ardı 5-ci səh.*

# Natiq ƏMİROV: "Davos Forumunda Azərbaycana olan diqqət Prezident İlham Əliyevin şəxsi nüfuzunun, siyasi təcrübəsi və uğurlu siyasətinin nəticəsidir"

## Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirovun AZƏRTAC-a müsahibəsi

*Əvvəli 4-cü səh.*



- Avrasiyanın mərkəzində enerji xəritəsini yenidən şəkilləndirən Prezident İlham Əliyev 2016-cı ildə Davos İqtisadi Forumunda çıxışı zamanı OPEC və bu konsorsiuma daxil olmayan neft hasilatçılarının əməkdaşlığı təşəbbüsünü irəli sürmüşdü. Beləliklə, "OPEC +" formatı meydana gəldi. Bu format OPEC-in üzvü olan ölkələrlə neft hasil edən, lakin bu qurumda təmsil olunmayan dövlətlərin birgə toplantısını və enerji resurslarının hasilatı, ixracı, dünya bazarında neftin qiyməti və digər məsələlərin əlaqələndirilmiş müzakirəsini nəzərdə tuturdu.

2016-cı ilin dekabrında OPEC və OPEC+ ölkələrinin neft istehsalçıları neft hasilatını azaltmaq məqsədilə imzaladıqları tarixi müqavilədən sonra neft qiymətləri optimallaşdı. Xatırladaq ki, o vaxt Azərbaycan daxil olmaqla OPEC-ə üzv olmayan 10 ölkə ilə imzalanan həmin müqavilə sayəsində 2017-ci ilin yanvar ayından etibarən neft hasilatının azaldılması ilə neftin qiymətinin yüksəlməsinə nail olundu. Bu, neftin bugünkü sabit qiymətinin bərpa olunmasına təkan verən əsas səbəb olmuşdur ki, mövcud qiymət hazırda 60-70 dollar civarındadır.

Prezident İlham Əliyevin təşəbbüsü əsasında yaradılmış "OPEC+" Azərbaycanın enerji siyasətinin uğurudur. Bu format institut kimi təkmilləşərək qlobal neft çağırışlarına adekvat cavab verir, birgə müzakirələr əsasında dünya bazarında neftin qiyməti və digər məsələlərin vahid formatda müzakirəsini təşkil edir. OPEC-ə üzv və "OPEC+" ölkələri Nazirlərinin Birgə Monitorinq Komitəsinin iclasının Bakıda keçirilməsi də Azərbaycanın enerji siyasətinin növbəti nailiyyətidir. Bakıda keçirilən OPEC və qeyri-OPEC ölkələri nazirlərinin Birgə Monitorinq Komitəsinin 13-cü iclasında bu təşkilatın bazarın inkişaf tempinin təhlili əsasında hazırlanmış təqdimatı və Müştərək Texniki Komissiyanın hasilat göstəricilərindən bəhs edən hesabatı müzakirə edilmiş, neft istehsalının azaldılmasına dair öhdəliklərə əməletmə səviyyəsi də nəzərdən keçirilmişdir.

OPEC-in baş katibi Məhəmməd Barkindo OPEC-ə üzv olan və OPEC-ə üzv olmayan ölkələrin bir araya gəlməsi və birgə çalışması ilə bağlı Prezident İlham Əliyevin təşəbbüsünü yüksək qiymətləndirdi. Təbii ki, böyük və kiçik neft istehsalçıları və ixracatçılarının birgə platformasına rəhbərlik edən Məhəmməd Barkindonun Prezident İlham Əliyevin təşəbbüskarlığını və qətiyyətini yüksək qiymətləndirməsi həm də Ulu Öndər Heydər Əliyevin neft strategiyasına verilən bir dəyər idi.

**- Davosda həm də Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Regional Mərkəzinin Azərbaycanda yaradılması haqqında niyyət protokolu imzalanması mərasimi oldu. Bunun əhəmiyyətini necə dəyərləndirərdiniz?**

- Doğrudan da, bu niyyət protokolunun imzalanması forumda çox diqqətçəkən məqam oldu. Protokolun imzalanmasından sonra Dünya İqtisadi Forumunun prezidenti Borge Brende Azərbaycan Prezidentinə müraciətlə dedi: "Siz qarşıya hədəf qoyanda onu həyata keçirirsiniz. Düşünürəm ki, Azərbaycan dördüncü sənaye inqilabına ən yaxşı hazır olan ölkələrdən biri olacaq". Borge Brendenin bu fikirləri heç təsadüfi deyil. Beynəlxalq təşkilatlar Azərbaycanda həyata keçirilən texnologiyayönümlü, innovativ layihələri, ümumilikdə aparılan işləri yüksək qiymətləndiriblər. Çünki Azərbaycanda insan kapitalının inkişafı üçün çox böyük işlər görülmüşdür. Son dövrlərdə aparılan islahatlar nəticəsində insan kapitalına diqqəti artırmaq, gənc kadrların, yeni düşüncə tərzinə malik insanların, yüksək təhsil almış, eyni zamanda, dünya iqtisadi və siyasi məkanında baş verənləri təhlil etməyə qadir gənclərin irəli çəkilməsinə xüsusi önəm verilir. Belə bir mərkəzin Azərbaycanda yaradılması birbaşa cənab Prezident İlham Əliyevin şəxsi iradəsi ilə bağlıdır.

Dünya İqtisadi Forumunun Regional Mərkəzləri çox az sayda ölkələrdə yaradılmışdır. İsrail, Cənubi Afrika Respublikası, Birləşmiş Ərəb Əmirlikləri, Kolumbiya və Səudiyyə Ərəbistanından sonra Azərbaycan Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Regional Mərkəzinin yaradıldığı 6-cı ölkə olacaq. Ümumilikdə bu gün texnologiyanın hüdudsuz potensialından yararlanmaq və onun sürətli böyüməsini təmin etmək üçün hökumətlərin, aparıcı texnoloji şirkətlərin, dinamik startapların, beynəlxalq təşkilatların, akademiyaların və vətəndaş cəmiyyətlərinin əməkdaşlıq edə biləcəyi qlobal, etibarlı və stabil bir məkana ehtiyac var. Dünya İqtisadi Forumunun Bakıda yaradılacaq Dördüncü Sənaye İnqilabı Mərkəzi, yeni texnoloji məhsulların implementasiyası, inkişaf etməkdə olan texnologiyalarla əlaqəli problemlərin həlli və sektorlararası əməkdaşlığın sürətləndirilməsi üçün tərəfdaşlıq platforması olacaqdır. Mərkəz həm tərəfdaş dövlətlərə, həm də özəl sektor nümayəndələrinə informasiya texnologiyaları sahəsində çevik həll yolları təklif edib, regionda miqyaslı tətbiqinə dəstək verəcəkdir. Azərbaycan şirkətlər və hökumətlər arasında blokçeyn, süni intellekt, robotlar, dəqiq tibb, rəqəmsal ticarət və digər istiqamətlər üzrə koordinasiyanı həyata keçirəcək, proseslərə dəstək verəcəkdir. Mərkəz bir şəbəkə daxilində tədqiqatların aparılması və bölüşməsində, iqtisadi inkişafda yeni texnologiyaların tətbiqində mühüm rol oynayacaqdır.

Məlumat üçün qeyd edim ki, BMT Asiya və Sakit Okean ölkələri üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) rəqəmsal və davamlı ticarətin asanlaşdırılması ilə bağlı üçüncü qlobal tədqiqatında Azərbaycan 81,72 faiz göstərici ilə Cənubi və Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya regionlarında ilk pillədə yer alıb. Azərbaycan 4 il ərzində bu tədqiqatda öz göstəricisini iki dəfə yaxşılaşdırmışdır. Bu nəticənin əldə olunmasında Azərbaycanda Yaşıl Dəhliz, Azexport.az, Rəqəmsal Ticarət Qovşağı, Digital Hub Xəzəraltı fiber-optik internet xəttinin çəkilməsi layihələrinin xüsusi rolu olmuşdur. Azərbaycan həm də komissiyanın sərhədlərarası kağızsız ticarətin aparılması ilə bağlı çərçivə razılaşmasını imzalamış və icrasına başlamışdır. Ölkəmiz transsərhəd ticarətin aparılması istiqamətində tərəfdaş ölkələrlə elektron imzaların qarşılıqlı tanınması üçün əməkdaşlıqların əsasını qoymuş, texniki işləri həyata keçirmişdir. Azərbaycan bir daha görülən işlərlə regionda rəqəmsal ticarət qovşağı olduğunu təsdiqləmişdir.

**- "Strateji baxış: Avrasiya" mövzusunda panel iclasında moderatorun "Avrasiyada indi böyük qüvvələr yerləşib, bir tərəfdən Rusiya, o biri tərəfdən Çin. Azərbaycanın Prezidenti kimi Siz, birinci növbədə, kimə zəng edərsiniz - Moskvaya, yoxsa Pekinə?" sualına cavab olaraq Prezident İlham Əliyevin "Bakıya" cavabı xüsusən maraqla qarşılandı. Bu panel müzakirələri barədə nə demək olar?**

- Bəli, sizinlə razıyam. Cənab Prezidentin bu cavabı Azərbaycanın müstəqil, heç kimdən asılı olmayan, milli maraqların hər şeydən uca tutulduğu siyasət yürütdüyünü əyani şəkildə təsdiq edir. Azərbaycan Prezidenti bu panel iclasında bir daha vurğuladı ki, biz mehriban qonşuluq siyasətinə sadiqik, amma milli maraqlarımız həmişə birinci yerdədir. Cənab Prezident qeyd etdi ki, müstəqillik illəri ərzində əldə etdiyimiz bütün nailiyyətlər xalqımızın müstəqilliyimizə sadiq olmasına, siyasi və iqtisadi sahələrdə çox ciddi islahatları həyata keçirdiyimizə görə əldə olunmuşdur. Bu gün Azərbaycan iqtisadi təhlükəsizliyin bütün əsas istiqamətlərini - enerji, ərzaq, maliyyə, nəqliyyat-logistika və rəqəmsal təhlükəsizliyini təmin etmişdir. Cənab Prezidentin qeyd etdiyi kimi, iqtisadi təhlükəsizlik siyasi müstəqilliyin əsasıdır. Həmçinin paneldə qeyd olundu ki, bizim birbaşa xarici borcun azaldılması ilə bağlı uzunmüddətli strategiyamız var. Bu gün xarici dövlət borcumuz azdır və ümumi daxili məhsulun 17 faizini təşkil edir. Lakin bizim hədəfimiz xarici dövlət borcunu ÜDM-in 10 faizinə qədər endirməkdir.

Bir məqamı xüsusi qeyd etmək lazımdır ki, Davos Forumundan bir neçə gün əvvəl forumun rəsmi saytında cənab Prezidentin "Azərbaycanın vahid və dayanıqlı dünyada rolu" sərlövhəli məqaləsi dərc olunmuşdu. Həmin məqalə bütövlükdə Azərbaycanın dünyaya baxışını əks etdirirdi. Cənab Prezident həmin məqalədə göstərirdi ki, Azərbaycan regional güc olaraq nəhəng infrastruktur layihələri həyata keçirir. Amma nəhəng infrastruktur layihələri həyata keçirən Azərbaycan, heç bir yerdə və heç bir fəaliyyətdə kiminsə alternativi mövqeyindən çıxış etmir. Layihələrə daim daha çox dəyər qatılması, daha üst səviyyəyə yüksəlməsi, eləcə də əhatə dairəsinin genişlənməsi üçün Azərbaycan əlindən gələni edir.

Hazırda ölkəmizin idarəçilik, şəffaflıq, hesabatlılıq, həyat və yaşayış standartları ilə bağlı meyarları Avropa İttifaqının standartlarına yaxınlaşır. Azərbaycanda həyata keçirilən islahatlar cəmiyyət və dünyanın aparıcı iqtisadi-maliyyə qurumları və beyin mərkəzləri tərəfindən yüksək qiymələndirilir. Hökumətə yaxşı təhsil almış, müasir baxışlı yeni insanların dəvət olunması, Prezident Administrasiyası, Nazirlər Kabineti və digər strukturlarda həyata keçirilən islahatlar idarəetmənin səmərəliliyini artırır. Cənab Prezident panel iclasında xüsusilə vurğuladı ki, Azərbaycan hökuməti heç vaxt yerinə yetirə bilməyəcəyi məsələlər barədə vəd vermir. Azərbaycanda hakimiyyət hər zaman sözünə əməl edir və xalqın həyat standartları ildən-ilə daha da yaxşılaşır.

Azərbaycan əsas diqqətini sürətlə artan əhali çağırışına yönəldir. Buna görə də bizim iqtisadi artımımız əhalinin artımına uyğun gəlməlidir. Müstəqillik illərində əhalimizin sayı 7 milyondan 10 milyona qədər artmışdır və ümumiyyətlə, hər il əhalimiz 100 min nəfərdən çox artır. Şübhəsiz ki, artan əhaliyə əlavə infrastruktur və ərzaq təminatı tələb olunur. Həmçinin, artan əhalini işlə təmin etmək üçün hər il əlavə 100 min iş yeri yaratmaq ehtiyacı yaranır. Gənc nəsil üçün məhsuldarlığa əsaslanan yüksəkixtisaslı iş yerləri yaradılmalıdır. Azərbaycanda əhalinin gənc olması bir tərəfdən çağırışlar, digər tərəfdən imkanlar yaradır. Azərbaycan hökuməti əhalinin gənc olmasını bir fürsətə çevirməyi bacarır. Ölkədə insan kapitalının inkişafına böyük dəstək verilir. Artıq Azərbaycanın iqtisadi inkişafına "Z-nəsli" və "Minilliyin nəsli" böyük töhfə verir. Digər tərəfdən Azərbaycan son 16 ildə yoxsulluq səviyyəsini 9 dəfə, işsizlik səviyyəsini isə 2 dəfəyə yaxın azaltmaqla inklüziv inkişafı təmin etmişdir.

Son üç ildə beş dəfə azaldılan inflyasiya hökumətin və Mərkəzi Bankın nəzarəti altındadır. Ən əsası inflyasiya tempi ötən il 2,6 faiz olmaqla əhalinin nominal gəlirlərinin artım tempindən əhəmiyyətli şəkildə - 7,4 faizdən az olmuşdur. Beləliklə, ötən il həyata keçirilən iki böyük sosial paket insanlarımızın daha layiqli həyat səviyyəsinin təmin olunmasına xidmət etmişdir. Panel iclasında bu məsələyə toxunmaqla cənab Prezident ölkədə monetar və fiskal siyasətin necə uzlaşdırılmasını və insan həyatının yaxşılaşdırılmasına xidmət etməsini göstərmişdir.

"Strateji baxış: Avrasiya" mövzusundakı panel iclasında cənab Prezident vurğuladı ki, Azərbaycanın daxilində risklər yoxdur. Ölkə sabitdir, inkişaf davamlıdır. Azərbaycan hakimiyyəti böyük imkanlar yaradan geniş islahatlar gündəliyinə malikdir. Ən böyük narahatlıq və əsas potensial kabus Azərbaycanın sərhədləri xaricində gərginliyin artması ola bilər. Bundan əlavə, Ermənistanın işğalçılıq siyasəti daimi təhdid mənbəyidir. Azərbaycan sərhədlərinin xaricində təhlükəsizliyin və müəyyənliyin olmasında çox maraqlıdır.

**- Yuxarıdakı sadaladığınız faktlar həm də Azərbaycanın inklüziv və dayanıqlı inkişafa nail olduğunu deməyə əsas verir. Çünki Davosun gündəliyində "inklüziv və dayanıqlı inkişaf" əsas müzakirə mövzusu idi.**

- Əlbəttə. Tam məsuliyyətlə deyə bilərik ki, Azərbaycanda həyata keçirilən uğurlu siyasətin nəticəsində inklüziv və dayanıqlı inkişafa nail olunub. Azərbaycan ardıcıl olaraq iki dəfə 2018-ci və 2019-cu illərdə Dünya Bankının "Doing Business" hesabatında "10 ən islahatçı" və "20 ən islahatçı" ölkələr sırasında qərarlaşmışdır. Həmçinin "Qlobal Rəqabətlilik Hesabatı" və "İqtisadi azadlıq indeksi" hesabatının nəticələri də ölkəmizin uğurlarını göstərir.

Məhz inklüzivliyi təşviq edən islahatlar nəticəsində Azərbaycanda dayanıqlı inkişafa nail olunması mümkün olmuşdur. Azərbaycanda həm yüksək iqtisadi artıma nail olunur, həm də ətraf mühitin mühafizəsi təşviq edilir. Təkcə bir faktı qeyd edək ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "Nəsimi ili" çərçivəsində ölkə ərazisində bir gündə 650 min ağac əkilib. Azərbaycan iqtisadiyyatının əsas maliyyə mənbəyi hələ ki karbohidrogen resursları olsa da, ətraf mühitin qorunması da ölkəmiz üçün prioritetdir. Diqqət yetirdinizsə, yanvar ayında bərpa olunan enerji resursları sektorunda aparıcı şirkətlər olan "ACWA Power" şirkəti və "Masdar" şirkəti ilə çox mühüm İcra Müqaviləsi imzalandı. Bu müqavilə Azərbaycanda bərpa olunan enerji layihələrinin inkişafında yeni səhifə açacaq və bu il ölkəmizdə yeni külək və günəş elektrik stansiyalarının təməli qoyulacaqdır. Doğrudur, Azərbaycan özünün elektrik enerjisi ehtiyaclarını təmin edir və eyni zamanda, elektrik enerjisi ixrac edir. Lakin bizim hədəfimiz bərpa olunan enerji sektorunun da inkişafıdır və biz buna nail oluruq.

Məhz Davos Forumu çərçivəsində İsveçrə Konfederasiyasının Prezidenti xanım Simonetta Sommaruqa ilə görüşdə Azərbaycan Prezidenti bərpaolunan enerji sahəsində əməkdaşlıq məsələsini müzakirə etdi, bu sahədə Azərbaycanın böyük potensialına toxundu. Aparılan qiymətləndirmələr onu göstərir ki, MDB ölkələri arasında istixana qazlarının atmosferə buraxılmasının azaldılmasında ən yüksək effektivlik göstəriciləri Azərbaycana məxsusdur.

**- Ümumilikdə bu inkişafın, uğurların fonunda 2019-cu ilin yekunlarını necə qiymətləndirirsiniz?**

- Prezident İlham Əliyevin rəhbərliyi ilə 2019-cu ildə ölkəmiz siyasi, iqtisadi və sosial sahələrdə böyük uğurlar əldə etmişdir. Son illərin rəqəmlərinə nəzər salsaq aydın olur ki, 2019-cu ildə ölkəmiz sürətli inkişafa nail olmuşdur. Qeyd etdiyimiz kimi, ÜDM-də 2,2 faiz, o cümlədən qeyri-neft sektorunda ÜDM 3,5 faiz artmışdır. 2019-cu ildə qeyri-neft sektorunda sənaye istehsalı 14,3 faiz, informasiya və rabitə xidmətləri 15,9 faiz, kənd təsərrüfatı 7,2 faiz, o cümlədən bitkiçilik 11,7 faiz artmışdır. Azərbaycana dünyanın 193 ölkəsindən 3,2 milyon və ya əvvəlki illə müqayisədə 11,3 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Xarici ticarət dövriyyəsinin müsbət saldosu isə 6 milyard dollar təşkil etmişdir. Qeyri-neft ixracımız 15,7 faiz artaraq 2 milyard ABŞ dollarına yaxınlaşmışdır. Valyuta ehtiyatlarımız isə 6,3 milyard dollar artaraq rekord həddə - 51 milyard dollara çatmışdır. Azərbaycanın strateji valyuta ehtiyatları ÜDM-in 110 faizini təşkil etdiyi halda, xarici borcumuz ÜDM-in 17 faizinə bərabərdir. Bunun daha da azaldılması istiqamətində iş aparılır. Hazırda Azərbaycanın strateji valyuta ehtiyatları 38 aylıq idxalımızı maliyyələşdirməyə kifayət edir və bu, çox yaxşı göstəricidir. 2019-cu ildə vergi və gömrük orqanlarında aparılmış islahatlar nəticəsində xəzinəyə proqnozdan əlavə 1 milyard manat vəsait daxil edilmişdir.

2019-cu ildə vətəndaşlarımızın problemli kreditlərinin həlli istiqamətində mühüm qərarların verilməsi də xüsusi qeyd edilməlidir. Azərbaycan postsovet məkanında problemli kreditlərin həllində ən humanist mövqe sərgilədi və problemin bütün ağırlığını məhz dövlət öz üzərinə götürdü. Əlbəttə, burada cənab Prezidentin iradəsini və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın xoş məramını xüsusi vurğulamaq lazımdır.

Ümumiyyətlə, 2019-cu il həm də nəhəng sosial islahatlarla yadda qalmışdır. Keçən il həyata keçirilən sosial paket 4,2 milyon insanı əhatə etdi və vətəndaşların maddi vəziyyəti yaxşılaşdı. Minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faiz, bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 2 dəfə artırılmışdır. Bir məqamı da qeyd edim ki, 2019-cu ildə əhalinin pul gəlirləri inflyasiyanı üstələməsi vətəndaşlarımızın real gəlirlərinin artmasının göstəricisidir. Beləliklə, Prezident İlham Əliyev 2019-cu ildə Azərbaycanı sosial rifah dövləti kimi daha da gücləndirdi. Azərbaycanda sosial bazar modelinin uğurunun təmin olunmasında hörmətli Mehriban xanım Əliyevanın sosial-humanitar və mədəni modernləşmə sahəsində fəaliyyəti yüksək qiymətə layiqdir.

Ölkəmizdə sosial sahədə həyata keçirilən uğurlu islahatlar 2020-ci ildə də davam edəcəkdir. Bu il icbari tibbi sığorta mərhələli şəkildə bütün ölkəni əhatə edəcəkdir.

Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan 2019-cu ildə də regionun enerji xəritəsinin şəkilləndirilməsində mühüm rolunu daha da gücləndirmişdir. Ötən il TANAP qaz kəməri kimi mühüm layihə uğurla icra edilmişdir. Ölkədə infrastruktur layihələri reallaşdırılmış, "SOCAR Polymer", "SOCAR Karbamid" zavodları açılmış, istehsal gücü 400 meqavat olan "Şimal-2" elektrik stansiyası istismara verilmişdir. Bir faktı da qeyd edim ki, əvvəllər Azərbaycan elektrik enerjisi idxal edirdisə, 2019-cu ildə 77 milyon ABŞ dolları dəyərində elektrik enerjisi ixrac etmişdir.

Müsbət məqamlardan biri də ondan ibarətdir ki, 2019-cu ildəki sürətli inkişafın 2020-ci ildə də davam edəcəyi gözlənilir. Bu il ölkəmizdə iqtisadi artımın 3 faiz olacağı proqnozlaşdırılır. Göründüyü kimi, Prezident İlham Əliyevin liderliyi ilə dünyanın ən islahatçı ölkəsi olan Azərbaycan həm də dayanıqlı və inklüziv inkişafını inamla davam etdirir.

# Naxçıvanda sahibkarlarla görüş olub

Fevralın 6-da Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüşü olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək deyib: "Müasir dövrdə ölkələrin qarşısında duran əsas vəzifələrdən biri də sahibkarlığın inkişafıdır. Bu amilin vacibliyini daim ön planda saxlayan Ümummilli Lider Heydər Əliyev deyirdi ki, sahibkarlığın inkişafı yeni iş yerləri yaradır, istehlak bazarına yeni məhsul növü çıxarır, vergiödəyicilərinin sayını artırır, iqtisadi islahatların sosial bazası kimi əhalinin orta təbəqəsini formalaşdırır. Ulu Öndərin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafı yeni mərhələyə yüksəlmişdir. Yaradılan əlverişli investisiya mühiti və göstərilən dövlət dəstəyi sahibkarlıq fəaliyyəti üçün geniş imkanlar açmış, ümumi daxili məhsul istehsalında özəl bölmənin xüsusi çəkisi artaraq 88 faizi ötmüşdür. Hazırda muxtar respublikada məşğul əhalinin 84 faizə yaxını özəl sektorda çalışır. Sənaye məhsulunun 95, tikintidə görülən işlərin 85, kənd təsərrüfatının isə 98 faizi özəl bölmənin payına düşür".

Qeyd olunub ki, son illər Naxçıvanda yüksək texnologiyalar əsasında maşınqayırma, kimya, mədənçıxarma, mebel, yüngül və yeyinti sənayesi, kənd təsərrüfatı təyinatlı çoxsaylı istehsal və xidmət sahələri yaradılmış, istehlak mallarına olan tələbatın ödənilməsində sahibkarlıq müəssisələrinin çəkisi artmışdır. Hazırda muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir. Muxtar respublikada əhalinin əksər hissəsinin kəndlərdə yaşaması bu sahə üzrə sahibkarlığın inkişafını zərurətə çevirmişdir. Real vəziyyət nəzərə alınaraq kənd təsərrüfatının kompleks inkişafı təmin edilmiş, sahibkarlar torpaq vergisi istisna olmaqla bütün növ vergilərdən azad olunmuşlar. Bu gün torpaq mülkiyyətçiləri və fermerlər güzəştli şərtlərlə texnika və avadanlıqlarla, kredit, subsidiya və gübrə ilə təmin edilirlər. Mütərəqqi suvarma sistemləri qurulur, istehsal olunan məhsulların daxili bazarda rahat satışı, ixracı və dövlət tərəfindən qəbulu həyata keçirilir.

Ali Məclisin Sədri deyib: "Ailə təsərrüfatları kiçik və orta sahibkarlığın ilkin formasıdır. Ona görə də ötən il Naxçıvan Muxtar Respublikasında "Ailə təsərrüfatı ili" elan olunmuş, bu sahənin inkişafı ilə bağlı Tədbirlər Planı təsdiq edilmiş, ailə təsərrüfatlarına dövlət maliyyə dəstəyi artırılmış, 87 ailə təsərrüfatına 820 min manata yaxın güzəştli şərtlərlə kreditlər verilmişdir. Aydın məsələdir ki, dövlət maliyyə dəstəyi olmadan özəl sektorun inkişafı mümkün deyil. Muxtar respublikada sahibkarların maliyyə resurslarına çıxış imkanlarının əlçatan olması, xüsusilə də kreditlər üzrə düzgün biznes qiymətləndirilməsinin aparılması və aşağı faiz dərəcələrinin tətbiqi hər il yeni istehsal sahələrinin yaranmasına imkan verir. Ötən il muxtar respublikada sahibkarlara 29 milyon manatdan artıq kredit verilmiş, 84 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlamışdır. Artan turizm potensialı muxtar respublikada sahibkarlığın bu istiqamətdə də inkişafına təkan vermişdir. Bütün yaşayış məntəqələrində müasir infrastrukturun yaradılması, yolların yenidən qurulması, sürətli internet təminatı, sabitlik, aparılan ekoloji tədbirlər, zəngin tarixi-mədəni irs turizm sahəsində sahibkarlıq fəaliyyətinə geniş imkanlar açmışdır".

Ali Məclisin Sədri deyib: "İstehsal olunan məhsulların ixrac potensialını yaratmadan özəl bölmənin inkişafından danışmaq mümkün deyil. Bu sahədə dövlət üzərinə düşən vəzifələri yerinə yetirir, sahibkarlara dəstək verir, ixracın təşviqi sahəsində ardıcıl tədbirlər görülür. Nəticə uğurludur. 10 ildən artıqdır ki, muxtar respublikanın xarici ticarət dövriyyəsində müsbət saldo qeydə alınır. 2019-cu ildə də muxtar respublikanın xarici ticarət dövriyyəsinin həcmi 497 milyon ABŞ dollarından çox olmuş, ticarət əməliyyatlarının 85 faizdən çoxu ixracın payına düşmüşdür. Muxtar respublikada şəffaf vergi sisteminin formalaşdırılması iqtisadi inkişafı təmin etməklə yanaşı, həm də sahibkarlıq fəaliyyəti üçün geniş imkanlar açmışdır. Xüsusilə vergi inzibatçılığına yol verilməməsi, vergi nəzarətinin təkmilləşdirilməsi və uçotun düzgün aparılmasının nəticəsidir ki, 2019-cu ildə büdcə gəlirlərinin 84 faizə yaxını vergi daxilolmaları hesabına formalaşmışdır".

Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafın təmin olunmasında və özəl bölmədə uğurlu nəticələrin qazanılmasında əməyi olanlara, eləcə də bütün sahibkarlara təşəkkürünü bildirərək deyib ki, muxtar respublikada sahibkarlığın inkişafı üçün bütün tədbirlər görülmüşdür. Qalır yaradılan imkanlardan səmərəli istifadə etmək. Aidiyyəti dövlət qurumları yerli xammala əsaslanan və tələbatı ödəyən istehsal sahələrinin yaradılması istiqamətindəki səylərini artırmalı, biznes-planlar düzgün hazırlanmalı, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrə yol verilməməlidir. Sahibkarlar da onlar üçün yaradılmış işgüzar mühitdən səmərəli istifadə etməli, rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsal olunmalıdır.

"2020-ci il muxtar respublikamızda "İxrac ili" olduğu üçün çalışıb ona nail olmalıyıq ki, sahibkarlıq müəssisələrinin fəaliyyəti daha da genişlənsin, yeni müəssisələr yaradılsın, iş yerləri açılsın, istehsalın və ixracın həcmi artsın", - deyən Ali Məclisin Sədri çıxışını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Sahibkarlar təbəqəsi güclənməlidir. Çünki bu, ölkəmizin gələcəyidir" fikirləri ilə tamamlayıb.

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev, Naxçıvan Muxtar Respublikası Vergilər Xidmətinin rəisi Azər Nağıyev, Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov, Naxçıvan Muxtar Respublikası Ailə Təsərrüfatları İctimai Birliyinin idarə heyətinin sədri Mübariz Şirəliyev, bağçılıq təsərrüfatı ilə məşğul olan İsrafil Rəhimov görüşdə çıxış edərək əldə edilmiş uğurlardan danışıblar.

Sonra Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası təltiflərinin təqdimatı olub. Ali Məclisin Sədri orden, medal və fəxri adları, eləcə də "Rəşadətli əməyə görə" nişanını təqdim edib.

Azərbaycan Respublikasının "Əməkdar kənd təsərrüfatı işçisi" fəxri adı ilə təltif olunan Rahət Hacıyev, 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif olunan Arif Cəfərov və digər təltif olunanlar əməklərinə verilən qiymətə görə minnətdarlıq ediblər.

Sonra Ali Məclisin Sədri yeni istehsal və xidmət sahələrinin yaradılması üçün 12 sahibkara güzəştli kreditlərin çeklərini təqdim edib.

Güzəştli kreditlə təmin olunanlardan Süleyman Yusifov minnətdarlıq edərək deyib ki, muxtar respublikada sahibkarlara qayğı göstərilir. Ali Məclis Sədrinin iştirakı ilə keçirilən görüşlər, verilən tövsiyə və tapşırıqlar fəaliyyətimizin genişləndirilməsinə, yeni istehsal sahələrinin və sahibkarlıq subyektlərinin yaradılmasına stimul verir.

Tədbirdə 2019-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafından bəhs edən filmə baxış olub.

Ali Məclisin Sədri Naxçıvan Biznes Mərkəzində muxtar respublikada istehsal olunan məhsullardan ibarət sərgiyə və Naxçıvan Avtomobil Zavodunun istehsalı olan yeni model avtomobillərə baxıb.

Ali Məclisin Sədri muxtar respublikada istehsal olunan məhsulların çeşidinin, keyfiyyətinin və ixrac imkanlarının artırılması, ixrac olunan məhsullara vergi güzəştlərinin tətbiq edilməsi, ailə təsərrüfatlarının fəaliyyətinin dəstəklənməsi, daxili bazarın qorunması və yerli xammalla işləyən müəssisələrin yaradılması, xidmət sahələrinin fəaliyyəti ilə bağlı Tədbirlər Planının hazırlanması, Naxçıvan Avtomobil Zavodu tərəfindən ehtiyat hissələri təminatı və texniki xidmətin təşkili barədə tapşırıqlar verib.

# Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin Xarici İşlər nazirlərinin növbədənkənar iclası keçirilib

Fevralın 6-da Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin Xarici İşlər nazirlərinin növbədənkənar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov gündəliyin zəngin olduğunu bildirib.






Tədbirdə bir sıra mühüm mövzular, o cümlədən təşkilata üzv olmayan ölkələrlə əməkdaşlıq məsələləri müzakirə olunub.

İclasdan sonra keçirilən mətbuat konfransında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyev və Xarici İşlər nazirinin müavini Ramiz Həsənov müzakirə edilən məsələlərlə bağlı məlumat veriblər.

Qeyd edilib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin də müzakirə olunduğu iclasda üzv ölkələr arasında əlaqələrin genişləndirilməsi, bir sıra ölkələrin Türk Şurası ilə əməkdaşlıq etmək istəmələri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Bağdad Amreyev vurğulayıb ki, Türk Şurası daxilində investisiya institutunun yaradılmasına ehtiyac var. O bildirib ki, investisiya fondunun yaradılması ilə bağlı işlər gedir və İstanbulda keçiriləcək sammitdə onun təqdimatı nəzərdə tutulur.

Baş katib, həmçinin qeyd edib ki, növbədənkənar iclasda Şurada müşahidəçi statusuna malik ölkələrə üzvlüyün verilməsi qaydaları müzakirə olunub. Habelə təşkilatın İƏT və BMT yanında müşahidəçi statusu alması, beynəlxalq təşkilatlarla əlaqələrin yaradılması imkanları nəzərdən keçirilib.

Diqqətə çatdırılıb ki, Xarici İşlər nazirləri üzv ölkələr arasında iqtisadi əməkdaşlığın daha da genişləndirilməsinin, təşkilat daxilində birliyin gücləndirilməsinin vacibliyini vurğulayıblar. Təşkilatın perspektivlərini müəyyən edən "Türk Şurası 2025" adlı yeni strategiya da müzakirə edilən məsələlər arasında yer alıb.

# Azərbaycanın Xarici İşlər naziri türkiyəli həmkarı ilə görüşüb

Fevralın 6-da Xarici İşlər naziri Elmar Məmmədyarov Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) Xarici İşlər Nazirləri Şurasının növbədənkənar iclası çərçivəsində Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu ilə görüşüb.



Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ölkələrimiz arasında qardaşlıq və strateji müttəfiqlik əlaqələrinin inkişafından məmnunluq ifadə olunub.

Tərəflər hər iki ölkənin iştirakı ilə reallaşdırılan mühüm layihələri müzakirə edərək Azərbaycan və Türkiyənin təşəbbüsü ilə həyata keçirilən regional layihələrin əhəmiyyətini xüsusi vurğulayıblar.

Həmçinin Türk Şurasının əməkdaşlıq gündəliyi üzrə fikir mübadiləsi aparılıb, təşkilatın beynəlxalq səviyyədə artan nüfuzundan və beynəlxalq təşkilatlarla əməkdaşlığından danışılıb.

Nazir Elmar Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesinin hazırkı vəziyyəti və bu xüsusda keçirilmiş Cenevrə görüşü ilə bağlı həmkarına məlumat verib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər regional və qlobal məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə Özbəkistan arasında əməkdaşlıq məsələləri müzakirə edilib



Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Xarici İşlər Nazirləri Şurasının Bakıda keçirilən növbədənkənar iclası çərçivəsində Xarici İşlər naziri Elmar Məmmədyarov Özbəkistanın Xarici İşlər naziri Əbdüləziz Kamilov ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər Azərbaycan ilə Özbəkistan arasında siyasi, iqtisadi, ticarət, nəqliyyat, mədəniyyət və digər sahələrdə əməkdaşlığın inkişafının əhəmiyyətini qeyd ediblər.

Ölkələrimiz arasında ticarət mübadiləsinin artırılmasına ehtiyac duyulduğunu qeyd edən nazirlər Hökumətlərarası Əməkdaşlıq Komissiyasının növbəti iclasının keçirilməsinin bu xüsusda mühüm rolunu bildiriblər.

Həmçinin qarşılıqlı səfərlərin, o cümlədən yüksək səviyyəli səfərlərin əməkdaşlığın daha da inkişafına önəmli təkan verdiyi vurğulanıb, beynəlxalq təşkilatlar çərçivəsində iki ölkə arasında əməkdaşlıq məsələləri müzakirə edilib.

Nazir Elmar Məmmədyarov beynəlxalq platformalarda Özbəkistan tərəfindən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı nümayiş olunan prinsipial mövqeyə görə həmkarına təşəkkürünü bildirib.

Habelə Türk Şurasının əməkdaşlıq gündəliyi üzrə fikir mübadiləsi aparılıb.

# Azərbaycan-Qırğızıstan əməkdaşlığının inkişafına dair fikir mübadiləsi aparılıb



Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) Xarici İşlər Nazirləri Şurasının Bakıda keçirilən növbədənkənar iclası çərçivəsində Xarici İşlər naziri Elmar Məmmədyarov fevralın 6-da Qırğız Respublikasının Xarici İşlər naziri Çingiz Aydarbekov ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirlər ikitərəfli əməkdaşlığa dair müxtəlif məsələlər ətrafında geniş fikir mübadiləsi aparıblar.

Nazir Çingiz Aydarbekov Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul edildiyini məmnuniyyətlə bildirərək, görüşün məhsuldar keçdiyini diqqətə çatdırıb. Tərəflər Azərbaycan ilə Qırğızıstan arasında mövcud olan əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirməklə bərabər, ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsinin əhəmiyyətini qeyd ediblər.

Nazirlər, eyni zamanda, Türk Şurası çərçivəsində əməkdaşlıq məsələlərinə toxunaraq iştirakçı ölkələr arasında iqtisadiyyat, ticarət və digər sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsinin önəmini vurğulayıblar. Bu xüsusda, Qırğızıstanın dəmir yolları layihələrini inkişaf etdirməklə, regional nəqliyyat dəhlizlərində daha fəal iştirak etməsi perspektivləri üzrə müzakirələr aparılıb.

Həmçinin beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığın həyata keçirildiyi vurğulanıb.

## *Mövlud ÇAVUŞOĞLU:* "Türk Şurasının güclənməsi istiqamətində tədbirlər intensivləşdiriləcək"

"Türk Şurasının güclənməsi istiqamətində tədbirlərimizi intensivləşdirəcəyik".



AZƏRTAC xəbər verir ki, bunu Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu bildirib. O qeyd edib ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin Xarici İşlər nazirləri Nyu Yorkda bir araya gələcək.

"Katibliyə yeni təkliflərin hazırlanması ilə bağlı səlahiyyət verilib. Həmin təkliflər Türk Şurasının bu il Türkiyədə keçiriləcək iclasında prezidentlərə təqdim ediləcək. Bundan sonra isə müşahidəçi ölkələrə status veriləcək", - deyə Türkiyənin Xarici İşlər naziri qeyd edib.

## *Muxtar TLEUBERDİ:* "Türk Şurasının Fəxri prezidenti statusu ilə bağlı Əsasnamə qəbul ediləcək"

"Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündə Nursultan Nazarbayevə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Fəxri prezidenti statusu verilmişdi. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Xarici İşlər Nazirləri Şurasının növbədənkənar iclasında Fəxri prezidentlə bağlı Əsasnamənin təsdiq edilməsi qərarına gəldik".



AZƏRTAC xəbər verir ki, bu fikri Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Xarici İşlər nazirləri Şurasının növbədənkənar iclasından sonra jurnalistlərə açıqlamasında Qazaxıstanın Xarici İşlər naziri Muxtar Tleuberdi bildirib.

Nazir qeyd edib ki, bugünkü iclasda üzv ölkələr arasında əməkdaşlığın genişləndirilməsi məsələsi müzakirə edildi. Eyni zamanda, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası ilə əməkdaşlıq etmək istəyən ölkələrlə bağlı məsələ diqqətdə saxlanıldı.

# Rusiya Prezidenti Azərbaycanın səfiri Polad Bülbüloğlunu Fəxri fərmanla təltif edib

Rusiya Prezidenti Vladimir Putin Azərbaycanın RF-dəki səfiri Polad Bülbüloğlunu Fəxri fərmanla təltif edib. AZƏRTAC xəbər verir ki, Azərbaycan səfiri Rusiya-Azərbaycan münasibətlərinin inkişafına verdiyi böyük töhfəyə görə Fəxri fərmanla təltif edilib. Müvafiq sənəd rəsmi hüquqi informasiya portalında dərc olunub.

# Azərbaycan və Rusiya mədəniyyət sahəsində əməkdaşlığı fəal inkişaf etdirirlər



Fevralın 6-da Mədəniyyət naziri Əbülfəs Qarayev ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Prezidentinin Beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoyla görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə nazir Azərbaycan ilə Rusiya arasında mədəni əlaqələrin inkişafından məmnunluğunu ifadə edib. Yanvar ayının sonunda paytaxtımızda keçirilən "Bakı-Moskva: mədəniyyətlərin dialoqu" konfransının böyük rezonans doğurduğunu diqqətə çatdıran Əbülfəs Qarayev bu tədbirlə bağlı müsbət rəylər səsləndiyini vurğulayıb. Qeyd olunub ki, gələcəkdə bu istiqamətdə əlaqələrin daha da möhkəmləndirilməsi üçün qarşılıqlı mədəniyyət günlərinin keçirilməsi, birgə layihələrin reallaşdırılması böyük əhəmiyyət kəsb edir.

Ölkəmizin qədim və zəngin mədəniyyəti, irs nümunələri haqqında qonaqlara məlumat verən nazir, eyni zamanda, incəsənət sahəsində Rusiya ilə uğurlu əlaqələrdən söz açıb, Azərbaycanın müxtəlif ölkələrlə də faydalı əməkdaşlıq etdiyini diqqətə çatdırıb. Vurğulanıb ki, son illərdə Rusiya ilə mədəni əlaqələr yüksələn xətlə inkişaf edir və hər iki ölkədə keçirilən tədbirlər bunun bariz nümunəsidir.

Əbülfəs Qarayev iki ölkə arasında mədəni əlaqələrin inkişafında Heydər Əliyev Fondunun dəstəyi və Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşdırılan layihələrin xüsusi əhəmiyyət kəsb etdiyini deyib və bu tədbirlərin hər zaman maraqla qarşılandığını söyləyib. Nazir söhbət əsnasında rusiyalı qonağı bu il Bakıda yeddinci dəfə keçiriləcək Beynəlxalq Humanitar Forumda yaxından iştiraka dəvət edib.

Rusiya Prezidentinin Beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy səmimi qəbula görə təşəkkürünü bildirib. O, Azərbaycanın bu il Sankt-Peterburq şəhərində keçiriləcək IX Beynəlxalq Mədəniyyət Forumunda "fəxri qonaq ölkə" statusunda təmsil olunması ilə bağlı fikirlərini bölüşərək Azərbaycan nümayəndə heyətini bu mötəbər tədbirdə görməkdən məmnun olacağını diqqətə çatdırıb.

Daha sonra tərəflər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar. Görüşdə Rusiyanın ölkəmizdəki səfiri Mixail Boçarnikov da iştirak edib.

## *Çingiz HÜSEYNZADƏ:* "Azərbaycan Atletika Federasiyası həmişə könüllülərin potensialından istifadə edir"

"Biz həmişə böyük məmnuniyyətlə könüllülərin potensialından və enerjisindən istifadə edirik. Ölkəmizdə keçirilən irimiqyaslı atletika yarışlarının təşkilinə könüllülər fəal şəkildə cəlb olunurlar".

Bunu Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Azərbaycan Atletika Federasiyasının prezidenti Çingiz Hüseynzadə AZƏRTAC-a məxsusi müsahibəsində deyib.

Azərbaycanda 2015-ci ildə keçirilən I Avropa Oyunlarından sonra geniş vüsət alan könüllülük hərəkatının son illər respublikamızda daha da inkişaf etdiyini vurğulayan federasiya prezidenti bildirib: "Azərbaycan Prezidenti İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət və qayğısı, fəal dəstəyi sayəsində ölkəmizdə könüllülər üçün hər cür şərait yaradılıb. Məhz bu diqqət və qayğının nəticəsində Azərbaycanda könüllülük hərəkatı sürətlə inkişaf edir. Dövlət başçısının sərəncamı ilə 2020-ci ilin ölkəmizdə "Könüllülər ili" elan olunması bu sahənin inkişafında yeni bir mərhələnin başlanğıcı oldu. Azərbaycan Atletika Federasiyası da təşkil etdiyi bütün yarışlarda könüllülərin potensialından, enerjisindən və köməyindən bəhrələnir. Ümumiyyətlə, təkcə atletikada deyil, idmanın bütün növlərində daim könüllülərə ehtiyac var".

# İki dövlət arasında sıx dostluq əlaqələri mətbuat qurumlarının da əməkdaşlığı genişləndirməsinə təkan verir

Pakistanın Azərbaycana səfər edən bir sıra media qurumunun nümayəndələri AZƏRTAC-da olublar.



Agentliyin İdarə Heyətinin sədri Aslan Aslanov ilə görüşdə Azərbaycan və Pakistan arasında sıx dostluq və tərəfdaşlıq münasibətlərindən danışılıb, iki ölkə xalqlarının daha da yaxınlaşmasında mətbuatın rolu xüsusi vurğulanıb. Qeyd olunub ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan bu əlaqələr Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən inkişaf etdirilir və daha da zənginləşdirilir.

Qonaqlara məlumat verilib ki, AZƏRTAC Pakistanın APP, PPİ, DND kimi informasiya agentlikləri ilə mütəmadi informasiya mübadiləsi aparır, beynəlxalq media qurumlarında bir-birilərini dəstəkləyir. "Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatında (OANA) vitse-prezident olan AZƏRTAC-ın təşəbbüsü ilə PPİ agentliyi qurumun texniki komitəsinə üzv qəbul edilib. Bizim ümumilikdə Pakistan mediası ilə sıx əlaqələrimiz var. Gələcəkdə Pakistanda da müxbir məntəqəsi açmağı planlaşdırırıq. Düşünürəm ki, bu, informasiya sahəsində əlaqələrimizin daha da möhkəmlənməsinə müsbət təsir edər", - deyə Aslan Aslanov bildirib.

İki dövlət arasında sıx dostluq əlaqələri mətbuat qurumlarının da əməkdaşlığı genişləndirməsinə təkan verir. Bu barədə danışan "Pakistan in the World" jurnalının baş redaktoru Tazin Axtar AZƏRTAC-ın fəaliyyəti ilə yaxından tanış olduqlarını qeyd edib. "Biz, pakistanlı jurnalistlər, AZƏRTAC-ın xəbərlərindən daim geniş istifadə edirik. Çünki indiki güclü informasiya axınının olduğu hazırkı dövrdə agentlik daha etibarlı və səhih məlumatlar yayır", - deyə o bildirib.

Pakistanlı jurnalistlərə 100 yaşını qeyd etməyə hazırlaşan AZƏRTAC-ın keçdiyi yol, 2016-2019-cu illərdə Dünya Xəbər Agentlikləri Konqresinə və OANA-ya sədrlik etməsi barədə məlumat verilib, sosial media və ənənəvi mətbuatın qarşılıqlı əlaqəsi, feyk xəbərlərlə mübarizənin əhəmiyyəti, yeni texnologiyalardan istifadənin və media qurumları arasında təcrübə mübadiləsinin üstünlükləri barədə fikir mübadiləsi aparılıb.

Görüşdə "İslamabad Post", "National Herald Tribune", "Daily Azkaar", "Pakistan Observer", "Morning Mail" qəzetlərinin, "24 News", "HUM News" telekanallarının, "BOL News Network", "Express" media qurumlarının, "Pakistan in the World", "Centreline" jurnallarının, həmçinin İordaniyanın Petra xəbər agentliyinin nümayəndələri iştirak ediblər.

# Azərbaycan NATO-nun ölkəmizin suverenliyinə dair mövqeyini yüksək qiymətləndirir

Fevralın 6-da Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov ölkəmizdə səfərdə olan NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı Tod Voltersin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.





Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik N.Sadıkov ötən ilin iyulunda Bakıda keçirilən görüşü xatırladaraq ölkəmizlə NATO arasında 26 ildir davam edən əlaqələrin inkişaf etdiyini, Azərbaycan Ordusunun müxtəlif proqramlar çərçivəsində fəaliyyətini və hərbi qulluqçularımızın Əfqanıstandakı "Qətiyyətli dəstək" missiyasına verdiyi töhfəni diqqətə çatdırıb. Baş Qərargah rəisi bildirib ki, müxtəlif sahələrdə aparılan Azərbaycan-NATO əməkdaşlığının əsas məqsədi Avroatlantik məkanda, həmçinin dünya miqyasında vahid təhlükəsizlik sisteminin yaradılmasında qeyri-sabitliyin, münaqişələrin və təhdidlərin aradan qaldırılmasıdır.

Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan N.Sadıkov beynəlxalq birlik tərəfindən tanınan Azərbaycan ərazilərinin 20 faizinin Ermənistanın işğalı altında olduğunu və danışıqlar prosesinin bugünədək nəticəsiz qaldığını xatırladıb. Məsələnin həlli yolunun beynəlxalq hüququn norma və prinsipləri əsasında Ermənistanın BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərini yerinə yetirməyə məcbur edilməsi olduğu xüsusi vurğulanıb.

Baş Qərargah rəisi NATO-nun ölkəmizin ərazi bütövlüyü və suverenliyinə dair mövqeyini yüksək qiymətləndirərək Alyansın bu istiqamətdə səylərinin bundan sonra da davam edəcəyinə əminliyini bildirib.

T.Volters Azərbaycanın Alyansın etibarlı tərəfdaşı olduğunu xüsusi qeyd edərək ölkəmizin terrorizmlə mübarizədə iştirakını, sülhməramlı əməliyyatlar üçün yük daşımalarına önəmli töhfə verdiyini, Əfqanıstanda həyata keçirilən əməliyyatlarda göstərilən peşəkarlığı yüksək qiymətləndirib.

General T.Volters NATO-nun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olduğunu diqqətə çatdırıb.

Qonaq görüşə və göstərilən qonaqpərvərliyə, həmçinin Bakıda Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə növbəti görüşün keçirilməsi üçün yaradılan şəraitə görə Azərbaycan dövlətinin rəhbərliyinə minnətdarlığını bildirib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

# Azərbaycan və Rusiya Silahlı Qüvvələri Baş Qərargah rəisləri görüşüblər

Fevralın 6-da Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - Müdafiə nazirinin birinci müavini ordu generalı Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik N.Sadıkov iki ölkə arasında əlaqələrin qurulmasında dövlətlərimizin başçılarının böyük rol oynadıqlarını, əməkdaşlığın dostluq münasibətləri və qarşılıqlı inam əsasında aparıldığını, bu əlaqələrin daim inkişaf etdiyini və son illərdə strateji tərəfdaşlıq səviyyəsinədək yüksəldiyini qeyd edib.

Baş Qərargah rəisi bildirib ki, Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 75 illiyi münasibətilə mayın 9-da Moskvada keçiriləcək hərbi paradda Azərbaycan Ordusunun hərbi qulluqçularının iştirakı barədə dövlət səviyyəsində qərar qəbul edilib və bu məqsədlə artıq fəal hazırlıq işləri həyata keçirilir.

Bölgədəki hərbi-siyasi vəziyyətə və təhlükəsizlik məsələsinə toxunan general-polkovnik N.Sadıkov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin regional sabitliyə əsas təhlükə yaratdığını, onun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə nail olunmasının vacibliyini vurğulayıb.

Ordu generalı V.Gerasimov da əlaqələrimizin tarixi köklərə əsaslandığını, ölkələrimizin strateji tərəfdaş olduğunu qeyd edərək hərbi nümayəndələrin qarşılıqlı görüşlərinin təşkili və keçirilməsinin ikitərəfli münasibətlərin, eləcə də hərbi və hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsi baxımından zəruriliyini qeyd edib.

Söhbət zamanı hərbi, hərbi-texniki və hərbi təhsil sahəsində əməkdaşlığın mövcud vəziyyəti və əlaqələrin inkişaf perspektivləri müzakirə edilib. Həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonda ordu generalı V.Gerasimov NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı ilə növbəti ikitərəfli görüşün Bakıda təşkil edilməsinə və yüksək qonaqpərvərliyə görə Azərbaycan dövlətinin rəhbərliyinə dərin minnətdarlığını bildirib.

# Gənclər Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib



Fevralın 6-da Azərbaycan Respublikası Gənclər Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda fond tərəfindən 2019-cu ildə görülən işlər barədə yekun hesabat dinlənilib, 2020-ci il üzrə fəaliyyət planı, həmçinin "Könüllülər ili" ərzində təşkil olunacaq tədbirlər və gənclər təşkilatlarının layihələrinin qrant müsabiqəsindən kənar maliyyələşdirilməsi üçün mövzular müzakirə olunaraq təsdiqlənib.

Həmçinin gənclər siyasəti ilə bağlı proqram və layihələrin qrant maliyyələşdirilməsi üzrə A və B kateqoriyaları üzrə 14-cü qrant müsabiqəsi elan edilib. Gənclər təşkilatları təsdiq edilən mövzular üzrə layihələrini fevralın 10-dan martın 10-dək Gənclər Fonduna təqdim edə bilərlər. Müşahidə Şurasının digər qərarına əsasən fiziki şəxslərin layihələrinin maliyyələşdirilməsi istiqamətinə xüsusi yenilik təqdim edilib. Belə ki, gənclər aktual mövzular üzrə layihələrini artıq ilboyu Gənclər Fonduna təqdim edə biləcəklər. Müşahidə Şurasının müvafiq qərarına uyğun olaraq, müsabiqə mövzuları Gənclər Fondu tərəfindən gənclərlə aparılacaq müzakirə və sorğular əsasında ən gec 15 gün ərzində müəyyən ediləcək və dərc olunacaq.

İclasda, həmçinin Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev tərəfindən ikiillik hesabatın və növbəti il üzrə nəzərdə tutulan fəaliyyət planının təqdimatı olub.

# *XİN:* "Azərbaycan Cammu və Kəşmir məsələsinin sülh yolu ilə həllini dəstəkləyir"

Azərbaycan Cammu və Kəşmir məsələsinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq sülh yolu ilə həllini və regionda sülh, təhlükəsizlik və rifahın təmin olunmasına yönəlmiş səyləri dəstəkləyir.

AZƏRTAC xəbər verir ki, bunu 5 fevral - Pakistanda Kəşmir Həmrəylik Günü ilə əlaqədar Azərbaycanın Cammu və Kəşmir məsələsinə münasibət bildirən Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva deyib.

Leyla Abdullayeva bildirib: "Azərbaycan BMT-nin məsuliyyətli üzvü kimi təşkilata üzv olarkən üzərinə götürdüyü öhdəliklərini rəhbər tutaraq münaqişələrin həlli, beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasında beynəlxalq hüququn norma və prinsiplərini, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsini dəstəkləyir və bu mövqedən çıxış edir. Bu, Azərbaycanın qəti və prinsipial mövqeyidir. Biz necə ki, beynəlxalq ictimaiyyətlə birlikdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həllinin tərəfdarıyıq, bu xüsusda, Cammu və Kəşmir məsələsinin də BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq sülh yolu ilə həllini, regionda sülh, təhlükəsizlik və rifahın təmin olunmasına yönəlmiş səyləri dəstəkləyirik.

Qeyd etmək istərdik ki, 2020-ci il yanvarın 21-də Davosda Pakistanın Baş Naziri İmran Xan ilə keçirilmiş görüşdə Prezident İlham Əliyev Kəşmir məsələsində ölkəmizin Pakistana daim dəstək verdiyini qeyd edib".

# Azərbaycan Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının kapital artımında iştirak edəcək

Azərbaycan Dünya Bankı qrupuna daxil olan Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının (BYİB) kapital artımında iştirak edəcək.

Maliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Prezident İlham Əliyevin sərəncamı əsasında Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının kapital artımında Azərbaycan Respublikasının iştirakı ilə bağlı qərar qəbul olunub. Sərəncama əsasən, ölkəmizin BYİB-də əlavə 505 səhmə abunə yazılması üçün müvafiq sənədlərin imzalanması səlahiyyəti Maliyyə naziri Samir Şərifova və Ədliyyə naziri Fikrət Məmmədova verilib. Əlavə 505 səhmə sahib olmaqla ümumi səs paritetində Azərbaycan Respublikasının 0,13 faizlik səsvermə hüququnun qorunub saxlanılması təmin ediləcək.

Qeyd edək ki, Azərbaycan Respublikası 1992-ci ildən üzv olduğu Dünya Bankı Qrupuna daxil olan BYİB-də ümumi dəyəri 286 milyon ABŞ dolları olan 2371 (ümumi səs paritetinin 0,13 faizi) səhmə malikdir. 189 səhmdar ölkəyə məxsus dünyanın ən böyük inkişaf bankı olan BYİB orta gəlirli və kreditalma qabiliyyəti aşağı olan ölkələri kredit, zəmanət, riskin idarə edilməsi məhsulları və maliyyə məsləhətləri ilə təmin etməkdədir.

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 24 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikasının Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Qaralar kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Sarıcalı, Acarlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Etibarlı bünövrə, davamlı inkişaf və dərin islahatların möhtəşəm uğurları

## Prezident İlham Əliyev ötən ilin uğurlarını dəyərləndirərək bu il həyata keçiriləcək çox mühüm layihələrin istiqamətini müəyyənləşdirdi

*Əvvəli 1-ci səh.*

Bu il reallaşacaq layihələrlə tanış olun:
- bu il uzunluğu 3500 kilometr olan "Cənub qaz dəhlizi" tam istismara veriləcək;
- Bakı qəsəbələrində yeni yolların çəkilişi xüsusi əhəmiyyət daşıyacaq;
- dövlət xətti ilə təxminən 40 minə yaxın iş yeri yaradılacaq;
- ən azı 1500 şəhid ailəsi dövlət tərəfindən evlərlə, mənzillərlə təmin ediləcək;
- 7 min məcburi köçkün ailəsi üçün mənzillərin, evlərin verilməsi nəzərdə tutulur;
- bu il beş "ASAN xidmət" mərkəzi istifadəyə veriləcək;
- onlarla məktəb, tibb müəssisəsi tikiləcək, təmir ediləcək;
- iki Olimpiya İdman Kompleksinin açılışı nəzərdə tutulur;
- 400-dən çox subartezian quyusunun qazılması təmin ediləcək;
- bu il min kilometr avtomobil yolunun çəkilişi nəzərdə tutulur.
- dövlət büdcəsindən qazlaşdırmaya 130 milyon manat vəsait nəzərdə tutulur;
- Mingəçevir İES-in qalan üç blokunda bərpa-tikinti işləri aparılacaq;
- "Azərenerji" bu il yeni böyük elektrik stansiyasının tikintisinə başlayacaq;
- bu il də dövlət xətti ilə 40 minə yaxın ödənişli ictimai iş yeri yaradılacaq;
- ən azı 10 min insan özünüməşğulluq proqramına cəlb olunacaq;
- güzəştli şərtlərlə 200 milyon manata yaxın kreditlər veriləcək;
- Gəncə-Gürcüstan sərhədi dəmir yolunun sürətinin artırılması nəzərdə tutulur;
- Bakı-Gəncə dəmir yolunun çəkilişi tamamilə başa çatıb;
- "Şimal-Cənub nəqliyyat dəhlizi"nin tərkib hissəsi olan Bakı-Yalama dəmir yolunun yenidən qurulması gündəlikdədir;
- Şahdağ dağ-xizək kurortuna dəmir yolu çəkilməsi gözlənilir;
- Ələt-Astara dəmir yolunun yenidən qurulması və yolun marşrutunun dəyişdirilməsi, sahildən kənarlaşdırılması üzərində iş aparılır;
- Ləki-Qəbələ dəmir yolunun fəaliyyətə başlaması nəzərdə tutulur;
- Bakıətrafı, Bakı qəsəbələrinə gedən dəmir yolunun davam etdirilməsi nəzərdə tutulur.

### Dördüncü sənaye inqilabında Azərbaycan lider olmalıdır

Bütün bu uğurlara nəzər yetirdikdə deyə bilərik ki, 2019-cu ildə əldə edilən nəticələr və 2020-ci il üçün olan iqtisadi proqnozlar dayanıqlı inkişaf üçün zəruri zəmin yaradır. Prezident də əminliklə vurğuladı ki, bu il Azərbaycan uğurla inkişaf edəcək, daha güclü dövlətə çevriləcək.

Ötən ilin ən uğurlu hadisəsini isə dövlət başçısı Davos Dünya İqtisadi Forumu çərçivəsində imzalanan sənədi hesab etdi. Cənab İlham Əliyev vurğuladı ki, ölkəmizin əhəmiyyətini, rolunu əks etdirən son hadisə Dünya İqtisadi Forumu çərçivəsində Davos Forumu ilə Azərbaycan arasında dördüncü sənaye inqilabı üzrə Bakıda regional mərkəzin yaradılması hadisəsidir: "Bu, çox əlamətdar hadisədir. Çünki Davos Forumu dünyada bir nömrəli forumdur, bundan yuxarı yoxdur. Bu, həm siyasi, həm iqtisadi sahədə nömrə birdir və bu bölgədə, Cənubi Qafqazda, Orta Asiyada Azərbaycanı mərkəz kimi seçmək, əlbəttə, böyük hadisədir, mən və forumun prezidenti niyyət protokolunu imzaladıq, indi işlər başlanacaq və dördüncü sənaye inqilabında Azərbaycan lider olmalıdır. Necə ki, Davos Forumu bizi lider kimi görür, biz də lider olmalıyıq".

Bunun səbəblərini də göstərən Prezident vurğuladı ki, bu, Azərbaycanın gələcək inkişafı deməkdir. Azərbaycan dövləti elmi tərəqqini, inkişafı təmin etməli, ölkəmizi uğurlu gələcəyə aparmalı, müasirləşdirməlidir. Ona görə də bu hadisə ölkəmizin yeni uğuru, İlham Əliyev diplomatiyasının növbəti qələbəsidir və bundan sonra belə nailiyyətlərin sayı çox olacaq.

Şübhə yoxdur ki, digər illərdə olduğu kimi, 2020-ci ildə də Azərbaycanı möhtəşəm layihələr gözləyir. Bu il Azərbaycan uğurla inkişaf edərək daha güclü dövlətə çevriləcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# «Azəri» layihəsi - 15 il fasiləsiz və təhlükəsiz hasilat

## Prezident İlham ƏLİYEV: "Bugünkü Azərbaycanın inkişafını "Azəri-Çıraq-Günəşli"siz təsəvvür etmək mümkün deyil"

*Əvvəli 1-ci səh.*

Xatırladaq ki, AÇG yataqlar bloku Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan təxminən 100 kilometr şərqdə yerləşir. Bu meqastruktur Xəzərin dibində 2000-3500 metr dərinlikdə yerləşən Balaxanı VIII və X, həmçinin yuxarı və aşağı Fasilə lay dəstələrini əhatə edir. 2019-cu ilin ortalarına qədər layihəyə ümumi investisiya həcmi 36 milyard dollardan çox olub. "Əsrin müqaviləsi"nin 25 illiyi gününədək, yəni keçən il sentyabrın 20-dək AÇG yataqlarından 3,6 milyard bareldən çox neft hasil edilmişdi.

AÇG layihəsində əməliyyatçı olan BP (Böyük Britaniya), SOCAR (Azərbaycan), "Şevron" (ABŞ), "İnpeks" (Yaponiya), "Ekvinor" (Norveç), "EksonMobil" (ABŞ), TPAO (Türkiyə), "İtoçu" (Yaponiya), OVL (Hindistan) şirkətləri tərəfdaşdırlar.

Məlum olduğu kimi, "Əsrin müqaviləsi"nin işlənməsi bir neçə mərhələdə həyata keçirilib. İlkin Neft Layihəsi (İNL) çərçivəsində "Çıraq" yatağından hasilat 1997-ci ilin noyabrında başlanıb. "Azəri" və "Dərinsulu Günəşli" yataqlarının işlənməsi üç fazada həyata keçirilib. Birinci fazanı "Mərkəzi Azəri" təşkil edib.

"Qərbi Azəri" və "Şərqi Azəri" ikinci faza ilə əhatə olunub. "Qərbi Azəri"dən ilk neft 2005-ci ilin dekabrında çıxarılıb. Növbəti ilin sonunda isə "Şərqi Azəri" də neft verib. Üçüncü faza çərçivəsində "Dərinsulu Günəşli" platformasından hasilat 2008-ci ilin aprelində başlanıb.

AÇG-nin salnaməsi "Qərbi Çıraq" platformasını əhatə edən Çıraq Neft Layihəsi (ÇNL) ilə davam edib. Buradan ilk neft 2014-cü il yanvarın 28-də əldə olunub.

AÇG-nin işlənməsi ilə əlaqədar ən sonuncu layihə "Azəri Mərkəzi Şərqi"dir. Bu layihəyə keçən il sanksiya verilib və o, bir hasilat platformasının tikintisindən ibarətdir. Layihə hazırda icra mərhələsindədir və tikilməkdə olan qurğudan ilk neft hasilatı 2023-cü ildə gözlənilir.

AÇG-dən gündəlik orta neft hasilatı təxminən 550 min bareldir. Hazırda AÇG müqavilə sahəsində 8 platforma istismar olunur ki, bunların da 6-sı hasilat platformasıdır. Bu qurğulardan alınan neft dünya bazarlarına əsasən BTC və QİBK (Qərb İxrac Boru Kəməri - Bakı-Supsa) marşrutları ilə ixrac olunur.

AÇG-nin bütün platformaları kimi, "Azəri"nin qurğuları da ölkə daxilində inşa edilib. Yataqdakı hasilat platformaları Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda tikilib. "Mərkəzi Azəri"dəki Kompressor və Suvurma Platformasının (KvəSP) göyərtəsi Bakının Bibiheybət ərazisindəki ATA ("AMEK-Tekfen-Azfen") tikinti-quraşdırma sahəsində inşa edilib. KvəSP "Azəri"nin qərb və şərq hissələrinə də qaz və suvurma əməliyyatları, elektrik təchizatı ilə bağlı xidmətlər göstərir.

"Azəri"nin neftini və səmt qazını Səngəçal terminalına çatdırmaq üçün dənizdə ümumi uzunluğu 600 kilometrdən çox olan sualtı borular çəkilib. Terminalda həmin karbohidrogenləri ilkin emal edib müvafiq kəmərlərə vurmaq üçün geniş infrastruktur yaradılıb.

"Azəri"dən çıxarılan neft Səngəçala 30 düymlük sualtı borularla çatdırılır. Yataqdan hasil olunan səmt qazının böyük hissəsi 28 düymlük sualtı xətlərlə terminaldakı texnoloji emal qurğularına nəql edilir və buradan ölkənin daxili istifadəsi üçün "Azəriqaz" şəbəkəsinə ötürülür. Qazın bir hissəsi isə laylardakı təzyiqi saxlamaq üçün və yanacaq kimi platformalarda istifadə olunur.

Azərbaycanın həyata keçirdiyi digər neft-qaz layihələri kimi "Azəri" də ölkənin böyük həcmdə valyuta ehtiyatları əldə etməsinə imkan verdi. Dövlət bu ehtiyatlardan səmərəli istifadə edərək onları ölkənin əsas inkişaf istiqamətlərinə yönəltdi. Beləliklə, Azərbaycanın iqtisadi inkişafı təmin edildi. İnsanların rifah halı yüksəldi. Eyni zamanda çoxsaylı infrastruktur layihələri icra edildi, sosial məsələlər öz həllini tapdı. Prezident İlham Əliyevin dediyi kimi: "Bu yatağın sovet dövründə aşkarlanması böyük hadisə idi. Çünki Xəzərdə ən böyük neft yatağıdır. Ancaq "Azəri-Çıraq-Günəşli"nin müstəqillik dövründə işlənilməsi tarixi hadisədir. Çünki bügünkü Azərbaycanın inkişafını "Azəri-Çıraq-Günəşli"siz təsəvvür etmək mümkün deyil. Bu yatağın işlənilməsi və yataqdan hasil olunan neft bugünkü Azərbaycanın inkişafını təmin edir, iqtisadi müstəqilliyini şərtləndirir. İqtisadi müstəqillik isə siyasi müstəqilliyimizi möhkəmləndirir. Beləliklə, "Azəri-Çıraq-Günəşli" yatağının kəşf edilməsi və işlənilməsi, doğrudan da, tarixi hadisədir. Bu yaxınlarda bu yatağın işlənilməsi müddətinin uzadılmasını da biz təmin etdik və bu yataq ən azı 2050-ci ilə qədər istismarda olacaqdır".

2017-ci ilin sentyabrında həmin yeni müqavilənin imzalanması AÇG-nin "ömrünü uzadıb". Bu isə yeni neft həcmləri və yeni gəlirlər deməkdir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, fevralın 6-da Tərtər rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Mixail Olaru və Martin Şuster keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç, Gennadi Petrika və Saymon Tiller aparıblar.

# 9 fevral Milli Məclisə seçkilər günüdür

## Mərkəzi Seçki Komissiyası sədrinin Rusiyanın aparıcı KİV-nin nümayəndələri üçün brifinq keçirilib



Fevralın 9-da Milli Məclisə keçiriləcək seçkiləri izləmək üçün Azərbaycanda səfərdə olan Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələri fevralın 6-da Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahovla görüşüblər.

MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, komissiyanın inzibati binasında rusiyalı media təmsilçilərini salamlayan sədr Məzahir Pənahov görüşdən məmnunluğunu bildirərək qeyd edib ki, Azərbaycanda keçirilən seçkilər daim yerli və beynəlxalq ictimaiyyət tərəfindən böyük maraqla izlənilir. Seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi üçün bütün imkanlar yaradılıb. Yerli və beynəlxalq müşahidəçilərlə yanaşı, yerli və xarici kütləvi informasiya vasitələrinin və digər aşkarlıq institutlarının sərbəst fəaliyyəti üçün hər cür şərait mövcuddur. Məhz bütün bunların nəticəsidir ki, Milli Məclisə keçiriləcək seçkiləri izləmək üçün 59 beynəlxalq təşkilatdan 900-ə yaxın beynəlxalq müşahidəçi, habelə çoxsaylı siyasi partiyaları, qeyri-hökumət təşkilatlarını, vətəndaş cəmiyyəti institutlarını, qeydə alınmış namizədləri təmsil edən və fərdi qaydada seçkilərin müşahidəsinə qoşulan 78000-ə yaxın yerli müşahidəçi akkreditasiyadan keçib. Seçkilərdə "exit-poll" keçirmək məqsədilə MSK-ya müraciət edən 3 təşkilatın hamısı qeydə alınıb ki, onların da 2-si öz fəaliyyətlərini xarici partnyorları ilə birgə quracaq.

Şəffaflığın təmin olunması üçün əlavə vasitə kimi, bütün ölkə coğrafiyasını əhatə etməklə 1000 seçki məntəqəsində veb-kamera quraşdırılıb. Bu, dünyanın istənilən yerində olan internet istifadəçilərinə müşahidəçi statusuna yiyələnmədən və hətta Azərbaycana gəlmədən, MSK-nın internet səhifəsinə daxil olaraq, heç bir qeydiyyat tələb olunmadan hər kəs üçün açıq platformada seçki günü birbaşa onlayn rejimdə səsvermə, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsi proseslərini əvvəldən axıradək fasiləsiz izləməyə, geniş və hərtərəfli müşahidə etməyə imkan verir.

Sədr M.Pənahov bildirib ki, MSK başda olmaqla bütün seçki komissiyaları Milli Məclisə seçkilərə tam hazırdır. Səsvermə günü Azərbaycan vətəndaşları azad və sərbəst şəkildə seçki məntəqələrinə gələrək öz iradələrini ifadə edə bilərlər.

Görüş çərçivəsində MSK sədri Azərbaycan Respublikasının seçki sistemi, seçki qanunvericiliyi və seçki praktikasının təkmilləşdirilməsi istiqamətində gerçəkləşdirilən layihələr barədə jurnalistlərə ətraflı məlumat verib və onları maraqlandıran sualları cavablandırıb.

## Hazırlıq işləri xoş təəssürat yaradır

*Əvvəli 1-ci səh.*



Bayramsayağı bəzədilmiş məntəqə seçkiyə mükəmməl şəkildə hazırlığın həyata keçirildiyindən xəbər verir. Məntəqənin girəcəyində seçici siyahıları diqqəti cəlb edir. Məntəqə seçki komissiyasının sədri Əfqan Salmanov söhbət zamanı dedi ki, məntəqə üzrə 1219 nəfər seçici var. Onların 19 nəfəri ilk dəfə səs verəcək. Burada veb-kamera da quraşdırılmışdır.

68 saylı Cəlilabad kənd dairə seçki komissiyası Alar kəndi ərazisində fəaliyyət göstərir. Dairə seçki komissiyasının sədri Mehman Rzayev dedi ki, rayon üzrə parlamentə mandat qazanmaq üçün 10 nəfər namizəd mübarizə aparır. Onların hər birinə seçicilərlə görüşmək üçün 16 qapalı və 16 açıq yer ayrılmışdır. Hazırda onlar seçicilərlə görüşlər keçirirlər. 2, 3, 6, 9 və 13 saylı məntəqələrdə veb-kameralar quraşdırılmışdır. ATƏT-in uzunmüddətli müşahidəçiləri Linda Beylsmit və Hubert Ştrobel dairədə olmuş, hazırlıq işlərinin gedişindən razı qalmışlar.

68 saylı dairənin tərkibindəki 2 saylı seçki məntəqəsi müasir üslubda tikilmiş və bir neçə il bundan öncə istifadəyə verilmiş Heydər Əliyev adına Alar kənd tam orta məktəbində yerləşir. Veb-kameranın biri də burada quraşdırılıb. Məntəqə seçkilərə tam hazır vəziyyətdədir. Bildirişlərin hamısı seçicilərə çatdırılmışdır. Burada ana və uşaq otağı da təşkil edilmişdir.

69 saylı Cəlilabad-Masallı-Biləsuvar dairə seçki komissiyası Cəlilabad rayonunun Göytəpə şəhərində yerləşir. Məntəqələrdən 16-sı Cəlilabad, 11-i Masallı, 8-i Biləsuvar rayonunun ərazisindədir. Dairə üzrə ən yaşlı seçici Cəlilabad rayonunun Komanlı kəndinin 100 yaşlı sakini Xanım Şahəliyevadır. 64 nəfər gənc ilk dəfə səs verəcək. Bu dairə üzrə də deputat mandatı uğrunda mübarizə aparan namizədlər üçün bərabər şərait yaradılmışdır. Hazırda onlar rayonun şəhər, qəsəbə və kəndlərində əhali ilə görüşlər keçirirlər. Seçkilərin gedişini 491 nəfər yerli müşahidəçi izləyəcək. Dairənin 6 məntəqəsində veb-kamera quraşdırılıb. ATƏT-in uzunmüddətli müşahidəçiləri 2 dəfə seçki dairəsində olmuşlar.

Dairə seçki komissiyasının sədri Məhəmməd Abasov söhbət zamanı bildirdi ki, 35 məntəqənin hamısı seçkilərə tam hazırdır.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Parlament seçkiləri ilə bağlı aparılan araşdırmaların nəticələri açıqlanıb

Fevralın 6-da Resurs Analitik İnformasiya Mərkəzi Azərbaycanda keçiriləcək seçkilərlə bağlı aparılan araşdırmaların nəticələrini açıqlayıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən qurumun rəhbəri, siyasi ekspert Rasim Quliyev bildirib ki, məqsədi ölkədə, dünyada və regionda baş verən hadisələrin tədqiqatını aparmaqdır, bu hadisələri analiz etmək olan mərkəz ötən ilin avqustunda qeydiyyatdan keçib.

O deyib: "Mərkəzin tədqiqat mövzularından biri olan parlament seçkiləri ilə bağlı araşdırmalarımız var və bu zaman maraqlı faktlar ortaya çıxıb. Keçən dövr ərzində apardığımız tədqiqatlarda bir çox nəticə əldə olunub. Builki parlament seçkilərində 5 milyon 238 min seçici qeydiyyata alınıb. Seçkidə çox sayda namizəd qeydə alınıb. Əvvəlki seçkilərdə sistem başqa idi. Bu sistemdə keçirilən seçkidə namizəd seçicilərlə birbaşa ünsiyyətdə olmalıdır. Bu müddət ərzində keçirilən seçkilərdə artıq seçici mədəniyyəti formalaşıb. Məsələn, 2005-ci il parlament seçkilərində seçici fəallığı 42 faiz, 2010-cu ildə 46 faiz olduğu halda, 2015-ci ildə bu rəqəm 55 faiz olub. Keçən il bələdiyyə seçkilərində isə seçici fəallığı 32,2 faiz təşkil edib. Bu isə onu göstərir ki, bələdiyyə institutu ölkədə yeni olduğundan seçicilərdə bu təsisatla bağlı maarifləndirmə zəifdir. Ölkədə Milli Məclisə seçkilərdə seçici fəallığı sonuncu dəfə 55 faiz olduğu halda, prezident seçkilərində bu göstərici 85 faiz olub".




Siyasi ekspert bildirib ki, mərkəzin parlament seçkiləri ilə əlaqədar bir çox dairələrdə apardığı araşdırma budəfəki seçkilərin standartlara cavab verdiyini göstərir. O bildirib: "Seçki daim yenilənən texnologiyadır. Ən inkişaf etmiş, inkişaf etməmiş və inkişafda olan ölkələrdə də seçki daim inkişaf edən mexanizmdir. Azərbaycanda ucqar kəndlər istisna olmaqla, bütün məntəqələr kameralarla təchiz olunub və digər hazırlıq işləri görülüb. Seçicilərin barmaqlarına gec pozulan maye vurulması, kamera quraşdırılması seçkinin şəffaf keçirilməsinə şərait yaradır. Hazırda vətəndaşların özündə seçki qanununu pozmaq qorxusu yaranıb. Artıq insanlar vəzifə borclarını dərk edir, məsuliyyətli olmağa çalışır. Hazırda parlament seçkilərinə namizədliyin irəli sürülməsi, qeydə alınması, seçicilərlə görüşün təmin olunması prosesin şəffaf keçirilməsinə hər cür şəraitin yaradılmasından xəbər verir. Apardığımız araşdırmalar nəticəsində bu günə qədər prosesdə ciddi qanun pozuntusu qeydə alınmayıb. Bəzi namizədlər arasında hüquqlarını bilməməzlikdən kiçik qanun pozuntuları olub. Bu da bütün dünyada müşahidə olunur. Amma bunun özü də arzuolunmazdır".

Azərbaycanda seçkiyə hazırlığın bütün hallarda tam qanuni şəkildə həyata keçirildiyini bildirən R.Quliyev deyib: "Araşdırmalarımız zamanı maraqlı nüanslar əldə olunub. Parlament seçkilərində 19 siyasi partiya, 1 ittifaq və 2 blok tərəfindən 2431 nəfər dairə seçki komissiyalarına müraciət edib. Onlardan 1637 nəfərin namizədliyi qeydə alınıb. Sonradan 312 nəfər namizədliyini geri götürüb. Seçkilərdə iştirak edən namizədlərin yaş bölgüsünə baxanda da bu seçkiyə marağın artdığını demək olar. Məsələn, budəfəki seçkidə 18-28 yaş arasında 82 namizəd, 29-39 yaş arasında 407 namizəd, 40-45 yaşarası 542, 56-66 yaş arasında 251, 67 yaşdan yuxarı isə 43 nəfər namizəd iştirak edir. 1998-ci ildə anadan olan 8 nəfər deputatlığa namizədin olması gənclərin seçkiyə inamının artmasının göstəricisidir. Həmçinin seçkidə 1938-ci il təvəllüdlü 2 nəfər də namizədliyini irəli sürüb. Cəmiyyətdə seçkiyə inam var, maraq yüksəkdir. Bu il namizədlərin 22,58 faizi qadındır. 299 qadın seçkilərə namizəd kimi qatılıb və bu, rekorddur. Qadınlar da özünə inanır, seçkidə qalib gələcəyinə əmindirlər".

Ölkədəki sabit inkişaf prosesinin insanların həyat səviyyəsinə həm mənəvi, həm də psixoloji cəhətdən müsbət təsir etdiyini deyən R.Quliyev bildirib: "Parlament seçkiləri bələdiyyə seçkilərindən dərhal sonra keçirildiyindən bütün dairələr seçkiyə hazırdır. Seçki hazırlığı müasir standartlara uyğundur. Seçkidə iştirak edən namizədlər etiraf edirlər ki, hazırlıqlar yüksək səviyyədə aparılıb və heç bir namizədə maneə yaradılmayıb".

## *Anatoli FYODOROV:* "Azərbaycanda məntəqələr parlament seçkilərinə tam hazırdır"

"Azərbaycanda fevralın 9-da keçiriləcək parlament seçkilərinə hazırlıqla bağlı təəssüratlarım müsbətdir".

AZƏRTAC xəbər verir ki, bu sözləri secki-2020.az saytına açıqlamasında MDB müşahidə missiyasının üzvü Anatoli Fyodorov deyib.

"Biz parlament seçkilərinə hazırlıq işlərini müşahidə edirik. Müşahidələrimə əsasən deyə bilərəm ki, seçkilər yüksək səviyyədə təşkil olunub. Hər yerdə vəziyyət normaldır, hər hansı iradımız yoxdur. Məntəqələrdə treninqlər keçirildiyi üçün hazırlıqlar da yüksək səviyyədədir. Məntəqələrdə müşahidəçilər üçün yerlər də düzgün seçilib. Bir sözlə, məntəqələr seçkilərə tam hazırdır" deyə missiya üzvü vurğulayıb.

## RF Federasiya Şurasının nümayəndə heyəti Milli Məclisə seçkiləri müşahidə etmək üçün Azərbaycana səfər edəcək

Fevralın 7-də RF Federasiya Şurasının nümayəndə heyəti Milli Məclisə seçkiləri müşahidə etmək üçün Azərbaycana işgüzar səfər edəcək.

Nümayəndə heyətinə RF Federasiya Şurasının Elm, təhsil və mədəniyyət komitəsinin sədri Liliya Qumerova başçılıq edəcək. Federasiya Şurasından AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətinin tərkibinə federativ qurumlar, regional siyasət, yerli özünüidarəetmə və şimal məsələləri üzrə komitə sədrinin birinci müavini Arkadi Çernetski, Konstitusiya qanunvericiliyi və dövlət quruculuğu komitəsi sədrinin müavini Aleksandr Başkin, Aqrar-ərzaq siyasəti və təbiətdən istifadə komitəsinin üzvü Sergey Belousov və Sosial siyasət komitəsinin üzvü Sergey Leonov daxildirlər.

## Namizədlərin çoxluğu seçkiyə marağı daha da artırıb

Parlament seçkilərinə sayılı günlər qalıb. Respublikamızın hər yerində olduğu kimi, Şabran rayonunda da bu mühüm kampaniyaya hərtərəfli hazırlıq görülüb.

54 saylı Şabran-Siyəzən Seçki Dairəsinin 2 saylı məntəqəsində olarkən bunun şahidi olduq. Məntəqə seçki komissiyasının sədri Marifə Şükürova bildirdi ki, dairədə 1 mandat uğrunda 16 nəfər mübarizə aparır. Namizədlərin çoxluğu seçkiyə marağı daha da artırıb. Məntəqənin qarşısında onların hamısının platforması asılıb. Hazırda namizədlər müəyyən edilmiş vaxtlarda əhali ilə görüşlər keçirirlər.

Dəqiqləşdirilmiş son siyahıda 1246 nəfərin adı var. İlk dəfə səs verəcək gənclər isə 18 nəfərdir. Onlarla görüş keçirilib. Görüşdə Məleykə Xudaverdiyeva, Elşad Fərhadov, Xəyal Tarıverdiyev, Gülşad Əliyeva bildirdilər ki, lazım gələrsə, onlar da bizə kömək etməyə hazırdırlar.

Yaşı 80-dən çox olan seçicilər isə 34 nəfərdir. Məntəqə üzrə yaşlı və səhhətində problem olan seçicilərdən müraciət olunarsa, onların evlərinə daşınan seçki qutusu göndəriləcək. Məntəqə ofis avadanlığı, ehtiyat enerji mənbələri, lazımi metodiki ədəbiyyat və seçkilərə dair əyani vəsaitlərlə təmin edilib. Seçicilərə bildirişlərin paylanması başa çatıb.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Naxçıvanda seçkilərə hazırlıq işləri tamamlanıb

Naxçıvanda fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə keçiriləcək seçkilərə hazırlıq işləri tamamlanıb.

AZƏRTAC xəbər verir ki, bu müddətdə seçki komissiyalarının hamısı tələb olunan bütün normativ aktlar, sənədlər, sənəd nümunələri və əşyalarla təmin olunublar. Həmçinin onların təlimatlandırılması işi də mütəmadi şəkildə həyata keçirilir, seminar-treninqlər təşkil olunur və bu proses, yəni seçki komissiyalarının təminatı və təlimatlandırılması seçkilər gününədək davam etdiriləcək.



Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımov mətbuata açıqlamasında bildirib ki, Azərbaycan Respublikasının Milli Məclisinə muxtar respublikada fəaliyyət göstərən 7 seçki dairəsi üzrə 25 nəfərin namizədliyi qeydə alınıb. Onlardan 9 nəfəri Yeni Azərbaycan Partiyasının, 2 nəfəri Böyük Quruluş Partiyasının, 1 nəfəri Azərbaycan Sosial Rifah Partiyasının, 1 nəfəri Vahid Azərbaycan Partiyasının nümayəndələri, 12 nəfəri isə bitərəf namizədlərdir. Namizədlərdən 3 nəfəri qadındır. Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər üzrə deputatlığa namizədlərin seçkiqabağı təşviqatı yanvarın 17-dən başlanıb. Bütün şəhər və rayon mərkəzlərində kütləvi tədbirlərin keçirilməsi üçün açıq və qapalı yerlər müəyyən olunub, müvafiq yerlərdə təşviqat materiallarının asılması üçün təşviqat lövhələri yerləşdirilib.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər üzrə isə 45 seçki dairəsindən 140 nəfərin namizədliyi qeydə alınıb. Onlardan 87-si Yeni Azərbaycan Partiyasının, 1 nəfəri Azərbaycan Xalq Cəbhəsi Partiyasının nümayəndəsi, 52 nəfəri isə bitərəfdir. Namizədlərdən 18-i qadındır. Ali Məclisə seçkilər üzrə isə seçkiqabağı təşviqat yanvarın 28-dən etibarən başlayıb və həm Milli Məclisə, həm də Ali Məclisə seçkilərlə bağlı təşviqat fevralın 8-i saat 8:00-a kimi davam edəcəkdir. Həmin saatdan sonra bütün təşviqat materialları yığışdırılacaq.

## Seçki bülletenlərinin məntəqə seçki komissiyalarına verilməsi başa çatıb

Milli Məclisə seçkilərlə bağlı bülletenlərin dairə seçki komissiyalarından (DSK) məntəqə seçki komissiyalarına verilməsi prosesi başa çatıb.

AZƏRTAC secki-2020.az saytına istinadla xəbər verir ki, Seçki Məcəlləsinin 99.6-cı maddəsinə əsasən, DSK-lar səsvermə gününə azı üç gün qalanadək seçki bülletenlərini məntəqə seçki komissiyalarına verməlidir.

Fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərlə bağlı bu müddət fevralın 6-dək olan dövrü əhatə edir.

Qeyd edək ki, Mərkəzi Seçki Komissiyasından seçki bülletenlərinin DSK-lara verilməsi prosesi fevralın 3-də başa çatıb.

## Parlament seçkiləri ilə əlaqədar gənclər üçün yaddaş kitabçası hazırlanıb

Gənclər və İdman Nazirliyi tərəfindən "Milli Məclis - Qanunverici orqan" adlı yaddaş kitabçası hazırlanıb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, kitabça fevralın 9-da Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərdə gənclər, xüsusilə ilk dəfə səs verəcək gənc seçicilər arasında maarifləndirmə işinin aparılması və seçkilərdə gənclərin fəallığının təmin edilməsinə kömək məqsədilə buraxılıb.

Yaddaş kitabçasında Azərbaycan parlamentinin tarixi, formalaşma dövrləri, fəaliyyəti, beynəlxalq əlaqələri, Ümummilli Lider Heydər Əliyevin parlamentarizmin inkişafındakı mühüm rolu haqqında məlumatlar təqdim olunub. Kitabçada Azərbaycan Respublikasının Konstitusiyasından və Seçki Məcəlləsindən çıxarışlar da əksini tapıb.

## Dəyişən dünyada milli-mənəvi dəyərlər

Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) Qəbələ rayonunda təşkil etdiyi "Din, mədəniyyət və cəmiyyət-2" mövzusunda "Qış məktəbi"ndə tələbələr üçün seminarlar təşkil edilir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov "Qış məktəbi"ndə "Dəyişən dünyada milli-mənəvi dəyərlər" mövzusunda çıxış edərək bildirib ki, xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan milli dəyərlərimiz Azərbaycanın yüksək əxlaqi xüsusiyyətlərinin təcəssümüdür. M.İsmayılov qeyd edib ki, dünya xalqları arasında öz qədim milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə dünya mədəni irsində özünəməxsus yer tutur. O, Azərbaycan xalqının minillər boyu adət-ənənələrinə sadiq qaldığını, bu dəyərlərin uzun illər əvvəl formalaşdığını vurğulayıb. İcraçı direktor nəzərə çatdırıb ki, dəyərlərimizi qorumaq milli kimliyimizi hifz etmək, onların təbliği mədəniyyətimizin təbliği deməkdir.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) Analitika şöbəsinin müdiri Rəşad İlyasov "Azərbaycanın multikulturalizm modeli" mövzusunda çıxış edib. R.İlyasov qeyd edib ki, multkulturalizm XX əsrin 60-70-ci illərində əvvəlcə Kanadada, sonra isə Avropanın bir sıra çoxmədəniyyətli ölkələrində meydana gələrək, spesifik multikulturalizm modellərinin ortaya çıxmasına səbəb olub. Dünya multikulturalizm modellərinin, əsasən miqrasiya və immiqrantlar sayəsində formalaşdığını qeyd edən məruzəçi 12-ci yüz ildən etibarən başlayan prosesin indi də davam etdiyini vurğulayıb.





Bildirib ki, Kanada, Avstraliya, ABŞ, Fransa, İngiltərə, Almaniya, İsveçrə və digər ölkələrdə bu tendensiya özünü daha bariz şəkildə büruzə verir. Qeyd olunan modellərə paralel olaraq Azərbaycanın multikulturalizm modelinin tarixi daha qədimdir. Bu model özündə həm "avtaxton", həm də "allaxton" etnoslarını ehtiva edir.

R.İlyasov nəzərə çatdırıb ki, Azərbaycanda 35-dən çox etnik qrup mövcuddur. Təsadüfi deyildir ki, bu baxımdan Azərbaycan həm də "etnoqrafiya muzeyi" adlandırılır. Multikulturalizm elmi ədəbiyyatında "multikultural vətəndaşlıq" və "konstitusional vətəndaşlıq" terminləri mövcuddur. Bu, birbaşa multikulturalizmin Azərbaycanda həyat tərzi və dövlət siyasəti olması kontekstində də açıqlana bilər. Azərbaycan multikulturalizminin ədəbi-bədii və fəlsəfi-publisistik qaynaqları elmi şəkildə sübut edir ki, ölkəmizin multikulturalizm modeli burada məskunlaşmış etnosların birgəyaşayış mövcudluqlarını təmin edir.

Qəbələ rayonunda təşkil edilən "Din, mədəniyyət və cəmiyyət-2" mövzusunda "Qış məktəbi" ziyarət və seminarlarla davam edib.

Tələbələr Qəbələ Rayon Mərkəzi Məscidini ziyarət ediblər. Məlumat verilib ki, burada eyni vaxtda 450 kişi, 150 qadın olmaqla, ümumilikdə 600 mömin ibadət edə bilir. Məscidin divarlarına müqəddəs Qurani-Kərimdən surələr yazılmış, sütunları isə Azərbaycan nəqqaşlıq məktəbinin və Şərq ornamentlərinin nadir nümunələrindən istifadə olunmaqla dini rəmzlərlə bəzədilib. Məscidin həyətində isə axund, dərs, kitabxana, mərasim, qadın və kişilər üçün dəstəmaz otaqları və digər köməkçi tikililər inşa olunub.

Tələbələr Soltannuxa Kənd Türbəsinə təşkil olunmuş ekskursiya zamanı ziyarətgah haqqında geniş məlumat əldə ediblər. Ziyarətçilərə məlumat verilib ki, türbənin 200 ilə yaxın tarixi var. Burada təxminən 179 il əvvəl "Şeşpər" adlı din xadiminin yaşadığı, onun İslam dininə böyük xidmətlər göstərsə də, əsər yazıb-yazmamasına dair məlumatın olmadığı diqqətə çatdırılıb.

Daha sonra tələbələr MİRAS Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi İdarə Heyətinin sədri Fariz Xəlillinin təqdimatında "Azərbaycanda xanəgahlar" mövzusunda məruzəni dinləyiblər. Azərbaycan ərazisində islam arxeologiyasının ən qədim abidələrinin inşasının VIII əsrin sonu, IX əsrin əvvəllərindən başlandığını vurğulayan F.Xəlilli Azərbaycan arxeologiyasının müasir nailiyyətləri, həmçinin çağdaş dünya arxeologiyası barədə tələbələrin dərin biliklərə yiyələnməsinin vacib olduğunu tövsiyə edib. O həmçinin qeyd edib ki, Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən biri də maddi-mədəni irsimizin qorunmasıdır. F.Xəlilli Qəbələ ərazisində yerləşən abidələrimiz haqqında ətraflı məlumat verib.

Xatırladaq ki, "Qış məktəbi"nin təşkilində əsas məqsəd tələbələrin dünyagörüşünün zənginləşdirilməsi, onların ölkəmizdə mövcud multikultural, tolerant mühitin canlı şahidi olmasına çalışmaqdır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# REGİONLAR



## Gəncədə əsas kapitala yönəldilən vəsait 60 dəfəyə yaxın artıb



Ölkədə aparılan islahatlar çərçivəsində Gəncədə genişmiqyaslı işlər görülür. Bu baxımdan şəhərdə ötən il də iqtisadiyyatın sürətli inkişafına və yeni iş yerlərinin açılmasına xüsusi diqqət yetirilib.

Dördüncü regional inkişaf Dövlət Proqramının birinci ilinin yekunlarına həsr olunan konfransdakı çıxışında Gəncə Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Niyazi Bayramov qeyd etmişdir ki, təkcə ötən il şəhər üzrə ümumi məhsul istehsalı 4,4, o cümlədən sənaye məhsulları istehsalı 2,7, əsas kapitala yönəldilən vəsaitin həcmi 59,7, tikinti-quraşdırma işləri 132,8 dəfə artmışdır. ŞİH başçısının sözlərinə görə, ümumilikdə 2003-cü ildən bəri Gəncədə 63,3 mindən çox yeni iş yeri açılmışdır ki, onların da 53,5 mini daimidir.

Natiq onu da bildirmişdir ki, cari ilin əvvəlinə şəhərin içməli su şəbəkəsinin 49, kanalizasiya şəbəkəsinin 29 faizi yenidən qurulmuşdur. "Əhalinin qaz və elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması istiqamətində də mühüm tədbirlər həyata keçirilib, şəhər tam şəkildə, qəsəbələr isə 99 faiz qazlaşdırılıb", - deyən N.Bayramov onu da qeyd etmişdir ki, ötən il şəhərdə 1476 yerlik 2 məktəb binası təmir olunmuş, 1 məktəb üçün əlavə 283 şagirdlik yeni korpus tikilmişdir. Ümumilikdə Gəncədə yeni inşa edilən və ya əsaslı təmir olunan məktəblərin sayı 34-ə çatmışdır.

## Bərdədə "ToxumArt" mağazası açılıb

Dövlət Toxum Fondu fermerlərin sertifikatlı toxumlara və aqrotexniki qulluq vasitələrinə olan tələbatlarını ödəmək məqsədilə daha bir toxum mağazası açıb.

"ToxumArt" əmtəə nişanı altında Bərdədə fəaliyyətə başlayan mağazanın açılış mərasimində Kənd Təsərrüfatı Nazirliyinin, Bərdə Rayon İcra Hakimiyyətinin rəsmiləri və digər qonaqlar iştirak ediblər.

"ToxumArt" mağazasında Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki Dövlət Toxum Fondunun idxal etdiyi sertifikatlı, məhsuldar, yüksək reproduksiyalı buğda, arpa, kartof və xaşa, eləcə də Respublika Süni Mayalandırma Mərkəzinin istehsal etdiyi yerli və xarici buğda toxumları satılır. Heyvandarlar mağazada, həmçinin süni mayalandırmada istifadə olunan digər zəruri ləvazimatları əldə edə biləcəklər.

Bundan başqa, mağazada Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu və Samux rayonundakı meyvə qurusu istehsalı müəssisəsinin yerli




tərəvəz toxumları satışa çıxarılıb. Məqsəd fermerləri aşağı qiymətlə, sertifikatlı, müxtəlif çeşidli, yüksək keyfiyyətli, məhsuldar toxumlarla təmin etməkdir. "ToxumArt" mağazasında fermerlər, eyni zamanda, Kənd Təsərrüfatı Nazirliyi tərəfindən hazırlanan təlimatlar və aqrotexniki qulluğa dair məlumatlar da əldə edə bilərlər.




## Pomidor, qızıl, meşə fındığı

### Bunlar ötən il ixrac edilən qeyri-neft məhsullarının siyahısında ilk üçlükdədir

Qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən islahatlar sayəsində bu sahədə məhsul istehsalı və ixracı ildən-ilə artır. Məqsəd qeyri-neft sektorunu inkişaf etdirməklə ölkənin neftdən asılılığını aradan qaldırmaqdır. Belə ki, dünya bazarında neftin qiyməti sabit olmadığı üçün iqtisadiyyatda vaxtaşırı böhranlar da yaranır. Bunun qarşısının alınmasının yeganə yolu qeyri-neft sektorunun inkişafıdır. Başqa sözlə, bu sahə üzrə məhsul istehsalının artımı və ixracı iqtisadi sabitliyin qarantıdır.

Ötən ilin yanvar-noyabr ayları ərzində ölkə üzrə ixrac 18,3 milyard dollar təşkil edib ki, bu da 2018-ci ilin müvafiq dövrünə nisbətən 365 milyon dollar çoxdur. Həmin dövrdə qeyri-neft sektoru üzrə 1 milyard 781 milyon dollar dəyərində ixrac reallaşıb. Beləliklə, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə ötən ilin 11 ayında qeyri-neft sektoru üzrə ixrac 249 milyon dollar artıb.

2019-cu ilin yanvar-noyabr ayları ərzində Rusiyaya 622,3 milyon, Türkiyəyə 363,3 milyon, İsveçrəyə 164 milyon, Gürcüstana 150,6 milyon və Ukraynaya 46,3 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə keçən ilin 11 ayında Rusiyaya qeyri-neft məhsullarının ixracı 12, Türkiyəyə 13, İsveçrəyə 33, Gürcüstana 29, Ukraynaya 27 faiz artıb.

Sözügedən dövr ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pomidor 166,7 milyon dollarla birinci, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda) 157,7 milyon dollarla ikinci və qabığı təmizlənmiş meşə fındığı 113,5 milyon dollarla üçüncü yerdə qərarlaşıb. Beləliklə, qeyri-neft sektoru üzrə ən çox ixrac olunan üç məhsuldan ikisi aqrar sektora məxsusdur. Bu da son dövrlər kənd təsərrüfatının inkişafına dövlət tərəfindən verilən dəstəyin nəticəsidir. Həmçinin keçən ilin 11 ayında pambıq mahlıcı, xurma, elektrik enerjisi, metanol (metil spirti), xüsusi kütləsi 0,94-dən az olan ilkin formal polietilen, ilkin formalı polipropilen də qeyri-neft ixracında önə çıxmışdır.

Ümumiyyətlə, 2019-cu ilin 11 ayı ərzində meyvə-tərəvəz ixracı 541,9 milyon, plastik kütlə və ondan hazırlanan məmulatların ixracı 168,1 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 117,9 milyon, pambıq lifi ixracı 108,8 milyon, kimya sənayesi məhsullarının ixracı 95,5 milyon, elektrik enerjisinin ixracı 76 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 54,8 milyon, pambıq ipliyi ixracı 27,3 milyon, şəkər ixracı 26,4 milyon, alkoqollu və alkoqolsuz içkilərin ixracı 22,6 milyon dollar təşkil edib.

Həmçinin 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar-noyabr aylarında alkoqollu və alkoqolsuz içkilərin ixracı 54, pambıq lifinin ixracı 53, plastik kütlə və ondan hazırlanan məmulatların ixracı 52, kimya sənayesi məhsullarının ixracı 30, pambıq ipliyinin ixracı 28, elektrik enerjisi ixracı 17, şəkər ixracı 14, alüminium və ondan hazırlanan məmulatların ixracı 11, meyvə-tərəvəzin ixracı 9 faiz artıb.

Keçən ilin noyabr ayında qeyri-neft sektoru üzrə ixrac 208 milyon dollar təşkil edib ki, bu da 2018-ci ilin müvafiq ayı ilə müqayisədə bu sektorda ixracın 27 milyon dollar artması deməkdir. Ötən ilin noyabr ayında qeyri-neft-qaz məhsulları ən çox Rusiyaya, Türkiyəyə, Gürcüstana, İsveçrəyə və Ukraynaya ixrac edilib. Həmin ayda qeyri-neft sektoru üzrə ixracda xurma 37 milyon dollarla birinci, tomat (pomidor) 19,1 milyon dollarla ikinci, pambıq mahlıcı 16,9 milyon dollarla üçüncü yerdə qərarlaşıb. Bunlarla yanaşı, noyabr ayında qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda), qabığı təmizlənmiş meşə fındığı, elektrik enerjisi, təzə meyvələr, daş kömür qatranının yüksək temperaturlu qovulmanın digər yağları və məhsulları da qeyri-neft sektoru üzrə ixracda mühüm paya malikdir.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar-noyabr aylarında Azexport.az portalına 532,3 milyon dollar dəyərində ixrac sifarişləri daxil olub. Bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar-noyabr aylarında ixrac sifarişlərinin 11 faiz artması deməkdir. Ötən ilin noyabr ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri 54,9 milyon dollar təşkil edib ki, bu da 2018-ci ilin müvafiq ayı ilə müqayisədə 19 faiz çoxdur. Keçən ilin yanvar-noyabr aylarında portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya, Türkiyə, İngiltərə, Hindistan və ABŞ qərarlaşıb.

Ötən ilin noyabr ayında portala ən çox ixrac sifarişi pambıq, tütün, toyuq əti, toyuq yumurtası, şərab, qənnadı məhsulu, çay, sarımsaq, nar, nar konsentratı, göbələk, mebel dəsti, tikinti materialı, fındıq ləpəsi, alma, soğan, boya, qızıl gül, kosmetik vasitə və s. mallara daxil olub. Onu da qeyd edək ki, 2017-ci ilin yanvar ayından keçən ilin 30 noyabr tarixinədək Azexport.az portalına dünyanın 138 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 1 milyard 521,4 milyon dollar təşkil edib.

Bununla yanaşı, ötən ilin dekabr ayı ərzində ixracatçılara əsasən fındıq ləpəsi, biyan kökü, şərab, pendir, qiymətli metallar, meyvə şirələri, narşərab, polad boru, polad armatur yayması, bağ mebelləri, pambıq tullantısı, qoyun bağırsağı, ayaqqabı altlıqları və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədlər təqdim edilib. Sertifikat verilən məhsullar Rusiya, Gürcüstan, ABŞ, Türkiyə, Ukrayna, Çin, Hindistan, Yaponiya, İran, İspaniya, Banqladeş, Özbəkistan daxil olmaqla dünyanın müxtəlif ölkələrinə ixrac edilib. Həmçinin qeyd edək ki, 2018-ci ildə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən ixracın dəyəri 150 milyon dollar olub.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Kəndlərdə içməli su və kanalizasiya xətləri çəkilir

Əhalinin ekoloji cəhətdən təmiz içməli suya olan tələbatının ödənilməsi məqsədilə Babək rayonunun Nehrəm və Araz kəndlərində içməli su xətləri və kanalizasiya sistemləri çəkilir.

İşlər başa çatdıqdan sonra hər iki kəndin əhalisi Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə fasiləsiz olaraq təmin ediləcək. Kəndlərdə kanalizasiya sistemləri də qurularaq sakinlərin ixtiyarına veriləcək.

AZƏRTAC-ın yaydığı xəbərdə bildirilir ki, az müddətdən sonra həmin kəndlərdə ümumilikdə 17 mindən çox sakin içməli su və kanalizasiya sistemləri ilə təmin olunacaq.

## EKTİS və kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması ilə bağlı təlimlər keçirilir

Kənd Təsərrüfatı Nazirliyində yaradılmış təlimçi qruplar tərəfindən "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nın tətbiqi və Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) ilə bağlı təlimlər keçirilir.

Nazirliyin yaydığı məlumatda bildirilir ki, ötən həftə ərzində "Heyvan subsidiyası" ilə əlaqədar Şəmkir, Tovuz, Göyçay, Ağdaş, Astara, Lənkəran, Samux, Göygöl, Sabirabad, Abşeron, Bərdə, Yevlax, Şabran, Siyəzən, Lerik, Yardımlı, Ucar və Zərdab rayonlarında 681 nəfər təlimlərə cəlb olunmuşdur.

Cari il yanvarın 13-31-də keçirilən təlimlərdə ümumilikdə 1749 nəfər iştirak etmişdir. Onlardan 257 nəfər süni mayalanma və 1049 nəfər baytarlıq mütəxəssisi, 443 nəfər Dövlət Aqrar İnkişaf mərkəzlərinin əməkdaşıdır.

## Salyanda 63,3 min başdan çox qaramal bəslənilir

Salyanda heyvandarlıq əsas təsərrüfat sahələrindən sayılır. Dövlətin aqrar bölmənin digər sahələri ilə yanaşı, heyvandarlığın inkişafına göstərdiyi hərtərəfli qayğı, son məhsula və bala alımına görə maldarlara ayırdığı əlavə subsidiyalar rayonda bu sahənin inkişafına güclü təkan verib, mal-qaranın baş sayının artmasına səbəb olub.

Son illər rayonda mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində də xeyli iş görülüb. Bu məqsədlə xarici ölkələrdən ətlik və südlük istiqamətli düyələr gətirilir, süni mayalanma məntəqələrinin şəbəkəsi genişləndirilir. Süni mayalanma yolu ilə doğulan hər baş buzov üçün dövlət tərəfindən 100 manat subsidiya verilməsi təsərrüfat sahiblərində bu sahəyə marağı daha da artırıb.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, hazırda rayonda 9 süni mayalanma məntəqəsi fəaliyyət göstərir. Ötən il bu məntəqələrin mütəxəssisləri tərəfindən mayalanma aparılmış 6 min 237 baş inək və düyədən 3 min 386 baş buzov alınıb. Doğulan buzovlara görə maldarlara ümumilikdə 338 min 600 manat subsidiya ödənilib.

Hazırda Salyanın heyvandarlıq təsərrüfatlarında 63 min 383 baş qaramal saxlanılır. Onların 75 faizi süni mayalanma üsulu ilə cins tərkibi yaxşılaşdırılmış heyvanlardır.

## Ağstafa Aqroparkı xarici mütəxəssislərlə birgə layihələndirilib



2016-cı ilin oktyabrında Prezident İlham Əliyevin iştirakı ilə təməli qoyulan Ağstafa Aqroparkı xarici mütəxəssislərin iştirakı ilə birgə layihələndirilib və hazırda obyektdə sürətli tikinti-quraşdırma işləri həyata keçirilir.

Bu barədə məlumat verən "Ağstafa Aqrar Sənaye Kompleksi" müəssisəsinin icraçı direktoru Anar Orucov bildirmişdir ki, layihə üzrə əsasən Almaniya və İsveçrənin nüfuzlu şirkətlərinin istehsal etdiyi, saatda 200 ton emal gücünə malik ilkin təmizləmə avadanlığı, saatda 50 ton qurutma gücünə malik və ümumi saxlama həcmi 36 min ton olan rezervuar, saatda 25 ton emal gücü olan dənli bitki toxumları istehsalı zavodu, saatda 5 ton emal gücündə dərman kompleksi, sutkada 36 ton istehsal gücündə çörək və yarımfabrikatlar zavodu inşa edilərək avadanlıqları quraşdırılmışdır.

A.Orucovun sözlərinə görə, layihə üzrə nəzərdə tutulan bütün işlər başa çatdırılmışdır. Hazırda texnoloji avadanlıqların sazlama prosesinin də yekunlaşmaq üzrə olduğunu bildirən icraçı direktor qeyd etmişdir ki, görülən işlər nəticəsində "Sahədən süfrəyə" prinsipini əsas tutaraq bütün istehsal prosesini zəncirvari qurmağa çalışırlar.

Bu gün kompleksin bütün müəssisələrində 360 nəfərin işlə təmin edildiyini vurğulayan A.Orucov sözügedən layihənin ümumi dəyərinin 86 milyon manat olduğunu diqqətə çatdırmışdır. Bunun bir hissəsinin Almaniyanın "Euler Hermes" ixracat sığortası dəstəyilə adıçəkilən ölkədən götürülmüş kredit, 5 milyon manatı dövlətin sahibkarlığın inkişafı üçün ayırdığı güzəştli kredit və müəssisənin şəxsi vəsaitləri olduğunu deyən icraçı direktor bildirmişdir ki, müəssisəyə təqdim olunan investisiya təşviqi sənədi əsasında Avropa ölkələrindən ixrac edilən texnoloji xətlər gömrük rüsumundan azad edilmişdir: "Eləcə də müəssisəmizə 7 il müddətinə vergi güzəştləri tətbiq olunub. Təşviq sənədinin alınması nəticəsində qənaət olunmuş 2 milyon 600 min manat vəsait müəssisənin yaradılmasında istifadə edilib".

## Bəhramtəpə-Biləsuvar avtomobil yolunun yenidən qurulması sürətlənir

"Azərbaycan Avtomobil Yolları" Dövlət Agentliyinin yaydığı məlumatda bildirilir ki, Bəhramtəpə-Biləsuvar avtomobil yolunun bərpası layihəsinin icrası sürətlə davam edir. Məlumat üçün bildirək ki, respublika əhəmiyyətli bu yolun uzunluğu 60 kilometrdir.

Layihə üzrə mövcud yol oxu saxlanılmaqla yolun II texniki dərəcəyə təkmilləşdirilməsi işləri aparılır. Yolun ümumi eni 15 metr olmaqla bura 7,5 metr enində hərəkət hissə və hər bir istiqamət üzrə 3,75 metr enində çiyinlər daxildir.

İndiyədək yolboyu mobilizasiya işləri aparılıb, tikinti sahəsi təmizlənib, köhnə asfalt-beton örtüyünün üst qatı frezlənərək kənara daşınıb, yolun köhnə və yararsız qruntu qazılaraq çıxarılıb, əvəzinə yararlı material tökülərək kipləşdirmə, həmçinin qaya dolğusu və genişləndirmə işləri aparılmaqla yeni yol yatağı inşa olunub.

Torpaq işlərinin ardınca yol əsasının inşasına başlanılıb. Yol əsası optimal qırmadaş və qum-çınqıl qarışıqlarından istifadə olunmaqla inşa edilir. Buna paralel olaraq yol əsası hazırlanan hissələrin asfaltlanması işləri də aparılır. Belə ki, yola əlaqələndirici bitum səpilməklə 27 santimetr qalınlığında 3 laydan ibarət yeni asfalt-beton örtüyü döşənir.

60 kilometrlik yolboyu 3 avtomobil körpüsünün inşası nəzərdə tutulur. Yolun 1,8-ci, 3,1-ci və 38,8-ci kilometrliklərində inşa edilən körpülərin uzunluqları müvafiq olaraq 28 və 32,5 metrdir. Bunlardan başqa, yolun 3,7-ci kilometrində, Araz çayı üzərində yerləşən 230 metr uzunluğunda olan mövcud avtomobil körpüsünün təmir olunaraq gücləndirilməsi nəzərdə tutulur.

Ümumilikdə bugünəcən işlərin 57 faizi icra olunub.

Bəhramtəpə-Biləsuvar avtomobil yolu respublikamızın regionları, o cümlədən İmişli və Biləsuvar rayonları arasında iqtisadi əlaqələrin, həmçinin kənd təsərrüfatının və regionların sosial-iqtisadi inkişafı, nəqliyyat xərclərinin azaldılması baxımından mühüm əhəmiyyətə malikdir. Bu yolun, eyni zamanda, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin əlaqələndirilməsində və tranzit xidmətlərinin səmərəliliyinin artırılmasında mühüm rolu var.








# Gənclik






Gələcəyə dəstək



# Heydər Əliyev irsi ölkənin davamlı inkişafının təminatıdır



**Ölkənin inkişaf modelinin əsasında Ümummilli Lider Heydər Əliyevin dövlətçilik ideyaları dayanır. Bu gün Azərbaycanın qazandığı misilsiz uğurların fövqündə müstəqil dövlətimizin memarı, Ulu Öndər Heydər Əliyevin imzası durur. İllər keçdikcə biz bunu daha aydın görür və dərk edirik. 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda Heydər Əliyevin respublika rəhbəri seçilməsi ilə Azərbaycan tarixində keyfiyyətcə yeni mərhələ başlandı.**

Azərbaycanda dövlət idarəçiliyində, təsərrüfatın bütün sahələrində yeni nəfəs, yeni iş metodunun əsası qoyuldu. Xalq milli adət-ənənələrin qorunub saxlanılmasını, milli düşüncəli ziyalıların təqib olunmadığını gördükcə sabaha daha böyük ümidlə baxır, Heydər Əliyevin rəhbərliyi altında siyasi hakimiyyət ətrafında sıx birləşirdi. Çox sərt rejimi ilə yaddaşlara əbədi həkk olunan sovet sistemi şəraitində Azərbaycan xalqı üçün vacib və zəruri hesab edilən xeyli mürəkkəb məsələlər milli mənafe naminə böyük müvəffəqiyyətlə həll edildi. Heydər Əliyev çox yaxşı bilirdi ki, millətin millət kimi formalaşmasında və tanınmasında ilk növbədə elmin, təhsilin, mədəniyyətin, incəsənətin inkişafına, milli-mənəvi dəyərlərin qorunmasına xüsusi diqqət yetirilməlidir. Odur ki, bu yollarla Azərbaycan istiqlalının təməli qoyulurdu.

Heydər Əliyevin siyasi fəaliyyətinin əsasını Azərbaycan xalqının birliyi, hakimiyyət daxilində yekdillik təşkil edirdi. Hakimiyyətlə xalq arasında vəhdətə nail olunması insanların Heydər Əliyevə olan inamını daha da artırırdı. Böyük şəxsiyyət azərbaycanlıları yüksək dövlət, partiya və müxtəlif sahələrdə, xüsusilə təsərrüfat strukturlarında vəzifələrə yerləşdirməklə siyasi hakimiyyəti möhkəmləndirir, milli ruhu qaldırır, respublikanın hərtərəfli inkişafı üçün zəmin yaradırdı. O, Azərbaycan ərazisində yaşayan bütün vətəndaşların vahid amal ətrafında birləşməsinə nail olduqdan sonra diqqəti digər sahələrin inkişafına yönəltdi. Ümumiyyətlə, 1969-1982-ci illər Azərbaycanın tarixində həmişə yüksəliş, tərəqqi, inkişaf kimi qalacaq. Bu illər ərzində elə bir sahə olmadı ki, Azərbaycan ittifaqın digər respublikalarından geri qalsın. Elm, təhsil, səhiyyə, mədəniyyət və incəsənət, kənd təsərrüfatı, sənaye sahələri sürətlə inkişaf etdirildi. Milli-mənəvi dəyərlərimiz qorunub saxlanıldı. Moskvanın təzyiqlərinə baxmayaraq, mənəvi dəyərlərin qorunub-saxlanılması, habelə inkişafı diqqət mərkəzində olurdu. Heydər Əliyev azərbaycanlı gənclərin dünyanın müasir elm və mədəniyyət nailiyyətlərini mənimsəmələrinə xüsusi önəm verirdi. Ana dilimizin qorunub saxlanılmasında, belə ağır bir dövrdə Konstitusiyada dövlət dili kimi təsbit olunmasında, milli-mənəvi dəyərlərimizin mühafizəsində, mədəni-maarif, səhiyyə sahələrinin əsaslı şəkildə qurulmasında, demoqrafik inkişafda, milli hərbi kadrların hazırlanması və hərbi vətənpərvərlik tərbiyəsinin yüksəlməsində Heydər Əliyevin tarixi xidmətləri əvəzsizdir.

Ulu Öndər həm özünün nadir siyasi istedadı sayəsində, həm də milli dirçəlişin mükəmməl fəlsəfi konsepsiyasına əsaslanaraq, müasir Azərbaycan adlandırdığımız bir məmləkəti, onun bugünkü həqiqətlərini, sabahkı gününün etibarlı bünövrəsini yarada bilmişdir.

Bütün fəaliyyəti boyu “Azərbaycanlı kimi dünyaya gəldiyimə, Azərbaycan dilində danışdığıma, Azərbaycanı təmsil etdiyimə görə özümü çox xoşbəxt sayıram” sözlərini fəxrlə səsləndirən böyük şəxsiyyət yaddaşımızda, tariximizdə öz parlaq izi ilə qaldı. Heydər Əliyevin tarixi missiyası bitməmişdi, əksinə, ən şərəfli və məsuliyyətli mərhələsi başlayırdı.

Cəmiyyətin bütün təbəqələrini öz sıralarında inam və ümidlə birləşdirən Yeni Azərbaycan Partiyası da Ümummilli Lider Heydər Əliyevin parlaq ideyalarının daşıyıcısı kimi şərəfli yol keçib.

1988-ci ildən başlayaraq ölkəmizdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi Yeni Azərbaycan Partiyasının yaranmasını tarixi zərurətə çevirdi. Siyasi, iqtisadi, sosial böhran xalqın ziyalılarını daha çox narahat edirdi. 1992-ci il noyabrın 21-də Heydər Əliyevin sədrliyi ilə keçirilən təsis konfransı Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərarla həyata vəsiqə aldı. YAP həmin tarixdən müstəqil Azərbaycanın, xalqımızın həyatında müsbət bir dönüş, intibah dövrü oldu.

Ulu Öndərin siyasi hakimiyyətə ikinci dəfə qayıdışı 1993-cü ili əhatə edir. Bu tarix xalqımızın yaddaşına əbədi həkk olunub. Həmin il iyunun 15-də Ulu Öndər Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildikdən sonra xalqda rahat yaşamağa böyük ümid yarandı. Azərbaycanın müstəqilliyinin möhkəmlənəcəyinə və əbədi olacağına, bu yolda qarşıya çıxacaq maneələrin aradan qaldırılacağına tam əminlik formalaşdı. Çoxillik siyasi təcrübəyə malik müdrik rəhbərin siyasi uzaqgörənlik fenomeni, quruculuq və inkişaf təcəssümü özünü dərhal büruzə verdi.

Heydər Əliyev Azərbaycana sabitlik, siyasi islahatlar, demokratikləşmə, iqtisadi yüksəliş, sosial inkişaf gətirdi. Heydər Əliyev Azərbaycanda vətəndaş qarşıdurmasını dayandırdı, vətəndaş birliyi və həmrəylik yaratdı. On minlərlə azadlıqdan məhrum olunanlara amnistiya və əfv tətbiq etdi, Azərbaycan insanına güclü və qüdrətli dövlət bəxş etdi.

Keçən hər bir il sübut edir ki, Ümummilli Lider Heydər Əliyevin irsi, təməlini qoyduğu siyasi kursu daha böyük tarixi əhatə edəcək. Heydər Əliyevə ən böyük abidə onun siyasi kursunun saxlanması və inkişaf etdirilməsidir ki, bu missiya da Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük uğurla həyata keçirilir. Heydər Əliyevin bu gün də yaşamaqda olan irsinə öz münasibətimizi qürur hissi keçirməklə yanaşı, eyni zamanda bu irsi yeni nəslə öyrətmək və yaşatmaqla ifadə edirik.

Azərbaycan Ulu Öndər Heydər Əliyev yolu ilə inamla irəliləyir. Bu yolu davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin müdrik, uzaqgörən, innovativ siyasəti ölkəmizi böyük uğurlara aparır.

Azərbaycan müstəqilliyinin 29-cu ilində qazandığı nailiyyətlər sayəsində regional və dünya ölkələri arasında lider ölkəyə çevrilib. Xalqımız əmindir ki, Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin inkişaf strategiyasını davam etməklə qarşıda duran bütün vəzifələrin uğurla yerinə yetirilməsini təmin edəcəkdir.

Ümummilli Lider Heydər Əliyevin irsi Azərbaycanda daim davam edəcək və Prezident İlham Əliyevin rəhbərliyi altında daha da böyük nailiyyətlər əldə edəcəkdir.

***Yusif AĞAYEV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “İctimai əlaqələr, elektron tədris və informasiya təminatı” şöbəsinin müdiri, dosent***

İnkişaf və Karyera Mərkəzləri

# Gənclərin fəallığı artır

**Gənclərin İnkişaf və Karyera Mərkəzi (GİKM) 2019-cu ilin 2 fevralında Azərbaycan Respublikasının Gənclər Fondunun maddi-texniki bazası əsasında yaradılıb. Prezident İlham Əliyevin 1 oktyabr 2019-cu il tarixli sərəncamına uyğun olaraq, ölkənin şəhər və rayonlarında fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndəliklərinin yaradılmasına başlanılıb.**





Gənclərin İnkişaf və Karyera Mərkəzinin məqsədi barədə verdiyimiz suala mərkəzin baş direktoru Rəvanə Həşimovanın cavabı belə oldu: “Bizim ali məqsədimiz təbii ki, gənclərdir. Bütün fəaliyyətimizin mərkəzində onlar dayanır. İstəyirik ki, Azərbaycanın şəhər və rayonlarında yaşayan gənc vətəndaşların dövlət gənclər siyasətinin tələblərinə uyğun, hərtərəfli inkişafı təmin edilsin. Çalışırıq ki, nümayəndəliklərimiz vasitəsilə regionda yaşayan gənclərin daim dövlət tərəfindən onlar üçün yaradılan imkanlar barədə məlumat və məsləhət almaq imkanları olsun. Bizim nümayəndəliklərdə təşkil olunan layihələr, tədbirlər və müxtəlif istiqamətli fəaliyyətlər gənclərin fərdi və sosial inkişafına, asudə vaxtlarının səmərəli təşkilinə xidmət edir”.

## “Sevindirici haldır ki, gənclər bizə inanır”

Müsahibimiz bildirir ki, GİKM həmçinin öz fəaliyyətində gənclərin karyera və peşə seçimlərini dəstəkləməyi, şəbəkələşmə və sosiallaşma məkanı formalaşdırmağı, peşəkar həyata yönləndirməyi, gənc istedadları üzə çıxarmağı və inkişaf etdirməyi, ictimai fəal gənclər yetişdirməyi əsas məqsədlər kimi qarşısına qoyub. R.Həşimova bu mərkəz və gənclərin məşğulluq, rayonlarda gəncləri işlə təmin etmə məsələlərinə də toxundu. O, bu gün GİKM-in region gəncləri üçün real iş imkanları yaratdığını bildirdi: “Bizim hər bir yeni yaradılan nümayəndəliyimizdə bir qrup gənc işlə təmin olunur. Hətta bir ay qabaq açılışlarını planlaşdırdığımız rayon nümayəndəliklərimizə vakansiya elanı payladıq. Qısa müddətdə bizə yüzlərlə gənc müraciət etdi. Bu, çox sevindirici haldır ki, gənclər bizə inanır və bizimlə çalışmağa can atırlar. Əlimizdən gəldiyi qədər müraciət edən təhsilli, işləməyə həvəsli, ictimai fəallığı ilə seçilənlərlə əməkdaşlıq etməyə çalışırıq. Bizim əsas məqsədlərimiz sırasına, əslində, bu məsələ də daxildir. Gələcəkdə hər bir rayonda hansısa şirkətə, quruma, iş təklif edən şəxsə Gənclərin İnkişaf və Karyera Mərkəzi real işləmək qabiliyyəti olan kadrlar təqdim edə bilsin. Bunun üçün həmin qurumlar aidiyyəti olmayan digər yerlərə yox, məhz Gənclərin İnkişaf və Karyera Mərkəzinə müraciət etsinlər”.

Mərkəzin baş direktoru diqqətə çatdırdı ki, Gənclərin İnkişaf və Karyera Mərkəzinin artıq 20 rayonda nümayəndəliyi fəaliyyət göstərir. Bu rayonlar sırasında Cəlilabad, Masallı, Quba, Qusar, Zaqatala, Qax, Biləsuvar, Qazax, İsmayıllı, Şəmkir, Bərdə, Ağcabədi, Xaçmaz, Goranboy, Yevlax, Lənkəran, Samux, Göygöl, Şamaxı, Göyçay var. Gənclərin İnkişaf və Karyera Mərkəzinin bu ilin aprelində digər rayonlarda da nümayəndəliklərinin açılması planlaşdırılır. R.Həşimova bildirdi ki, misal üçün fevral ayında bizim Ağdam, Şəki, Qəbələ, Tərtər, Balakən, Gədəbəy, Saatlı, Xızı, Siyəzən, Şabran kimi rayonlarda açılışlarımız planlaşdırılıb. Ümumi olaraq 56 mərkəzdə nümayəndəliklərimiz fəaliyyət göstərəcək.

## Könüllülük ili və GİKM

GİKM-in baş direktoru dedi ki, dövlət başçısı tərəfindən 2020-ci ilin “Könüllülər ili” elan olunması bizim təşkilatı bu sahədə yeni və daha geniş auditoriyanı əhatə edəcək layihələr icra etməyə ruhlandırıb. R.Həşimova vurğuladı: “Regiondakı mərkəzlərimizin hər birinin kifayət qədər gənc könüllüləri var. Bizim regional könüllülər həm Gənclər Fondu, həm də GİKM-in regionlarda aparılan işlərində, layihələrin həyata keçirilməsində ən böyük dayağıdır. Buna misal olaraq deyə bilərik ki, Azərbaycan Respublikasının Gənclər Fondu və ASAN-nın birgə təşkilatçılığı, bütün könüllü təşkilatlar və hərəkatların iştirakı ilə həyata keçirilən “Azərbaycan Könüllülük Həftəsi”ndə Gənclərin İnkişaf və Karyera Mərkəzinin yerli nümayəndəliklərinin könüllüləri də fəal iştirak etdilər. Həftə çərçivəsində həyata keçirilən “Şəhidimiz”, “VətənimİZ”, “Könüllülük sərhəd tanımır!”, “TəbiətimİZ” kampaniyalarında GİKM-in könüllüləri öz rayon və şəhərlərini layiqli şəkildə təmsil etdilər. Bundan əlavə, 2020-ci ilin “Könüllülər ili” elan olunması münasibəti ilə regionda gənclərimiz “Könüllü qonaq” adlanan təşəbbüs irəli sürüb. Bu çox geniş təşəbbüsdür. “Könüllü qonaq” hər bir gəncdə, könüllüdə qarşılığı olmadan yaxşılıq etmək, həmin yaxşılıqdan sözün əsl mənasında həzz almaq, paylaşdıqca artmaq, artdıqca daha çox yaxşılıq etmək kimi hissləri aşılayır. Biz şadıq ki, regionlarda gənclərimiz sevə-sevə bu təşəbbüsün bir hissəsi olmağı qəbul edirlər”.

Xatırladaq ki, adıçəkilən təşəbbüs qayğıya xüsusi ehtiyacı olan ailələrin və tənha şəxslərin evlərinə baş çəkərək təmizlik işlərinin aparılması, evlərdə, həyətlərdə və bağlarda səliqə-sahman yaradılmasını nəzərdə tutur. Gənclər məişətlə bağlı ev sahibinə kömək göstərdikdən sonra onlarla birlikdə xoş və maraqlı vaxt keçirirlər. Onlar ölkəmizin digər şəhər və kəndlərində yaşayan gəncləri də könüllü qonaq təşəbbüsünə qoşulmağa çağırırlar.

“Könüllülük ilində hansı tədbirlər görüləcək?” sualımıza cavabında mərkəzin baş direktoru görəcəkləri işlərdən söz açdı. Tədbirlər planının geniş olduğunu söylədi: “Nəzərə alsaq ki, GİKM-in ətrafında həm mərkəzdən, həm də regiondan müxtəlif, parlaq ideyalı, fərqli fikirli, daima yaradan gənclər toplaşıb, demək bu il bizdən gözləniləcək işlərin siyahısı çox maraqlı və rəngarəng olacaq”.

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***

Gənc istedad

# Ümidə, sevgiyə aparan yol

## 1 saylı Bakı “ASAN xidmət” mərkəzində baş mütəxəssis işləyən Vüsalə Kərimovanın maraqlı həyat hekayəsi

**Həyat başdan-başa mübarizədir. Qalibiyyət üçün mübariz olmaq isə ilkin şərtdir. Bəzən insan mübarizliyi qarşılaşdığı amansızlıqları dəf etmək üçün bacarır. Mübarizlər isə həmişə qalibdirlər...**



Söhbət 1 saylı Bakı “ASAN xidmət” mərkəzində vətəndaşların qəbulu işinin təşkili sektorunda baş mütəxəssis işləyən Vüsalə Kərimovadan gedir. 15 yaşında onurğa sütunundan zədə alan Vüsalə üzləşdiyi ağır faciədən sonra yerimə qabiliyyətini itirib. Lakin illər boyunca əlil arabasına məhkum olsa da, həyat eşqi sönməyib. Mübarizliyi onu həyata daha parlaq ümidlərlə bağlayıb. Deyir ki, çətinliklər hamının həyatında olur: “Yəqin ki, mənim də həyatımda qaçılmaz imiş. Arxada qalan illər ərzində qarşılaşdığım çətinliklərin öhdəsindən ancaq mübarizliyimlə gəlmişəm”.

Buna olacaq kimi baxan Vüsalə Kərimova deyir ki, həyatda heç kim nədənsə sığortalanmayıb. Moskva Dövlət Humanitar İqtisad Universitetinin Hüquq fakültəsini bitirən Vüsalə mübarizliyi, həyata nikbin baxışı ilə daha bir uğura imza atıb: “ASAN xidmət”də işə başlayıb. Bu, onun tələbəliyinin 5-ci ilində baş verib: “Əvvəlcə könüllü kimi fəaliyyətə başladım, sonra işlə təmin olundum. Yeni işə başlayanda fikirləşirdim ki, böyük dövlət qurumudur, burada müxtəlif orqanların əməkdaşları olacaq, gün ərzində minlərlə vətəndaş müraciət edəcək. Görəsən əlilliyi olan şəxsə necə münasibət göstərəcəklər? Ancaq işə başladıqdan sonra müdiriyyətimiz, əməkdaşlarımız və vətəndaşlarımız tərəfindən isti münasibət gördüm. Tez bir zamanda işə alışdım. Özümü burada artıq əlil arabasından istifadə edən kimi görmürəm”.

Vüsalə Kərimovanın arzuları çox, fikirləri aydındır. Düşünür ki, diplom aldıqdan sonra hazırlaşmaqla inzibati vəzifələr üzrə dövlət qulluqçusu adını da qazanmaq lazımdır. Bunlar hələ hamısı deyil. O həmçinin Avropada magistr təhsili almaq barədə də düşünür.

Elə bilirsiniz ki, Vüsalə yalnız arabada əyləşib yazıb-pozmaqla məşğuldur? Xeyr! Müxtəlif idman növləri - qılıncoynatma, gülləatma, idman rəqsləri ilə də məşğul olan Vüsalə Kərimova həm də Milli Paralimpiya Komitəsinin idmançısıdır. Beş ildən çoxdur ki, əlil arabasında idman rəqsləri ilə məşğul olur. Azərbaycanı beynəlxalq yarışlarda təmsil edir: “Açığı, ilk dəfə mənə “əlil arabasında idman rəqsləri ilə məşğul olarsanmı?” sualı veriləndə təəccüblənmişdim. Çünki heç ağlıma sığdıra bilmirdim ki, əlil arabasında olan bir insan necə rəqs edə bilər. Lakin, necə deyərlər, ölümdən başqa hər şeyə çarə varmış. Bunu da bacardım. Bir neçə xarici ölkəyə səfərimiz oldu, tanışlıq dövrü keçdim. Əlilliyi olan şəxslərin necə rəqs etdiyini gördüm. Bundan sonra məndə “niyə də rəqs etməyim?” sualı yarandı. Cavabını da özüm verdim: rəqs edəcəyəm...”

Vüsalə Kərimova ötən illər ərzində müxtəlif beynəlxalq yarışlarda yüksək yerlərin sahibi olub. Belarusda keçirilən çempionatda iki qızıl medala layiq görülüb. Maraqlı təklifi var: “ Çox istərdim ki, bu idman növü digər əlilliyi olan şəxslər arasında da yayılsın. Hazırda mən tək rəqs etmirəm. Kombi formasında məşğul oluruq. Bu, sağlam bir rəqqasın əlilliyi olan şəxslə birlikdə kombinləşmiş rəqsdir”.

Vüsalə Kərimova 3 ildir ki, güllə atıcılığı ilə də məşğul olur. Peşəkar arenada olmasa da, güllə atıcılığına böyük həvəs göstərir: “Əslində, uşaqlıqdan çox pozitiv olmuşam. Aldığım zədədən əvvəl də belə idim. İndi həyata keçirdiklərim uşaqlıq arzularımdır. Bu yaxınlarda bəlkə bir tamaşada da rol aldım. Hələ dəqiq deyil, amma gücümü sınamaq istəyirəm. Rejissorla məsləhətləşəcəyik”.

Vüsalənin fikrincə, həyatda uğura, ümidə, sevgiyə aparan yol güclü istək və arzulardan keçir. Çünki onlar hansısa fiziki sərhədlər tanımır.

Vüsalə Kərimova yalnız özünü düşünmür. Fiziki cəhətdən məhdudiyyəti olanlara və onların ailələrinə demək istədiyi var: “Bizim əlilliyi olan şəxslər cəmiyyətdə fəallıqları ilə seçilə bilərlər. Amerikada səfərdə oldum. Onlarla bizim aramızdakı fərqi gördüm. Valideynlər bəzən əlil uşaqlarını cəmiyyətə çıxarmaq istəmirlər. Ancaq gələcəyi bilmək olmaz. Bəlkə onlar yaxşı təhsil alıb yüksək mövqelərdə duracaqlar? Valideynlər isə onlara baxıb, etdikləri hərəkətdən utana bilərlər. Buna görə də valideynlər öz övladlarından utanmasınlar, onları cəmiyyət arasına çıxarsınlar. Azərbaycanda dövlət bu kateqoriyadan olan gənclərə xüsusi diqqət və qayğı ilə yanaşır. İlk növbədə biz də cəmiyyətə inteqrasiya yolunu seçməli və mübarizə aparmalıyıq”.

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

Seminar

# İctimai davranış qaydalarına həsr edilən layihə yekunlaşıb

**Sumqayıt Gənclər Evində “İctimai davranış qaydalarının gənclərə təşviq edilməsi” layihəsi çərçivəsində sonuncu seminar keçirilib.**

Tədbirdə öncə iştirakçılara ictimai davranış qaydaları haqqında videoçarx nümayiş etdirilib. Seminarda çıxış edən layihə rəhbəri Əli Zeynalov ölkədə gənclərə göstərilən diqqət və qayğıdan söz açıb, layihənin Gənclər Fondunun XIII qrant müsabiqəsində qalib olduğunu qeyd edib. Bildirilib ki, layihənin məqsədi ictimai-mədəni-sosial qaydaları, normaları, davranış qaydalarını gənclərə təşviq etmək, belə qaydalara əməl olunmasının vacibliyini önə çəkmək, cəmiyyətdə daha etik, anlaşıqlı, avanqard, aqressiyadan kənar bir gənclik toplumu yetişməsinə nail olmaqdır.

Layihənin koordinatoru Əli Miriyev, ekspertlər Şəmsiyyə İbişova, Arzu İlhamsoy yeniyetmə və gənclərin ictimai məsuliyyətinin, mədəniyyət normalarının inkişafına xidmət etdiyini bildiriblər. Gələcəkdə belə layihə iştirakçılarının cəmiyyətdə sağlam mövqe tutmaları üçün onların etik qaydalara riayət etmələrinin, özlərinin mədəni səviyyələrini artırmağın qeydinə qalmalarının vacibliyi vurğulanıb.



***Akif ƏLİYEV,***
***“Azərbaycan”***

# Bakı Ali Neft Məktəbi Türkiyənin Ali Təhsil Şurası tərəfindən tanınıb

BANM-ın mətbuat xidmətinin verdiyi məlumata görə, Türkiyənin Ali Təhsil Şurası (YÖK) Bakı Ali Neft Məktəbini (BANM) yüksək standartlara cavab verən ali təhsil müəssisəsi kimi tanıyıb. Belə ki, ali məktəb tərəfindən göndərilən sorğu Ali Təhsil Şurası tərəfindən müsbət rəy alıb.

Şura tərəfindən ünvanlanan məktubda qeyd edilib ki, Bakı Ali Neft Məktəbi YÖK-ün mövcud beynəlxalq qurumlar siyahısında yer alır. Həmçinin Türkiyədə qarşılıqlı diplom tanınma qaydalarına uyğun olduğu təqdirdə, xaricdəki bütün ali təhsil müəssisələri kimi, Bakı Ali Neft Məktəbinin də bakalavr, magistratura diplom sahibləri müxtəlif təhsil proqramlarına müraciət edə bilər.



YÖK (Yüksek Öğretim Kurumu) - Ali Təhsil Şurası Türkiyə Respublikasının 1982-ci il Konstitusiyası ilə müəyyən edilmiş ali təhsil sisteminin təməl əsaslarına görə yaradılmış qurumdur. Qurumun əsas məqsədi Türkiyədəki ali təhsil müəssisələrində tədrisin planlaşdırılması, təşkili, idarə edilməsi, nəzarət, eləcə də ali təhsil müəssisələrində tədris və elmi tədqiqat işlərinin aparılması, bu qurumların qanunda göstərilən məqsəd və prinsiplərə uyğun qurulması, inkişafı və akademik kadrların hazırlanması üçün planlar hazırlamaqdır.


## REQUEST FOR EXPRESSIONS OF INTEREST

**Azerbaijan Republic**
**Agricultural Competitiveness Improvement Project**
Loan No.8286-AZ
**Assignment Title: Individual Consultant on development of Value Chain Economic Analysis**
**Reference No. B2/CS-7a**

The Government of Azerbaijan has received financing from the World Bank toward the cost of the Agricultural Competitiveness Improvement Project, and intends to apply part of the proceeds for consulting services.

The project consists of four components:

(i) Component A - Support for sanitary and phytosanitary services, which is structured into three subcomponents: support: (i) Food Safety Capacity Building; (ii) Upgrading Plant Health and Phytosanitary System, and (iii) Animal Health and Veterinary Services.

(ii) Component B - Agri-food value chain development. The activities will be structured into two sub-components: (i) Investment and advisory support for agribusiness value chain development, and (ii) Seed sector development.

(iii) Component C - Financial services to agribusiness.

(iv) Component D - Project Management.

**1. Sub-component B1: Investment and advisory services for agribusiness development**

The Sub-component will help develop value chains by partially financing demand-driven investment proposals. The specific activities supported under the sub-component are: (i) providing development support for value chain participants to assist them to establish productive partnerships and prepare sub-project proposals for funding under the Project and (ii) investment support for agribusiness value chains.

Within this component of the project, ACIP facilitates the development of selected value chains through providing investment and technical support to entrepreneurs and farmers in Azerbaijan. The activities aim to increase the value of marketed output of selected value chains. This will be achieved by raising farm productivity, comprehensively addressing constraints along the value chain and facilitating productive partnerships between value chain participants through value chain sub-projects. A productive partnership is a set formal or informal, mutually beneficial, commercial partnership between participants in a value chain which may include buyers (fresh buyers and processors), farmers and input service providers (seeds and input supplier, machinery services, storage and distribution services, advisory and information services, veterinary services).

Within the PMU, a Value Chain Development Secretariat (VCDS) is responsible for coordinating the project investments for development of agribusiness value chains. At the regional level, VCDS is supported by the Value Chain Assistance Team (VCAT), consisting of five individual consultants. VCAT is mobilizing participants of the selected value chains, facilitating productive partnerships, supporting applicants in the preparation of concept notes (CN) and sub-project proposals (SPP), supervising sub-project implementation and conducting monitoring and evaluation. 20 sub-project Proposals (SPP) have already been approved, while 5 SPPs are currently being prepared. From the approved SPPs, 15 sub-projects (SPs) are currently under implementation.

**The general objective of the assignment**

The objectives of this assignment are to (i) develop methodology for cost-benefit and financial and economic analysis of value chain sub-projects; (ii) undertake five cost-benefit and financial and economic analysis for SPs; and (iii) provide technical assistance to the PMU, VCDS and VCAT for the analysis of the remaining SPs with the objective to improve their capacity to do the analysis themselves.

**Scope of work**

- The Consultant should familiarize him/herself with the project. S/he should look at the Operational Manual, Project Appraisal Document, and other documents that the PMU considers important.
- The Consultant, together with the PMU (Project Management Unit), VCDS (Value Chain Development Staff) and VCAT (Value Chain Assistance Team) will select 5 VC sub-projects for economic analysis.
- The Consultant should work with the PMU/VCDS/VCAT to collate existing data and collect new data where necessary, in order to establish sound and comparable cost and benefit streams.
- The Consultant should develop a set of methodology to measure the cost stream (NPV) and benefit stream (IRR) for selected value chains.
- To analyze the viability and profitability of the selected value chain, particularly comparing the planned based on the sub-project proposals and actual situation.
- To estimate the economic impact on economic activity in the country/region as well as its competitiveness within the national economy and some measures of external competitiveness to have an idea about export potential of the value chain.
- To identify the risks, opportunities that can affect the economic performance of the value chain.
- The Consultant should work with the PMU/VCDS/VCAT and analyze data, and present the result in a stylized format.

**Expected Outcome of the Assignment**

The Consultant will furnish a comprehensive value chain analysis report having disaggregated data including following, but not necessarily limited to:

- Detailed analysis of the established value chains with quantitative & qualitative description and the economic values at each level of the chain.
- Value chain mapping of actors, process stages and monetary flows.
- Production and market costs and revenues, value additions and profit margin along the chain including income and employment.
- Risks or opportunities for growth potential, market trends (supply and demand) including cross-border trade (export and import) and competitiveness of established value chains.

**Duration of the task**

The assignment shall be implemented starting from February 2020 until April 30, 2020. Overall involvement and timeline for all deliverables is considered as 30 working days. Consultant's financial proposal shall cover remuneration and all possible reimbursable and applicable taxes. The Client shall not cover no any payment toward the implementation of this assignment.

**Qualification and Experience of the Consultant**

The local Consultant should have:

- A master or higher degree in economics.
- At least 5 years of experience in value chain, sub sector analysis, good understanding of private sector, rural business development and trade policies including market dynamics.
- proficiency in data analysis and advanced knowledge of Excel
- Expertise in designing and executing high quality documentation in Azerbaijan and English languages.

The Agricultural Competitiveness Improvement Project now invites eligible individual consultants to indicate their interest in providing the services. Interested Consultants should provide information demonstrating that they have the required qualifications and relevant experience to perform the Services.

The attention of interested Consultants is drawn to paragraph 1.9 of the World Bank's *Guidelines: Selection and Employment of Consultants under İBRD Loans and İDA Credits & Grants] by World Bank Borrowers, January 2011 edition, revised July 2014* ("Consultant Guidelines"), setting forth the World Bank's policy on conflict of interests.

Expressions of interest must be delivered in a written form to the address below (in person, or by mail, or by fax, or by e-mail) by February 21, 2020.

**Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project**
**Attn: Mr. Anar Azimov**
**Project Director**
**25E, Nobel avenue, Baku White City Business Center, AZ1025, Baku, Azerbaijan**
**Tel: (+99 412) 525 01 17**
**E-mail: a.azimov@akia.gov.az; anarazim@gmail.com; gunelsafaraliyeva@gmail.com; nargiz.acip@gmail.com; n.isgandarova@akia.gov.az**
**Web: www.akia.gov.az**

Further information can be obtained at the address above during office hours 09:00-18:00.


# Paşinyan-Konstitusiya Məhkəməsi qarşıdurması böyüyür

*Əvvəli 1-ci səh.*

Amma Konstitusiya Məhkəməsi parlamentin müraciətinə baxmaqdan imtina edib və bunu "müəyyən edilmiş reqlamentə" əməl olunmaması ilə əsaslandırıb. Bundan sonra iqtidar partiyası Konstitusiya Məhkəməsinin üzvləri üçün "vaxtından əvvəl pensiya sistemi haqda qanun" hazırlayıb. Bu qanuna əsasən, Konstitusiya Məhkəməsinin sədri və üzvlərinə istefaya getmələri üçün 2020-ci il dekabrın 31-nə qədər müddət verilir, əvəzində onlara aldıqları əməkhaqqı həcmində (2 min ABŞ dollarından çox) ömürlük pensiya təklif olunur. Parlament müxalifəti isə bu qanunu "qanuni rüşvət" adlandırıb və əleyhinə səs verib. İqtidarda olan çoxluq qanunu qəbul etsə də, hələlik hakimlərdən heç biri pensiyaya çıxmayıb.

Belə bir vaxtda Ermənistan Milli Təhlükəsizlik Xidmətinin (MTX) sabiq rəisi Artur Vanetsyan baş nazir Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyanın sahibi olduğu "Aykakan jamanak" qəzetini məhkəməyə verməyi planlaşdırır. Bu barədə Vanetsyanın vəkili Lusine Saakyan məlumat verib.

Xatırladaq ki, bu il yanvarın 12-də Anna Akopyanın baş redaktoru olduğu qəzetdə "Mənim şərəfim var, yoxsa yoxdur? Mişik, Artur, Arik" adlı məqalə dərc edilib. Məqalədə Təhlükəsizlik Şurasının sabiq rəhbəri Artur Vanetsyanın Paşinyan və onun ailə üzvlərinə qarşı təşkil etdiyi mətbuat kampaniyasının bu gün də davam etdirildiyi bildirilirdi. Nəşr Vanetsyanın bu kampaniyaya hələ Təhlükəsizlik Şurasının sədri olduğu vaxtdan start verdiyini yazıb: "Vanetsyan səlahiyyət sahibi olarkən ölkədə tanınmış kriminal avtoritetlərin xidmətlərindən yararlanaraq, erməni nəşrlərinin birində Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan və qızı Mariam Paşinyan haqqında böhtan və yalan dolu məlumatlar dərc etdirib".

Qeyd edək ki, deyilənləri qəbul etməyən Vanetsyan "Aykakan jamanak" nəşri və onun redaktorundan yazılanlarla bağlı təkzib verməyəcəyi təqdirdə nəşri məhkəməyə vermək üçün öz vəkillərinə müraciət edəcəyini bildirib.

Bu arada onu da qeyd edək ki, baş nazir Nikol Paşinyanın siyasətinə etiraz olaraq ötən ilin sentyabrında istefa verən sabiq MTX rəhbəri Artur Vanetsyan siyasətlə məşğul olmaq və partiya yaratmaq niyyətində olduğunu da bəyan edib. Bir çox media rəhbərləri və jurnalistlərlə görüş keçirən keçmiş MTX rəhbəri təsis edəcəyi partiyanın mərkəz sağçı olacağını deyib: "Mən partiyaya kimlərin qoşulacağı barədə hələlik açıqlama vermək, ad çəkmək istəmirəm. Bir çoxları ilə danışıqlar aparmışam. İdeologiya haqqında partiyanın təsis qurultayında danışacağıq".

Bunlar göstərir ki, qarşıdakı dövr heç də Paşinyan iqtidarı üçün asan olmayacaq və bu hal ölkədə gərginliyi daha da artıracaq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Belarusda Həzi Aslanovun 110 illiyi münasibətilə silsilə tədbirlər keçirilir





Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Prezidentinin sərəncamına əsasən, ölkəmizin Belarusdakı səfirliyi tərəfindən silsilə tədbirlər keçirilir.

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın Belarusdakı səfirliyinin təşkilatçılığı və MDB İcraiyyə Komitəsinin nümayəndələrinin iştirakı ilə Vileyka şəhərində görkəmli hərbi xadim, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun anadan olmasının 110 illiyi münasibətilə anım tədbiri keçirilib.

Qeyd edək ki, Həzi Aslanovun özü tərəfindən bilavasitə azad edilmiş Vileyka şəhərində Azərbaycan diasporunun köməyi ilə görkəmli sərkərdəmizə əzəmətli abidə ucaldılıb. Həzi Aslanovun abidəsi önündə keçirilən tədbirin açılışında Böyük Vətən müharibəsində şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri Vileyka Rayon İcraiyyə Komitəsinin sədri Oleq Bequnets açaraq bildirib ki, "Baqration" əməliyyatı gedişində 35-ci qvardiya tank briqadasının başında Vileyka, Borisov və Smorqon şəhərlərini azad edən Həzi Aslanov Vileyka sakinləri üçün xilaskar əsgər rəmzidir. Biz böyüməkdə olan gənclərimizi onun nümunəsində tərbiyə edəcəyik.

Tədbirdə çıxış edən səfir Lətif Qəndilov general-mayor Həzi Aslanovun anadan olmasının 110 illiyi münasibəti ilə dövlət səviyyəsində tədbirlərin keçirilməsinə dair Prezident İlham Əliyevin sərəncam imzaladığını tədbir iştirakçılarının diqqətinə çatdırıb və bunun Böyük Vətən müharibəsində qələbənin 75 illiyi ilə üst-üstə düşdüyünü qeyd edib. Bu isə xalqımızın və dövlətimizin qələbənin 75 illiyinə verdiyi diqqətin tərənnümüdür.

L.Qəndilov bildirib ki, Böyük Vətən müharibəsi dövründə qələbənin əldə olunmasında Azərbaycan xalqının əvəzsiz xidmətləri olub. Həmin illərdə 600 mindən çox azərbaycanlı cəbhəyə gedib, onların təqribən 300 mini həlak olub, 128 azərbaycanlı isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Belarusun azad edilməsi üçün 16 mindən çox azərbaycanlı öz canlarını fəda edib. Səfir qeyd edib ki, xalqımız arxa cəbhədə də qəhrəmanlıq göstərərək Böyük Vətən müharibəsi zamanı cəbhəni tələb olunan yanacağın 80 faizi, sürtkü yağlarının 90 faizi, bundan əlavə isti geyim, ərzaq və silah-sursatla təmin edib.

Səfir Həzi Aslanovun keçdiyi döyüş yolu və qəhrəmanlıqları barədə ətraflı məlumat verib və onun mahir hərbi sərkərdə istedadı nümayiş etdirərək Vileyka şəhərini alman faşistlərindən necə döyüşsüz azad etdiyini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Həzi Aslanovun görkəmli xadim olmasını öz sözü ilə deyil, 1942-ci il yanvar ayının 13-də "Krasnaya Zvezda" və 1943-cü ildə yenə həmin tarixdə Stalinqrad Cəbhəsi "Sın Oteçestvo" qəzetlərində çıxmış məqalələrdən hissələr oxuyaraq tədbir iştirakçılarının diqqətinə çatdırıb.

"Krasnaya Zvezda" qəzeti 1942-ci yanvar ayının 13-də Həzi Aslanov barədə belə yazırdı: "Hərb tarixi Həzi Aslanov və onun döyüş dostları kimi qəhrəmancasına vuruşan əsgərləri görməyib. Düşmənin tankları və piyada qoşunları nə qədər də güclü olsalar, onlar heç vaxt qüdrətli komandir, Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun rəhbərlik etdiyi hərbi hissələrlə müqayisə oluna bilməzlər".

Stalinqrad Cəbhəsi "Sın Oteçestvo" qəzeti 1943-cü il yanvar ayının 13-də Həzi Aslanovun qəhrəmanlığını aşağıdakı sözlərlə ifadə edirdi: "Tank əməliyyatlarını piyada qoşunu və artilleriya ilə necə əlaqələndirmək lazım olduğunu polkovnik Həzi Aslanovun qvardiyasının hissələrindən öyrənmək lazımdır. Qoy Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun döyüş bacarığı bizim digər hissələr üçün də nümunə olsun".

Tədbirdə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi sədrinin birinci müavini Viktor Quminski bildirib ki, keçmiş SSRİ-nin çoxsaylı xalqlarının milyonlarla oğul və qızları bütün ağır sınaqlardan keçərək faşizm üzərində böyük qələbənin qazanılmasına həlledici töhfə veriblər.

V.Quminski çıxışının sonunda tədbirin keçirilməsinə görə səfirliyə təşəkkürünü bildirib, veteranları və tədbir iştirakçılarını qələbənin 75 illiyi münasibəti ilə təbrik edib.

Tədbirdə həmçinin Vileyka rayon veteranlar təşkilatının rəhbəri Anna Şepelova, Maksim Tank adına Belarus Dövlət Pedaqoji Universitetinin tələbələri, Böyük Vətən müharibəsi veteranları, Azərbaycan diasporunun nümayəndələri və Belarusda təhsil alan hərbçilərimiz iştirak ediblər.

Tədbir zamanı Azərbaycanın Fövqəladə Hallar Nazirliyinin Belarusda təhsil alan kursantları və pionerlər görkəmli hərbi xadim Həzi Aslanovun abidəsi önündə fəxri qarovulda dayanıblar. Sonra Vileyka şəhərində yerləşən "Mir" kinoteatrında Həzi Aslanova həsr olunmuş bədii və sənədli filmlər nümayiş etdirilib. Tədbir iştirakçıları filmləri böyük maraqla izləyib və alqışlarla qarşılayıblar.

İştirakçılar Belarusun azad olunmasında iştirak etmiş Sovet İttifaqı Qəhrəmanı olan 14 azərbaycanlının şəkillərindən ibarət stendlə tanış olublar.

Sonda səfirlik tərəfindən ziyafət təşkil olunub. Ziyafətdə Vileyka rayon veteran təşkilatının nümayəndələri, səfirliyin əməkdaşları və Azərbaycan diasporu iştirak edib.

Tədbir Belarusun "belta.by" saytı və MDB İcraiyyə Komitəsinin internet səhifələrində geniş işıqlandırılıb.

Yaxın günlərdə səfirlik tərəfindən Minsk şəhərində Belarusun Böyük Vətən Müharibəsi Tarixi Muzeyində Həzi Aslanovun anadan olmasının 110 illiyinə həsr olunmuş daha bir təbdir keçiriləcək.

# ETSN və AQTA vəhşi heyvanları qanunsuz olaraq saxlayanlara bunun yolverilməz olduğunu xatırladıblar

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (OIE) məlumatlarına əsasən, Çin Xalq Respublikasında baş vermiş və dünyanın bir sıra ölkələrinə yayılmış 2019-nCoV koronavirus epidemiyasının əsas səbəbkarı isti və soyuqqanlı heyvanlar, o cümlədən vəhşi heyvanlar və dəniz məhsulları hesab olunur. Eyni zamanda, Dünya Səhiyyə Təşkilatı (WHO) və OIE birlikdə virusun (2019-nCoV) heyvan mənşəli olduğu qənaətinə gəlib.

Əldə olunan təcrübəyə əsasən 2019-nCoV koronavirusunun vəhşi heyvanlar vasitəsilə yayılması riski ölkəmiz üçün də mövcuddur.

Qida Təhlükəsizliyi Agentliyinin İnformasiya təminatı və innovativ həllər şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, aparılan müşahidələr onu göstərir ki, hazırda bir sıra ictimai-iaşə obyektlərində, istirahət mərkəzlərində və digər ictimai yerlərdə vəhşi heyvanların qanunsuz olaraq saxlanılması, onlardan əyləncə məqsədilə istifadə olunması hallarına rast gəlinir. Belə hallar qanunvericiliyin tələblərini pozmaqla yanaşı, koronavirus, quduzluq və s. kimi virus xəstəliklərinin yayılmasına da münbit şərait yaradır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) və Qida Təhlükəsizliyi Agentliyi (AQTA) həmin şəxslərə xəbərdarlıq edərək bildirir ki, ictimai-iaşə obyektləri, istirahət mərkəzləri və digər ictimai yerlərdə vəhşi heyvanların qanunsuz olaraq saxlanılması qətiyyətlə yolverilməzdir.

ETSN və AQTA bir daha vətəndaşları epizootik vəziyyətlə bağlı diqqətli olmağa, eyni zamanda, xəstəlik əlamətləri müşahidə edilən və ya tələf olan vəhşi heyvanlarla (quşlarla) bağlı şübhəli hallar müşahidə etdikdə agentliyin regional bölmələrinə, yaxud "1003-Çağrı mərkəzi"nə, eləcə də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 168 saylı "Qaynar xətti"nə məlumat verməyə çağırır.


## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
## *açıq tenderə dəvət edir*

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparatında istismarda olan printerlərin katriclərin dolumu xidmətlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT üzrə 30 (otuz) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK CTREAZ22**
**H/Hesabı: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **26.02.2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **05.03.2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **06.03.2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi "İçərişəhər" Muzey Mərkəzi "Azərbaycan hökmdarları" - Ağqoyunlu dövlətinin hökmdarlarına həsr olunmuş serginin təşkili məqsədilə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif olunur ki, dövlət satınalmalarının **https:www.etender.gov.az** vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: - aşağı qiymət, yüksək keyfiyyət, təcrübə və maliyyə vəziyyəti. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər 250 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi "İçərişəhər" Muzey Mərkəzi Bakı şəhəri, Böyük Qala küçəsi, 41 (əlaqələndirici şəxs: Səbinə Bağırova, telefon: (012) 492-29-10) ünvanından ala bilərlər.

**Hesab: AZ81IBAZ38090019446242419204**
**VÖEN: 1702532651**
**Bank ABB Mərkəzi filial**
**Kodu: 805722**
**VÖEN: 9900001881**
**M/H: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **28 fevral 2020-ci il saat 11:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **10 mart 2020-ci il saat 16:00-a** qədər "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi "İçərişəhər" Muzey Mərkəzi Bakı şəhəri, Böyük Qala küçəsi, 41 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **11 mart 2020-ci il saat 11:00-da** "İçərişəhər" Muzey Mərkəzi Bakı şəhəri, Böyük Qala küçəsi, 41 ünvanında açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti

### *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir:**
Dezinfeksiya, dezinseksiya, deratizasiya işlərinin satın alınması.

Tender iştirakçıları **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Təkliflərin qiymətləndirilməsində analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti, aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri olan potensial meyarlara üstünlük veriləcəkdir.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər:

**İştirak haqqı - 200 AZN**
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142330**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla ) **27 fevral 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə **06 mart 2020-ci il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **10 mart 2020-ci il saat 16:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## "Azərsu" Açıq Səhmdar Cəmiyyəti "Azərsu" ASC-nin Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq 2019-cu il ərzində əvəzsiz alınmış əsas vəsaitlərin yenidən qiymətləndirilməsi və 31.12.2019-cu il tarixinə əsas vəsaitlərin qiymətdəndüşməyə testləşdirilməsi xidmətlərinin satın alınması məqsədilə

### *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və satınalmaların idarə olunması departamentinin Satınalmaların təşkili şöbəsinə (əlaqələndirici şəxslər: şöbə rəisi - İlqar Tağıyev, tel: 431-47-67/1033 və Satınalmalar üzrə aparıcı-mühəndis - İntizam Novruzov, tel: 431-47-67/3019, **intizam.novruzov@azersu.az**) yazılı müraciət edərək kotirovka sorğusunu əldə edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 11 fevral 2020-ci il saat 12:00-dan gec olmamaq şərti ilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri "Azərsu" ASC, Bakı şəhəri, Moskva prospekti, 67 nömrəli ünvanda **12 fevral 2020-ci il saat 16:00-da** açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərsu" Açıq Səhmdar Cəmiyyəti 2019-cu ilin Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun illik konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması xidmətlərinin satın alınması məqsədilə

### *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və satınalmaların idarə olunması departamentinin Satınalmaların təşkili şöbəsinə (əlaqələndirici şəxslər: şöbə rəisi - İlqar Tağıyev, tel: 431-47-67/1033 və Satınalmalar üzrə aparıcı-mühəndis - İntizam Novruzov, tel: 431-47-67/3019, **intizam.novruzov@azersu.az**) yazılı müraciət edərək kotirovka sorğusunu əldə edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 11 fevral 2020-ci il saat 12:00-dan gec olmamaq şərti ilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri "Azərsu" ASC, Bakı şəhəri, Moskva prospekti, 67 nömrəli ünvanda **12 fevral 2020-ci il saat 16:00-da** açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti

### *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir:**
Balaxanı Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavodu üçün avadanlıqların satın alınması.

Tender iştirakçıları **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Təkliflərin qiymətləndirilməsində analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti, aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri olan potensial meyarlara üstünlük veriləcəkdir.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər:

**İştirak haqqı - 200 AZN**
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142330**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **27 fevral 2020-ci il saat 14:00-a** qədər, tender təklifi və bank təminatını isə **06 mart 2020-ci il saat 14:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **10 mart 2020-ci il saat 14:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərişıq"ASC-nin Tender komissiyası tərəfindən 10.01.2020-ci il tarixdə **"ASAN xidmət" mərkəzlərinin "Azərişıq" ASC-yə aid olan layihələrə tələb olunan müxtəlif çəpərləmə dəstlərinin"** satın alınması məqsədilə elan edilmiş açıq tender üzrə müraciət edən iddiaçıların sayı üçdən az olduğu üçün Tender komissiyasının qərarı ilə tenderin davamından imtina olunur.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərişıq"ASC-nin Tender komissiyası tərəfindən 10.01.2020-ci il tarixdə **"ASAN xidmət" mərkəzlərinin "Azərişıq" ASC-yə aid olan layihələrə tələb olunan müxtəlif elektrik mallarının"** satın alınması məqsədilə elan edilmiş açıq tender üzrə müraciət edən iddiaçıların sayı üçdən az olduğu üçün Tender komissiyasının qərarı ilə tenderin davamından imtina olunur.

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti 2020-ci il üçün xərclər smetasında "mətbəə xərcləri" (221200) maddəsinə ayrılmış vəsaitlər hesabına

### *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 11.02.2020-ci il tarixə qədər Dövlət Əmək Müfəttişliyi Xidmətinin aşağıdakı ünvanına təqdim olunmalıdır.

Əlaqələndirici şəxs: Anar Məmmədov.

**Ünvan: Bakı şəhəri, S.Əsgərova küç., 85.**
**Telefon: (012) 594-17-26.**

***Tender komissiyası***

## Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası kotirovka sorğusu üsulu ilə "Mətbəə məhsulları üzrə xərcləri"n satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (012) 404-12-00 (3307) nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 10 fevral 2020-ci il saat 16:00-dək qəbul olunur.

Ünvan: Bakı şəhəri, Sabunçu rayonu Zabrat/Maştağa şosesi.

***Tender komissiyası***

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin Tədris resursları şöbəsinin müdiri Elvin Rüstəmova əzizi

**HAMLET RÜSTƏMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi komissiyanın İqtisad Elmləri üzrə Ekspert Şurasının sədri, Azərbaycan Texniki Universitetinin rektoru, professor Vilayət Vəliyevə qardaşı

**VƏLİ MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağdam rayonundan Vaqif Həsənov Türkiyə Cümhuriyyətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özarala atası

**ZƏKİ BƏYİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mingəçevir Dövlət Universitetinin rektoru Şahin Bayramov Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyevə qardaşı

**VƏLİ ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyevə qardaşı

**VƏLİ ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva, Həmkarlar İttifaqı Komitəsi və professor-müəllim heyəti Türkiyə Cümhuriyyətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özarala atası

**ZƏKİ BƏYİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri Tahir Həsənov adına 23 saylı tam orta məktəbin kollektivi məktəbin direktoru Yuliya Kərimovaya atası

**İVAN MÜTÜ oğlu ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Rahim Hüseynov ailə üzvləri ilə birlikdə Əli və Məhəmməd Abdullayevlərə ataları

**İZZƏT ABDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş redaktorun birinci müavini
Amil NOVRUZOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6975
Sifariş 394
Qiyməti 40 qəpik